**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

21 iyul 2023-cü il
№27 (9035)

www.muallim.edu.az
muallim@edu.gov.az

## BU SAYIMIZDA

"2022-2026 Dövlət Proqramı"na sənəd qəbulu üzrə ilkin siyahı təsdiq olunub



səh.2

MİQ imtahanlarında yüksək bal toplayan müəllimin uğur hekayəsi



səh.3

Təhsilin İnkişafı Fondu İKT sahəsində ixtisaslaşmış şirkətlər ilə görüş keçirib



səh.4

Hədəflər yüksək, uğurlar böyük

LDU
1 9 9 2
LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ

səh.6

Təhsil sistemində uşaq müdafiəsi və təhlükəsizliyi




səh.9

# 1 gümüş, 3 bürünc medal

1 həvəsləndirici mükafat




## Beynəlxalq Fizika Olimpiadasında (IPHO) məktəblilərimizin uğuru

10-17 iyul tarixlərində Yaponiyanın Tokio şəhərində keçirilən Beynəlxalq Fizika Olimpiadasında (IPHO) məktəblilərimiz uğurla çıxış ediblər. Belə ki, komandamız 1 gümüş, 3 bürünc medal və 1 həvəsləndirici mükafat qazanıb.

Olimpiadada Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdləri Sadiq Sadıxzadə gümüş, Murad Abdulkərim bürünc, Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin XI sinif şagirdləri Nicat Abbasov və Uğur Əzim bürünc medala, Quba şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin X sinif şagirdi Murad İsmayılov həvəsləndirici mükafata layiq görülüblər.

**Şagirdlərimizi təbrik edir və onlara uğurlar arzulayırıq!**

# Əmək bazarının tələblərinə uyğun kadr hazırlığında peşə təhsilinin rolu artır



## Prezident İlham Əliyev Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Cəlilabad rayonunda olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev Prezident İlham Əliyevə mərkəzdə yaradılan şərait barədə məlumat verdi.

Qeyd edək ki, ölkəmizdə əmək bazarının tələblərinə uyğun kadr hazırlığında peşə təhsilinin rolu artır. Bu sahəyə göstərilən diqqət həm də müasir infrastrukturun formalaşdırılması ilə müşayiət olunur. Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzi də regional inkişaf proqramından irəli gələrək bölgədə gənclərin peşə bacarıqlarına yiyələnməsinə yeni imkanlar yaradacaq.

Məlumat verildi ki, hazırda Azərbaycanda 98 peşə təhsili müəssisəsi var. Peşə təhsil mərkəzlərinin sayı isə 14-dür. Ölkəmizdə 120 ixtisas üzrə 23 min 600 tələbə peşə təhsili alır. Son üç ildə peşə qəbulu üzrə göstəricilər 30 faiz artaraq, keçən il tələbələrin sayı 19 mini ötüb.

⇨Ardı səh.2



**Aysel Əhədova:**

**"...Əgər siz uşaqları ruhlandıra bilsəniz, gələcək üçün bir neçə alimi qazana bilərsiniz"**

# "Xəyallarınızın arxasınca getməyə cəsarət etmək vacibdir"

Aysel Əhədova Almaniyanın Heidelberg Universiteti Xəstəxanasında və Alman Xərçəng Araşdırma Mərkəzində (DKFZ) Tətbiqi xərçəng biologiyası şöbəsində alim tədqiqatçı kimi çalışır. O, Azərbaycan Tibb Universitetində təhsil aldıqdan sonra DAAD və "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" ilə "Linç sindromu" üzrə tədqiqat aparmaq üçün Heydelberq Universitetinin doktoranturasına qəbul olunub. Elm kommunikasiyasında elm şücaətçisi kimi fəaldır və Bielefelddə "DNT təmiri - böyük nəticələrə malik kiçik səhvlər" adlı çıxışı ilə Alman FameLab Finale 2023-ci ilin qalibi olub. O, mürəkkəb elmi problemi cəmi üç dəqiqə ərzində izah etmək üçün orijinal metodlardan yararlanaraq ölkədə böyük nüfuza malik beynəlxalq müsabiqənin qalibidir.

A.Əhədova Almaniyanın *www.wissenschaftskommunikation.de* saytının (FameLab müsabiqəsinin rəsmi tərəfdaşlarından biri) əməkdaşı Clara Morweiserə verdiyi müsahibədə uğur hekayəsini paylaşıb. Elmi ünsiyyətin çətinlikləri, təcrübəsi və əyləncəsi barədə danışan gənc azərbaycanlı tədqiqatçının elm sahəsində əldə etdiyi nailiyyətlərinin gənclər üçün motivasiya mənbəyi olacağını və maraq doğuracağını nəzərə alaraq, həmin müsahibəni "Azərbaycan müəllimi" qəzetinin oxucularına təqdim edirik.

⇨Ardı səh.10

# Elm və təhsilin inkişafı naminə

**Məlumdur ki, qloballaşma dövründə elmi biliklərin rolunun artması innovasiyaəsaslı təlim texnologiyalarının ali təhsil müəssisələrində tətbiqinin genişlənməsi və universitetlərin elmi-tədqiqat statusunun möhkəmlənməsi ilə müşayiət olunmaqdadır. Ötən həftə Elm və Təhsil Nazirliyinin təşəbbüsü ilə Təhsildə Keyfiyyət Təminatı Agentliyi və dünyanın aparıcı şirkətlərindən biri olan "Clarivate Analytics" şirkəti arasında əməkdaşlığa dair müqavilənin imzalanması ölkəmizin təhsil və elm müəssisələrində çalışan alimlərimizin elmi-tədqiqatçılıq fəaliyyətinin daha səmərəli təşkili və dünya elmmetrik bazalarına çıxışın təmin olunması baxımından xüsusi əhəmiyyət daşıyır.**

**İmzalanma mərasimində elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli, Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) sədri Ülkər Səttarova, "Clarivate Analytics" şirkətinin vitse-prezidenti Stephen Hawthorne iştirak ediblər. Müqaviləyə əsasən, ilk dəfə olaraq Azərbaycanın yerli ali təhsil müəssisələri və eləcə də elmi tədqiqat institutları üçün "Web of Science" elmmetrik bazasına çıxış imkanı yaradılacaq.**

⇨Ardı səh.8

## 8 nəfər "Türkiye Bursları" çərçivəsində Türkiyədə təhsil alacaq

Elm və Təhsil Nazirliyi ilə Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Baş İdarəsi arasında imzalanmış Niyyət Məktubu çərçivəsində 8 nəfər Azərbaycan vətəndaşı 2023-2024-cü tədris ili üzrə təqaüdlü təhsil almaq imkanı qazanıb. Həmin şəxslər "Türkiye Bursları" çərçivəsində bu ölkənin müxtəlif nüfuzlu universitetlərində doktorantura səviyyəsi üzrə təhsil alacaqlar.

Təqaüd əldə edənlər təhsil, paleoantropologiya, psixologiya, molekulyar biologiya, kimya, hüquq və tarix ixtisas istiqamətləri üzrə Ankara Universiteti, İzmir Yüksək Texnologiya İnstitutu, İstanbul Universiteti, Qazi Universiteti, Qara dəniz Texniki Universiteti və digər universitetlərdə tədqiqat aparacaqlar.

Qeyd edək ki, müvafiq təqaüd proqramı barədə elan (https://htp.edu.az/az/news/1219#.ZLYuD3bP3IV) 30 yanvar 2023-cü il tarixində verilib.

# Əmək bazarının tələblərinə uyğun kadr hazırlığında peşə təhsilinin rolu artır

## Prezident İlham Əliyev Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib





⇦ Əvvəli səh.1

Bundan başqa, 2022-2023-cü tədris ilində 5 regionda fəaliyyət göstərən 8 peşə təhsil müəssisəsində yüksək texniki peşə təhsil səviyyəsi üzrə də tələbə qəbulu aparılıb. Hazırda respublikada 1466 tələbə yüksək texniki peşə təhsili alır. Bu təhsil səviyyəsi üzrə tələbələrin sayının 2026-cı ilə qədər 9200-ə çatdırılması planlaşdırılır.

Bildirildi ki, hazırda Lənkəran Peşə Liseyi, Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi üçün binalar tikilir. Mingəçevir Peşə Təhsil Mərkəzinin binasının tikintisi isə başlamaq üzrədir. Eləcə də Füzuli Peşə Liseyi, Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi, Tovuz, Qax və Quba Peşə liseylərinin binalarının layihələndirilməsi aparılır. Qarabağda Kəlbəcər və Laçın peşə məktəblərinin tikintisi planlaşdırılır. Böyük Qayıdış Proqramı çərçivəsində ümumilikdə 8 peşə təhsil müəssisəsi tikilib istifadəyə veriləcək.

Dövlətimizin başçısı Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzində yaradılan şəraitlə tanış oldu.

Ən müasir infrastruktur, maddi-texniki baza ilə təchiz olunan Mərkəzin ərazisində 25 sinif otağı, 3 laboratoriya, 13 emalatxana, informatika kabineti, STEAM Mərkəzi, praktiki məşğələ otağı, kitabxana, 252 yerlik akt zalı, 128 yerlik yeməkxana, idman zalları və meydançaları, avtotəmir binası, maldarlıq ferması və digər köməkçi binalar yerləşir.




Peşə Təhsil Mərkəzində qənnadıçı, şirniyyatçı, dərzi, kompüterlərin təmiri və xidməti üzrə texnik, mühasibat uçotu, qrafik dizayner, veb-dizayn və proqram təminatı, çilingər-santexnik, geniş profilli traktorçu-maşinist, elektrik montyoru, bərbər-vizajist-manikürçü, avtomobillərin təmiri çilingəri, avtomobil sürücüsü, mebel ustası istiqamətləri üzrə mütəxəssis hazırlığı aparılacaq.

Eyni zamanda, kənd təsərrüfatı mütəxəssislərinə artan tələbatı nəzərə alaraq bu sahə üzrə tədrisə xüsusi diqqət yetirilib. Müəssisədə kənd təsərrüfatı məhsullarının istehsalı üzrə fermer, bitkiçilik, heyvandarlıq və baytarlıq üzrə mütəxəssislər də hazırlanacaq.

Qeyd edək ki, son illərdə Azərbaycanda peşə təhsilinin inkişafı istiqamətində əhəmiyyətli addımlar atılıb. Prezident İlham Əliyevin 2016-cı il 20 aprel tarixli Fərmanına əsasən, Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması, peşə təhsilinin yeni çağırışlara uyğunlaşdırılması, peşə təhsil müəssisələrinin rolunun və statusunun yüksəldilməsi bu sahəyə xüsusi diqqətin təzahürüdür.

Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin istifadəyə verilməsi bölgələrdə gənclərin yeni tələblərə uyğun bilik və bacarıqlara yiyələnməsinə, eləcə də məşğulluq məsələlərinin həllinə xidmət edəcək.

### "2022-2026 Dövlət Proqramı"na sənəd qəbulu üzrə ilkin siyahı təsdiq olunub

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"na 2023-2024-cü tədris ilinə dair sənəd qəbulu üzrə ilkin nəticələr müəyyən olunub.

Müsabiqənin ilkin nəticələrinə əsasən, ümumilikdə 134 namizəd müvafiq seçim qaydalarına dair meyarlara uyğun olaraq Dövlət Proqramına qəbul olub və proqram iştirakçısı adını qazanıb.

Təqaüd qazanan gənclər sırasında 6 nəfər "University College London", 3 nəfər "Harvard University", 1 nəfər "Massachusetts Institute of Technology", 2 nəfər "ETH Zurich", 2 nəfər "Imperial College London", 3 nəfər "Columbia University", 1 nəfər isə "Stanford University" kimi nüfuzlu ali təhsil müəssisələrindən qəbul alıb.

Qeyd edək ki, Dövlət Proqramı çərçivəsində ilkin mərhələdə sənədlərini düzgün şəkildə təqdim edən namizədlər müsahibə mərhələsinə dəvət olunurlar. Müsabiqə üzrə digər müraciətçilərin nəticələrinin növbəti həftələrdə ictimaiyyətə açıqlanması nəzərdə tutulur.

# Elm və Təhsil Nazirliyində hesabat müşavirəsi






## Müşavirədə Bakı Şəhəri üzrə Təhsil İdarəsi və Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin hesabatları dinlənilib

İyulun 19-da Elm və Təhsil Nazirliyində nazirliyin rəhbər heyəti, struktur bölmə və qurum rəhbərlərinin iştirakı ilə hesabat müşavirəsi keçirilib.

Müşavirənin keçirilməsində məqsəd nazirliyin struktur bölmə və qurumları arasında əməkdaşlığın artırılması, çevikliyin təmin olunması, təhsil sahəsində görülmüş işlər, yaranmış çətinliklər, qarşıda duran məsələlərlə bağlı tərəflərin məlumatlandırılması, təkliflərin səsləndirilməsi, eləcə də müvafiq istiqamətlərdə müzakirələrin aparılması olub.

Müşavirədə Elm və Təhsil Nazirliyinin cari il üzrə əsas hədəfləri və bu istiqamətdə görülmüş işlər barədə məlumat verilib.

Bildirilib ki, nazirliyin əhatə etdiyi fəaliyyətlərin vaxtında və uğurlu icrası hər bir struktur bölmə və idarənin fəaliyyətindən bilavasitə asılıdır. Bu baxımdan Elm və Təhsil Nazirliyinin struktur bölmələri, regional idarələri və tabeliyindəki qurumlar arasında nazirliyin fəaliyyəti ilə bağlı məlumatlılıq və hesabatlılığın artırılması, öyrənilmiş dərslərin nəzərdən keçirilməsi və açıq müzakirənin aparılması məqsədilə bu cür görüşlərin mütəmadi təşkilinin vacibliyi vurğulanıb.

Müşavirədə Bakı Şəhəri üzrə Təhsil İdarəsi və Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin hesabatları dinlənilib, iştirakçıların sualları cavablandırılıb.

# Olimpiada qalibləri olan şagirdlər Azərbaycanın ən yaxşı kadrları olacaq

## Respublika fənn olimpiadalarının qalibləri mükafatlandırıldı

İyulun 14-də respublika fənn olimpiadalarının qalibləri mükafatlandırılıb. 8 fənn üzrə təşkil edilən olimpiadalarda 84 qızıl, 166 gümüş, 248 bürünc olmaqla, ümumilikdə 498 şagird medal qazanıb. Respublika fənn olimpiadalarında ən yüksək nəticə göstərən 9 qızıl medalçı həm də "Birincilərin birincisi" elan edilərək təltif olunub. Şagirdlərin mükafatlandırılması mərasimində Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdir müavini Nigar Hacıyeva, gənclər və idman naziri Fərid Qayıbov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Şahin Seyidzadə, dövlət qurumlarının rəsmiləri, millət vəkilləri, ali təhsil müəssisələrinin rektorları və digər qonaqlar iştirak edib.

Tədbirdə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev olimpiadaların təşkil edildiyi ilk illəri xatırladıb. Onun sözlərinə görə, əvvəllər çox az sayda məktəblinin qatıldığı proses artıq bir neçə ildir hərəkata çevrilib. Nazir bildirib ki, son 7-8 ildə olimpiadalarda ən uğurlu nəticələr əldə edilib: "Təxminən 15 ilə olimpiada qalibləri olan şagirdlər Azərbaycanın ən yaxşı kadrları olacaq. Bilik və bacarıqların inkişafı milli sərvətimizdir. Ölkənin iqtisadiyyatı, sosial inkişafı məhz bu sərvətlərdən necə istifadə etməyimizdən asılı olacaq".

Nazir olimpiada qaliblərinin dünyanın nüfuzlu universitetlərinə qəbulunu bu müsabiqələrin uğuru kimi qiymətləndirib. O, həmin şagirdlərin qəbul imtahanları göstəricilərinin Azərbaycanda da yüksək olduğunu vurğulayıb. Beynəlxalq olimpiada qaliblərinin müsabiqədənkənar ali məktəbə qəbulunun sui-istifadələrə gətirib çıxaracağı ilə bağlı vaxtilə səsləndirilən iddiaları xatırladıb: "Olimpiada qalibləri Azərbaycanda ali məktəblərə qəbul imtahanlarında da iştirak edir. Onların topladıqları bal 650-dən çox olur".

Nazir hesab edir ki, istedadlı uşağa daha çox pul xərcləmək lazımdır: "Ailənin maddi vəziyyətindən asılı olmayaraq həmin uşaqları vahid məktəbdə toplayıb onları rəqabətli məzmunla hazırlamaq önəmlidir".

**Ruhiyyə DAŞSALAHLI**











# "Özümə göstərmək istəyirəm ki, hazırlıqlıyam"

## MİQ imtahanlarında yüksək bal toplayan müəllimin uğur hekayəsi

Azərbaycanda müəllimlərin işə qəbulu üzrə daha bir imtahan yekunlaşıb. Bununla da, 2023/2024-cü tədris ili üzrə keçirilən müsabiqənin iyulun 11-15-də reallaşan test imtahanları mərhələsi başa çatıb və nəticələri namizədlərin şəxsi səhifələrinə göndərilib.

Xatırladaq ki, bu il MİQ vasitəsilə 10000 müəllimin işə qəbulu hədəflənib.

Əvvəlki illərdən fərqli olaraq, imtahan zamanı namizədlərə 150 dəqiqə vaxt verilib. Bununla yanaşı, ilk dəfə olaraq eyni seansda 8000-dən artıq namizəd imtahana qatılıb ki, bunun namizədlər arasında daha ədalətli rəqabət imkanı yaratdığı düşünülür.

### Müəllim yüksək hazırlıqlı olmalıdır

İmtahanlarda keçid balı deyil, ən yüksək nəticə əldə edən bir neçə namizəddən biri Ülviyyə Mahmudova Azərbaycan dili və ədəbiyyat müəllimidir.

2017-ci ildən müəllimlərin işə qəbulu müsabiqəsinə qatılan Ülviyyə müəllim indiyədək hər il yaxşı bal toplayıb. Məqsədi daha yaxşı işə qəbul olunmaq, ya da yerdəyişmə olmayıb. Əksinə, çalışdığı məktəbdən də, kolektivdən də çox razıdır: "Hər il müəllimlərin işə qəbulu müsabiqəsinə qatılıram. Sadəcə ona görə ki, müəllim kimi bacarıqlarımı sübut edim. Göstərim ki, tutduğum vəzifəyə layiqəm. Özü də başqasına yox, məhz özümə göstərmək istəyirəm ki, hazırlıqlıyam və hər gün sinifdə şagirdlərimin qarşısına çıxa bilərəm. "Müəllimlər imtahan verməməlidir", yaxud "Sertifikasiya olunmamalıdır", - fikirlərinin əleyhinəyəm. Əksinə, müəllimlər 3 ildən bir imtahan olunmalıdır. İşə qəbul olunduqdan sonra həmin işi ömürlük tutduğunu düşünən müəllim özünü təkmilləşdirməyə çalışmır və illər keçdikcə bilik səviyyəsi aşağı düşür. Sinifdə yüksək potensiallı şagirdlər var. Belə uşaqların qarşısına çıxa bilməsi üçün müəllimlərdən yüksək hazırlılıq tələb olunur. Əks halda, sinifdə pis vəziyyətdə qala bilərlər".





Qeyd edək ki, Ülviyyə Mahmudova sertifikatlaşdırma imtahanında da yüksək nəticə göstərib. O, 60 baldan 58 bal toplayıb.

### "Seçim mərhələsinə də qatılacaqdım, ancaq..."

Ülviyyə Mahmudova 1980-ci ildə Cəlilabad şəhərində doğulub. Məktəblə ilk tanışlığı da elə burda olub. Cəlilabad şəhər 1 nömrəli tam orta məktəbdən məzun olandan sonra Bakı Dövlət Universitetinə daxil olub. Filologiya üzrə bakalavriat, Dilşünaslıq (Türkologiya) üzrə magistratura səviyyələrində təhsil alıb. 2001-ci ildə müəllimlik fəaliyyətinə başlayıb. 2006-2013-cü illərdə Azərbaycan Müəllimlər İnstitutunda çalışıb. 2013-cü ildə məktəbdə fəaliyyətinə ara verib. Bundan sonra özəl dərslər verib, tədris mərkəzlərində çalışıb. 2019-cu ildə keçirilən müəllimlərin işə qəbulu müsabiqəsində 60 mümkün baldan 58 bal toplayaraq Mehdiabad 5 nömrəli tam orta məktəbdə daimi əsaslarla müəllim vəzifəsinin icrasına başlayıb. Hazırda həmin məktəbdə çalışan Ülviyyə müəllimin yaşayış yeri iş yerindən uzaqdır: "Xırdalan şəhərində yaşayıram və hər gün Mehdiabada gedirəm. İndiyədək bu, heç vaxt problem olmayıb. Ötən il səhhətimdə problem yarandı. Ona görə də bu il müsabiqəyə qatılanda iş yerimi dəyişmək üçün seçim mərhələsinə qatılmağı planlaşdırırdım. Amma indi tərəddüd edirəm. Mənim iş yerim var. Seçim mərhələsinə qatılaraq işsiz namizədlərin işlə təmin olunmaq şansını əllərindən almaq istəmirəm".

### Müəllim imtahana yox, şagirdlərin qarşısına çıxmaq üçün hazırlaşmalıdır

Ülviyyə Mahmudova sinfə hazırlıqsız girməyi xəyanət hesab edir və "gecə-gündüz imtahanlara hazırlaşan" müəllimlərlə razılaşmır: "Müəllim hər gün dərsə girir. İmtahanda qarşımıza çıxan suallar hər gün dərsdə uşaqlara təqdim etdiklərimizdir. Müəllim, sadəcə işə qəbul olunmaq, iş yerini dəyişmək, sertifikasiyadan keçmək üçün yox, hər gün hazırlaşmalı, məhz şagirdlərin qarşısına çıxmaq üçün oxumalı, özünü təkmilləşdirməli, gördüyü işin dəyərini bilməlidir".

**Ruhiyyə DAŞSALAHLI**

# Təhsilimiz yeni uğurlara doğru

Müasir dövrdə qloballaşma və informasiya cəmiyyəti quruculuğu prosesində hər bir ölkənin qarşısında bir sıra strateji vəzifələr dayanır. İnkişafın strateji məqsəd kimi müəyyənləşdirilməsi isə ayrı-ayrı sahələrin paralel tərəqqisini və XXI əsrin çağırışlarına adekvat cavab verməyi zəruri edir. Bu baxımdan, təhsil sektorunun inkişafı da xüsusi əhəmiyyət daşıyır.

Müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanın Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi Azərbaycanın qarşısında böyük imkanlar açır. Biz bu strategiyanın uğurlu nəticələrini bütün sahələrdə, o cümlədən təhsil sistemində əldə olunmuş mütərəqqi inkişafda aydın görürük. Təhsil sistemində inteqrasiya, təhsil standartlarının müasirləşdirilməsi, təhsildə keyfiyyətin artırılması, bilikli və bacarıqlı gənc nəslin yetişdirilməsi istiqamətində görülən işlər Azərbaycan təhsilinin inkişafını təmin edib.

İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişaf etdiyi zamanda cəmiyyətin daha çox diqqət yetirdiyi təhsil sistemi də yeniləşmə tələb edir. Yeni milli kurikulum proqramlarının qəbulu təhsilalanların yalnız mükəmməl biliyə deyil, həm də müvafiq olaraq bacarıq və vərdişlərə yiyələnmələri ilə xarakterizə olunur. Təhsilalanlarda bilik, bacarıq və vərdişləri stimullaşdıran təfəkkürün formalaşması onlarda müstəqil yaradıcılıq və tədqiqatçılıq qabiliyyətlərini inkişaf etdirir. Sirr deyil ki, bu problemin həllində müstəsna yük müəllimlərin üzərinə düşür. Bundan ötrü müasir müəllim özünü və tədris prosesinə yanaşma formasını dəyişməlidir. 2014-cü ildən başlanan və mərhələli şəkildə davam edən müəllimlərin diaqnostik qiymətləndirilməsi bu problemin həllinə doğru ilk addım kimi əhəmiyyətli idi.

2020-ci ildən isə ümumtəhsil məktəblərində çalışan müəllimlərin sertifikatlaşdırılması məsələsi gündəmə gəldi. Beş ildən bir keçirilməsi nəzərdə tutulan sertifikatlaşdırmanın reallaşdırılması, şübhəsiz ki, təhsilin keyfiyyətinə təsir etmək baxımından növbəti bir addımdır. Hal-hazırda İbtidai təhsil və Azərbaycan dili və ədəbiyyat fənnləri üzrə keçirilən sertifikasiya imtahanı biz müəllimlər üçün sınaq oldu. Sınaqdan müsbət nəticələrlə yanaşı yetərincə bal toplamayanlar da oldu. Yəqin ki, növbəti sertifikasiya imtahanlarında bütün müəllimlər yüksək nəticə əldə etmək məqsədilə çalışarlar.

Mən də Quba rayon Çingiz Mursalov adına Vəlvələ kənd tam orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi kimi çalışıram. 2002-2006-cı illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışam. Qeyd edim ki, diaqnostik imtahandan 52 bal, sertifikasiya imtahanından 55 bal qazanmışam. Elm və Təhsil Nazirliyi tərəfindən sertifikasiya imtahanlarının keçirilməsi daha məsuliyyətlə çalışmaq, bilik və bacarıqlarımızı artırmaq üçün böyük stimul verir.

Qeyd etmək istəyirəm ki, çalışdığım məktəbdə hazırda 350-yə yaxın şagird təhsil alır. Məktəbimizin direktoru İsmayıl Fərzəliyev, təlim-tərbiyə işləri üzrə direktor müavini İftixar İsrafilov, eləcə də bütün pedaqoji kollektiv şagirdlərimizin yüksək bilik və bacarıq qazanmaları üçün səylə çalışır. Builki məzunlarımızın 50 faizə qədərinin ali məktəblərə qəbul imtahanları zamanı tələbə adını qazanmaları bizi çox sevindirir.

Onu da bildirmək istəyirəm ki, hazırda kəndimizdə 3 korpuslu və 3 mərtəbəli yeni məktəb binası tikilir və yeni tədris ilinin başlanmasına qədər istifadəyə verilməsi nəzərdə tutulur. Göstərilən bu diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevaya, elm və təhsil naziri Emin Əmrullayevə dərin təşəkkürümüzü bildiririk. Yeni məktəb binasının ən müasir standartlara uyğun tikilməsi, şübhəsiz ki, verilən təhsilin keyfiyyətinə də müsbət təsir göstərəcək. Biz də təhsil işçiləri olaraq dövlətimizin göstərdiyi etimadı daim doğrultmağa çalışacağıq.

**Minarə İSRAFİLOVA,**
*Quba rayon Çingiz Mursalov adına Vəlvələ kənd tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi*

# Təhsilin İnkişafı Fondu İKT sahəsində ixtisaslaşmış şirkətlər ilə görüş keçirib

## Universitet – sənaye işbirliyi çərçivəsində dövlət-özəl təşkilatlar arasında dialoq davamlı şəkildə aparılacaq

İyulun 18-də Azərbaycan Texniki Universitetində (AzTU) yerləşən universitet-sənaye işbirliyi mərkəzində İKT sahəsində ixtisaslaşmış şirkətlər ilə görüş keçirilib. Görüşün məqsədi universitet-sənaye tərəfdaşlığının gücləndirilməsi istiqamətində dialoqun qurulması, həmçinin sənaye nümayəndələrinin Təhsilin İnkişafı Fondu (TİF) və "Women in Tech" təşkilatının Azərbaycan nümayəndəliyinin birgə təşkilatçılığı ilə təsis olunan Maya Hacıyeva adına "İKT bacarıqları" təqaüd proqramı haqqında məlumatlandırılmasıdır.







Tədbirdə Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev "Universitet-sənaye işbirliyi və İT" mövzusunda təqdimatla çıxış edib. Rektor bildirib ki, universitet-sənaye işbirliyinin inkişafı sahibkarlıq universiteti modelinin formalaşdırılması üçün imkan yaradır. Bu işbirliyində İT sektorunun inkişafı da mühüm amildir. Bunun üçün öyrətmə prosesi kamil olmalı, universitet-sənaye işbirliyini dəstəkləyən innovasiya ekosistemi yaradılmalı, mühəndislik istiqamətində həyata keçirilən tədris prosesi proqram təminatı vasitəsilə aparılmalı, İT təşkilat və şirkətləri ilə əməkdaşlıqlar qurulmalıdır.

**Universitet-sənaye işbirliyinin başlıca hədəflərindən biri insan kapitalının inkişafıdır. Bu əməkdaşlıq həm tərəfdaş müəssisələrin mövcud heyətinin, həm də iş həyatında ilk addımlarını atan tələbələrin təlimləndirilməsinə və təcrübə qazanmasına dəstək ola bilər. Ən mühüm dəyər isə yaranacaq innovativ ideyaların məhsullara və xidmətlərə çevrilə bilməsidir.**

Sonra çıxış edən Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov qonaqları salamlayaraq Fondun fəaliyyət istiqamətləri haqqında məlumatı diqqətə çatdırıb. TİF İdarə Heyətinin sədri müasir işəgötürənin tələblərinə cavab verən gənclərin yetişdirilməsində, həmçinin önəmli tədqiqat işlərinin aparılmasında sənaye nümayəndələrinin iştirakının vacib rol oynadığını bildirib. Universitet-sənaye işbirliyinin başlıca hədəflərindən biri insan kapitalının inkişafıdır. Bu əməkdaşlıq həm tərəfdaş müəssisələrin mövcud heyətinin, həm də iş həyatında ilk addımlarını atan tələbələrin təlimləndirilməsinə və təcrübə qazanmasına dəstək ola bilər. Ən mühüm dəyər isə yaranacaq innovativ ideyaların məhsullara və xidmətlərə çevrilə bilməsidir.

Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov beynəlxalq konsaltinq şirkəti olan "Accenture" şirkətinin araşdırmasından maraqlı məlumatı görüş iştirakçıları ilə paylaşıb. Şirkət dünyada qızların İKT sahəsinə marağının az olması səbəblərini araşdırıb. Birinci səbəb İT və STEM sahəsinin kreativliyinin az, ikinci səbəb isə İT sahəsində müəllimlərin 70%-nin kişilərdən ibarət olmasıdır. Bu stereotip təhsilalanlara 4-cü sinifdən sonra təsir etməyə başlayır. V. Xanlarov bu məsələnin həllinin İT təhsilinin kütləvi və hər kəsə əlçatan olmasında gördüyünü vurğulayıb.

"Women in Tech" təşkilatının Azərbaycandakı nümayəndəliyinin səfiri Leyla Seyidzadə bildirib ki, təşkilat Azərbaycan daxil olmaqla 50-dən çox ölkədə qadınların İKT sahəsində təşəbbüslərinin reallaşmasına dəstək göstərir, lakin bənzər təqaüd proqramları çox az ölkədə var. Bu cür proqramların olmasının ölkəmizin imici üçün də vacib olduğunu qeyd edib. L.Seyidzadə təqaüd proqramının şərtləri barədə ətraflı məlumat verib. Bildirilib ki, əsas məqsəd qadınların informasiya texnologiyaları və yüksək texnologiyalar üzrə bilik və bacarıqlarının artırılması və cəmiyyətdə müvafiq olaraq öz yerlərini tuta bilmələri məqsədilə onlara bu sahədə təqaüdlərin ayrılmasıdır. Təqaüd fiziki və hüquqi şəxslər tərəfindən sözügedən layihəyə köçürülmüş ianələr, qrantlar və ya digər daxilolmalar hesabına ayrılacaqdır. Proqramda iştirak üçün Azərbaycan vətəndaşı olan 15 — 40 yaş aralığında olan qadınlar müraciət edə bilər.

Sənaye və biznes nümayəndələri tədbirdə fəal iştirak ediblər. Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının İdarə Heyətinin sədri Elvin Balacanov, Azərbaycan Beynəlxalq Bankının İdarə Heyəti sədrinin müşaviri Zaur Ələkbərov, "Edumedia Azərbaycan" MMC-nin rəhbəri Orxan Abbasov, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz, "Azerbaijan Global İT Technology" şirkətinin icraçı direktoru Rəşad Əhmədov, "CAE" MMC-nin rəhbəri Rahim Xasıyev, "BestComp Group" MMC-nin insan resursları şöbəsinin rəhbəri Fuad Qənbərov və digər nümayəndələr bir sıra maraqlı suallar və təkliflər səsləndiriblər.

Yekunda TİF sədri E.Nəsibov universitet-sənaye işbirliyi çərçivəsində dövlət-özəl təşkilatlar arasında dialoqun və tərəfdaşlığın davamlı şəkildə aparılmasının vacibliyini vurğulayıb və bütün iştirakçılara təşəkkürünü bildirib.

# Memarlıq və velosiped: Bakıdan Kopenhagenə baxış



Bir neçə gün öncə Danimarkanın Kopenhagen şəhərində Beynəlxalq Memarlar İttifaqının (BMİ) təşkilatçılığı ilə Ümumdünya Memarlar Konqresi keçirilib. Konqresdə ölkəmizi Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) rektoru professor Gülçöhrə Məmmədova, AzMİU-nun Memarlıq layihələndirilməsi və şəhərsalma kafedrasının müdiri professor Elbay Qasımzadə, İtaliya-Azərbaycan Dizayn Mərkəzinin direktoru Fərid Kərimov, AzMİU-nun Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrasının baş müəllimi Aliya Əliyeva və Memarlıq fakültəsinin tələbələri Leyli Əfəndiyeva, Jalə Abuşova, Ayməsey Qafarzadə, Ramid Səlimov təmsil ediblər. Ümumilikdə 135 ölkədən 6000-dən çox iştirakçının qatıldığı konqresdə tanınmış tədqiqatçılar və elm adamları iqlim dəyişikliyi ilə mübarizə, biomüxtəlifliyi artırmaq və sosial inklüzivliyin təşviqi üçün yeni memarlıq həlləri, dizayn yollarını axtarıblar. Ölkəmizi təmsil edən nümayəndə heyətinin tərkibində müəllim və tələbələrin təmsil olunması Azərbaycanın memarlıq üzrə təhsil sferasına necə təsir edəcək? Əlbəttə ki, tələbələrin təəssüratları çox maraqlıdır.

## MÜSAHİBƏ





*Ramid:* Konqres çox maraqlı təşkil olunmuşdur. Orada bir çox məşhur memarlar çıxış etdilər. Anna Dyson, Billy Fleming, Hans Joachim Schellnhuber, Carlos Moreno və digərləri.

Mənim üçün isə ən maraqlı və yadda qalan Bjarke İngelsin çıxışı idi. Onun düşüncələri mənim üçün faydalı və informativ xarakter daşıyırdı. O, memarlığın cəmiyyətin dəyişimindəki rolunu vurğulayaraq qeyd etdi ki, memarlar dəbi keçmiş qalıqlara uyğunlaşmaq üçün özlərini məcbur etmək əvəzinə, keçmişə istinad edib həqiqətən yaşamaq istədiyimiz yerlər yaratmağı bacarmalıdırlar. Bjarke İngels, həmçinin çıxışında memarlıqla siyasəti də müqayisə etdi.

– *Müqayisə deyəndə nəyi nəzərdə tutursunuz? Fərqlər, yoxsa oxşarlıqlar?*

*Ramid:* Onun fikirlərini izah etməyə çalışacağam, o söylədi ki, siyasət vətəndaşların tələb, istək və qayğılarını dinləmək və bu kollektiv qayğıları təmsilçilik yolu ilə siyasi reallığa çevirməyə çalışmaq prosesidir; memarlıq isə çox oxşar və daha gizli bir şəkildə vətəndaşların qayğı və tələblərinin ödənilməsi ilə məşğul olur.

Bjarke İngelsin digər bir maraqlı fikri isə bu oldu ki, memarlıq yalnız xüsusi bir qrup üçün deyil, hamı üçün olmalıdır. Dizaynerlər təcrid olunmuş bir sənət növü kimi mövcud olmaqdansa, cəmiyyət üçün faydalı olan əsərlər istehsal edə bilməlidir.

– *Bu konqresin gələcək memarlıq karyeranızda nə kimi töhfələri olacağını düşünürsünüz?*

*Jalə:* Öncəliklə demək istəyirəm ki, konqres çox yüksək səviyyədə təşkil olunmuşdu. Maraqlı mühazirələr, sərgilər – hamısı möhtəşəm idi. Hansı ki, insanlar interaktiv şəkildə iştirak etdilər. Mənim fikrimcə, bu səfər zamanı gördüklərimiz, öyrəndiklərimiz həm mənim, həm yoldaşlarımın gələcək fəaliyyətinə təsirsiz ötüşməyəcək.

– *Konqresdə ən çox kimi görmək, dinləmək sizi məmnun etdi, hansı ki, hər zaman o məşhur memarı görməyi arzulamısınız?*

*Leyli:* Bu konqresin olacağını əvvəlcədən bilirdik. Təbii ki, hər bir tələbə kimi mən də belə bir konqresdə iştirak etməyi çox istəyirdim. Bizə deyiləndə ki, belə bir konqres olacaq və müəyyən tələbələr aparılacaq, mən maraqlanmağa başladım, öyrəndim ki, konqresin ilk spikeri mənim ən sevdiyim memar Bjarke İngels olacaq. Onunla bağlı çox gözəl təəssüratlar yarandı məndə, onu canlı izləmək və dinləmək çox xoş idi, biz hətta onun kitabını da aldıq.

– *Konqresdə iştirak etmək hüququnu qazanmaq çətin olmadı, seçim necə aparıldı?*

*Jalə:* Əlbəttə ki, çətin oldu. Müraciət edənlər çox idi. Seçim prosesində iştirak etmək üçün müraciət edən tələbələrdən ortalama balı yüksək olan tələbələr seçildi. Daha sonra müsahibə təşkil olundu, müsahibə ingilis dilində idi. Müsahibədə beynəlxalq təcrübənin hansı səviyyədə olması, konqresdə iştirak etmə istəyimizin səbəbi və s. kimi suallar verildi.

*Ayməsey:* Mən bu tədbiri çoxdan idi gözləyirdim, eşidəndə ki, bizim üçün konqresdə iştirak etmək şansı yaranıb, bu, məni çox sevindirdi və nə yaxşı ki, mən də belə bir beynəlxalq konqresdə iştirak etmək hüququ qazandım. Konqresdə mənim diqqətimi çəkən "Leave No One Behind" şüarı idi. Bu şüar əslində bütün şəhərlərdə, yaşayış məntəqələrində artan, xüsusən də iqlim və münaqişə böhranları nəticəsində yaranan mövcud bərabərsizlik problemlərinə diqqət çəkir.

Diqqətimi cəlb edən çıxışlardan biri isə Hans Joachim Schellnhuberin ekologiya ilə bağlı çıxışı oldu. O qlobal istiləşmədən danışdı. Bildirdi ki, qlobal istiləşmə ildən ilə çox artır. Dünya statistikasina görə bu il temperatur 4 dərəcə yüksəlib, əslində bu, çox böyük bir rəqəmdir. Bir dərəcə temperaturun böyük artımı kimi görünməyə bilər, lakin minlərlə insan üçün bu, həyat və ölüm arasındakı fərqdir. Əslində insanların çoxu bu haqda fikirləşmir, ancaq memarlığın da bu məsələyə çox böyük təsiri var. Bu səbəbdən memarlıqda davamlılığı təmin etmək lazımdır. Beləliklə, dizaynda enerji və resurs səmərəliliyi ön plana çıxır. Tikinti xərcləri ən aşağı, enerji və resurs səmərəliliyi ən yüksək səviyyədə saxlanılmalıdır. Materialın isə uzun müddət yararlı vəziyyətdə qalması ön planda tutularaq dizayn edilməlidir.

– *Fərid müəllim, tələbələrimizin təəssüratları olduqca maraqlıdır. Müəllim kimi siz necə düşünürsünüz, bu konqres AzMİU-nun memarlıq üzrə təhsil prosesinə necə təsir edəcək?*

*Fərid Kərimov:* Çox gəzən çox görər, çox bilər. Memarlıq elə bir sahədir ki, burada görmək, gəzmək çox önəm daşıyır. Bunlar hər biri memarın işində özünü göstərir. Bu nüansları nəzərə alsaq, konqresin əhəmiyyəti biz memarlar üçün çox böyükdür. Bizim müəllim heyətinin konqresdə əldə etdikləri bilikləri sonra gəlib tələbələrə çatdırması çox vacib bir məsələdir. Bu baxımdan AzMİU rəhbərliyinə öz təşəkkürümü bildirirəm ki, müəllim və tələbələrimizin orada iştirakını təmin etdilər. Digər tərəfdən orada yer alan panel çıxışlar həddən artıq maraqlı idi. Toxunulan mövzular günümüzlə səsləşir, memarlığın bir çox sahələrlə birgə inkişaf etdirilməsi məsələlərinə toxunulurdu. Məndən öncə də tələbələrimiz bu barədə danışdılar. Panel çıxışlar, konqresin mövzuları həddən artıq çox idi. Panel çıxışlar paralel şəkildə getdiyindən biz hamısında iştirak edə bilməsək də bacardığımız qədər qatılmağa çalışdıq. Əlavə olaraq konqresin təşkil etdiyi turlar var idi. Biz onun birində iştirak edə bildik.

Tələbələrimizlə birgə Danimarka memarlıq və dizayn muzeylərində olduq. Tarixi abidələri, tarixi məkanları gəzdik, bunlar tələbələrimiz üçün maraqlı idi. Bu, bizim gələcək fəaliyyətimizdə mühüm əhəmiyyət kəsb edə bilər. Bir müəllim kimi tələbələrlə bir yerdə bu səfərdə olmağım xoş duyğular yaratdı. Tələbələrimizin konqresdə iştiraklarından razı qaldım. Onlar çalışdılar ki, maksimal dərəcədə bu fürsətlərdən yararlansınlar, daha çox görsünlər, bilik əldə etsinlər, öz sahələrində olan yenilikləri öyrənsinlər. Konqres inanıram ki, tələbələrimizin öz sahələrində bilik və bacarıqlara yiyələnməsində əhəmiyyətli rol oynadı. Düşünürəm ki, tələbələrimiz orada gördüklərini, müşahidə etdiklərini öz qrup yoldaşları, memar dostları ilə də bölüşəcəklər. Onlar üçün bunun böyük faydası olacaq.

– *Konqresdə müzakirə olunan məsələlərdən nələr daha çox diqqətinizi cəlb etdi? Sizcə, Bakıda müasir memarlıq adı altında nələr etmək olar?*

*Ayməsey:* Biz Kopenhagendə hava limanından çıxanda havanın çox təmiz olduğunu müşahidə etdik. Bu, mənə çox maraqlı gəldi. Öyrəndim ki, əsas səbəb bütün nəqliyyat vasitələrinin – maşınlar, tramvaylar və metroların elektriklə işləməsidir. Fabriklərin hamısında filterlər var. Həmin fabriklər atmosferə karbon ötürmür, filterlər öz daxillərində saxlayır. Bu karbon tozları beton quyularda parlanılır. Mən sevinirəm ki, bu texnologiya hazırda ölkəmizdə də var. "Təmiz Şəhər"in Balaxanıda açdığı və yüksək texnologiyalarla işləyən fabrikləri Danimarkadakı fabriklərlə eyni prinsiplə işləyir.

*Leyli:* Dayanıqlılıq, davamlılıq önəmli bir mövzudur. Tək memarlıqda deyil, ümumilikdə bütün sahələrdə. Çünki hazırda dünyanın üzləşdiyi ən böyük problemlərdən biri iqlim dəyişikliyi ilə bağlıdır. Dayanıqlılıq bununla mübarizə aparan əsas üsullardandır. Biz öyrəndik ki, daha çox dayanıqlılığı memarlıqda tətbiq etmək lazımdır. Bunun üçün daha az enerji sərfiyyatlı inşaat məmulatlarından istifadə etmək vacibdir.

*Fərid Kərimov:* Velosipedləri unutmaq olmaz, velosipedlərdən istifadə artıq dövlətin bir siyasətinə çevrilib. Konqresdə də qeyd edildi, 1960-cı il Kopenhagen şəhəri və bugünkü Kopenhagenin şəkilləri yan-yana qoyuldu. Eyni küçənin vəziyyəti gözlər önünə gətirildi. Neçə illərin siyasəti nəticəsində həmin küçələr bu gün boşalıb. Maşınları velosipedlər əvəz ediblər. Ekologiyanı qorumaq məqsədi ilə velosipedlər üçün cığırlar yaradılır, məkanlar ayrılır, hər kəs üz tutduğu məkanlara velosipedlə gedir. Hava təmizlənir, yol boşalır, insanlar təmiz hava mühitində yaşayır. Bu işlər sayəsində insan yönümlü bir şəhər yaranıb.

*Ramid:* Qeyd edim ki, şəhəri gəzəndə gördük ki, bu prosesə tək memarlar və bu sahədə işlər aparan şəxslər deyil, ümumi xalq da öz töhfəsini verir. Onlar da tullantıları təmizləyir, tullantılardan nəsə dizayn etməyə çalışır. Bunu görmək bir turist kimi məni sevindirdi. Onlar bu yolla dünyaya təbiəti qoruyaq, memarlığı qoruyaq mesajı ötürürdülər.

**Nicat ABDULLAYEV**

## 2023 – "Heydər Əliyev İli"

# Bizim hamımız – mən də, siz də Azərbaycan məktəbinə, Azərbaycan müəllliminə borcluyuq

Respublikamızın çox güclü müəllim ordusu var. Azərbaycanın müəllimləri ən yüksək mənəviyyata, vətəndaşlıq hisslərinə malik olan insanlardır. Müəllimlik sənəti şərəfli bir sənətdir. Mən bunu öz həyatımda da, işlədiyim dövrlərdə müəllimlərlə görüşlərdə, danışıqlarda da hiss etmişəm ki, Azərbaycan müəllimləri bu şərəfli adı ləyaqətlə daşıyıblar və bu gün də daşıyırlar. Müəllim, həqiqi müəllim adını daşıyan insan həmişə, tarixin ən çətin dövrlərində dəyanətli, dözümlü olubdur və öz mənəviyyatını hər şeydən yüksək tutubdur. Bizim hamımız - mən də, siz də Azərbaycan məktəbinə, Azərbaycan müəlliminə borcluyuq. Cəmiyyətimizin ümidi, gələcəyi olan uşaqların təlim-tərbiyəsi kimi ən mühüm, ən vacib iş ona etibar edilmişdir. Müəllim öz biliyini, təcrübəsini, qüvvəsini, qiymətli nəyi varsa, hamısını şagirdlərinə, xalqa bəxş edir. Məktəbimizin bütün yetişdirmələrinə həyat vəsiqəsini müəllim vermişdir. Rəşadətə bərabər bu nəcib, fədakar əməyinə görə müəllimin yetişdirmələri, valideynlər ona hədsiz dərəcədə minnətdarıq.

Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz. Təhsilsiz xalq müasir şəraitdə öz imkanlarını həyatına sərf etmək üçün çox problemlərlə rastlaşar. Azərbaycan xalqının gələcəyi, müstəqil Azərbaycanın gələcəyi gənclərin bu gün aldıqları bilik, təhsil və tərbiyədən asılıdır. Çünki hər bir xalqın səviyyəsini onun bilik səviyyəsi müəyyən edir. Xüsusən, aparıcı qüvvə, hər bir ölkənin, hər bir millətin aparıcı qüvvəsi onun bilikli nümayəndələridir. Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o, mütləq hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır.

İnsanlar həmişə elmi cəmiyyətin ali dəyəri hesab etmişlər, ən qədim zamanlardan başlayaraq elm yüksək qiymətləndirilib və elmi kəşflər etmiş dahilər insan cəmiyyətinin inkişafına imkan yaratmışlar. Müasir həyat və dünyanın gələcəyi insanlardan daha da çox bilik tələb edir. Bilik səviyyəsinə də nail olmaq üçün təhsil daim mövcud olmalıdır və o, ardıcıl surətdə inkişaf etməlidir. Biz gələcəkdə Azərbaycanın təhsilinin daha da təkmilləşməsinə, keyfiyyətinin yüksəlməsinə nail ola biləcəyik. Gələcək bilikli, elmli insanların çiyinləri üstündə qurulacaqdır.



Təhsil sahəsi müqəddəs sahədir. Çünki təhsil sahəsi uşaqları, gəncləri hazırlayıb gələcəyə əsl vətəndaş, yüksək səviyyəli mütəxəssis etmək üçün mövcuddur. Amma bununla yanaşı, təhsilimizin ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Vətəndaş sözü böyük sözdür. Vətəndaş sözü o deməkdir ki, hər bir vətəndaş gərək dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq olsun. Ona görə də orta təhsil sisteminə çox ciddi fikir vermək lazımdır.

Azərbaycan Respublikasının, Azərbaycan xalqının XX əsrdə böyük nailiyyətlərindən biri də budur ki, bizdə yaxşı orta təhsil sistemi yaranmışdır və orta məktəblərimiz gənclərə yaxşı təhsil verir, onları tərbiyələndirir, gələcək müstəqil həyata hazırlayır, ali təhsil almağın bünövrəsini qoyur. Ümumi təhsil xalqın mentalitetidir, dünya xalqları ilə müqayisə olunacağı səviyyədir. İndi dünyaya gələn körpələr, birinci sinfə qədəm qoyan uşaqlar, bu gün yuxarı siniflərə girən şagirdlər, ali məktəblərə daxil olan gənclər təhsil, bilik almalıdırlar, müstəqil Azərbaycan Respublikasının bu gününü, gələcəyini təmin etmək üçün, gələcəkdə respublikamızı inkişaf etmiş bir ölkəyə çevirmək üçün təhsil almalıdırlar, bilik toplamalıdırlar, özlərini cəmiyyətdə fəaliyyətə hazırlamalıdırlar.

Məktəb həyatı təkcə təhsil vermir, eyni zamanda bu, yüksək tərbiyə ocağıdır. Bu, eyni zamanda uşağı, gənci müstəqil həyata hazırlayan bir səviyyədir. Məktəb elə bir prosesdir, orqanizmdir ki, burada hamı - şagird də, tələbə də, müəllim də, bütün kollektiv də inkişafdadır. Məktəbdə insanın dünyagörüşünün bünövrəsi qoyulur, onun xarakteri formalaşır, ideya dayaqlarının, mənəvi və əxlaqi dayaqların təməli yaradılır. Məktəbin təsiri altında əqidəliliyi, əməyə məhəbbət, yüksək mənəviyyat və humanizm, vətənpərvərlik və beynəlmiləlçilik kimi zəruri keyfiyyətləri tərbiyə edilir. Məktəbdə insanın baxışları, arzu və istəkləri formalaşır, onun rəhbər tutduğu mənəvi meyarlar bir çox cəhətdən müəyyənləşir. Məktəb gənc şəxsiyyətin bir vətəndaş kimi təşəkkülündə, gənclərin vətənpərvərlik tərbiyəsində böyük rol oynayır. Məktəbdə vətənpərvərlik tərbiyəsi işini daim təkmilləşdirmək, onun forma və metodlarının rəngarəngliyinə çalışmaq, yüksək səmərəliliyinə nail olmaq lazımdır. Hər bir gənc vətəndaş öz ölkəsinin alovlu vətənpərvəri olmalıdır.

# Hədəflər yüksək, uğurlar böyük

## Müsahibimiz Lənkəran Dövlət Universitetinin rektoru professor Natiq İbrahimovdur

**Bu** il Lənkəran Dövlət Universitetini (LDU) bakalavriat səviyyəsi üzrə 880, magistratura səviyyəsi üzrə 145 nəfər bitirdi. Artıq növbəti tədris ili üçün plan yerlərinin sayı da, görüləcək işlərin planları da hazırdır. LDU elə bu ildən başlayaraq dünya universitetlərinin olduğu siyahılara düşməyə, dünyanın müxtəlif yerlərindən oxumaq üçün Azərbaycana gələnlərin diqqətini cəlb etməyə çalışacaq. Rektor, professor Natiq İbrahimov "Azərbaycan müəllimi" qəzetinə həm növbəti tədris ili üçün planlardan, həm də gələcək hədəflərdən bəhs edib.

### İş şəraitini ildən-ilə yaxşılaşdırırlar

*- Geridə qoyduğumuz tədris ili LDU üçün necə bitdi, uğurlu idi?*

- Hətta "ən uğurlu il", - deyə bilərik. Üstəlik, universitetimizin 30 illik yubileyini qeyd etdiyimiz bir ildən söhbət gedir. Yeri gəlmişkən, bu münasibətlə ölkə başçısı təhsil quruculuğu və peşəkar kadr hazırlığı sahəsindəki xidmətlərinə görə iki əməkdaşımızı "Əməkdar müəllim" fəxri adı, üç əməkdaşımızı isə "Tərəqqi" medalı ilə təltif etdi. Deyə bilərəm ki, fəaliyyətimizə aid uğurlarımız ilboyu davam edib. Məsələn, universitetin H.Abdullayev küçəsi-19 ünvanında yerləşən 2-ci tədris korpusunun ərazisində müasir tipli yeni 5 mərtəbəli tədris binasını tədris ilinin elə ilk günündə müəllim və tələbələrimizin ixtiyarına verdik.

*- Universitetdə iş şəraitini yaxşılaşdırmaq planlarınız, deyəsən gələn il də davam edəcək?*

- Elədir, universitetin inzibati binasının genişləndirilməsi layihəsi var.Yaxın zamanlarda tikinti-quraşdırma işlərinə başlamağı planlaşdırırıq. Hesab edirik ki, layihənin gerçəkləşməsi əməkdaşlarımızın iş şəraitinin yaxşılaşdırılmasına imkan verəcək. Maddi-texniki bazamızı möhkəmləndirməklə yanaşı, kadr hazırlığının keyfiyyətinə ciddi təsir edəcək daha bir plan isə klinikadır. 1 saylı korpusun ərazisində xarici ölkələrin təcrübəsinə əsaslanaraq, beynəlxalq tələblərə cavab verən "Baytarlıq klinikası" tikməyə hazırlaşırıq.

### LDU-nun qəbul planında yeni ixtisaslar var

*- Kadr hazırlığının keyfiyyətindən bəhs etmişkən, LDU-nun qəbul planı təsdiqlənib.Məlumata görə, burada 40 ixtisas üzrə hazırlıq təşkil ediləcək. Aralarında yeni olanlar varmı?*

- Hazırda 5 fakültə, 13 kafedrada 5400 tələbəyə təhsil veririk. Universitet ildən-ilə böyüyür.2023/2024-cü tədris ili üzrə qəbul planında 2005 yer ayrılıb. Bakalavriat səviyyəsində 40 ixtisas üzrə qəbul aparılacaq. Təbii ki, aralarında yeni ixtisaslar da var. Bu il psixologiya, informasiya təhlükəsizliyi, turizm bələdçiliyi kimi yeni ixtisaslar üzrə kadr hazırlığını təşkil edəcəyik. Hər il olduğu kimi, bu dəfə də yeni ixtisasların verilməsi zamanı əmək bazarının tələbləri, regionda yerləşən müəssisələrdə kadrların hazırlanmasına dəstəyin verilməsi kimi məsələlərə xüsusi diqqət yetirilib. Növbəti illər üçün qəbul planında tələbələrə daha geniş perspektivlər yaradacaq yeni ixtisasların verilməsi və qəbul sayının daha da artırılması planlaşdırılır.

*- Bakalavriatda 8 ixtisas üzrə qəbul, sadəcə dövlət sifarişi əsasında aparılır. Bunun səbəbi nədir?*

- Doğrudur, bakalavriat səviyyəsində aqronomluq, aqromühəndislik, bağçılıq və tərəvəzçilik, baytarlıq təbabəti, meşəçilik, şərabçılıq, torpaqşünaslıq və aqrokimya, zoomühəndislik ixtisasları üzrə kadr hazırlığı yalnız dövlət sifarişi əsasında aparılır. Aqrar sahənin inkişafına hesablanan ixtisaslara həm region, həm də ölkə üzrə tələbat çox olduğundan qəbul yalnız dövlət sifarişi əsasında həyata keçirilir. Bu ixtisaslar üzrə peşəkar kadrların hazırlanması üçün LDU-da müvafiq tədris-təcrübə bazası yaradılıb. Aqrar sahə üzrə kadr hazırlığının keyfiyyətinin daha da yüksəldilməsi məqsədi ilə Türkiyənin Kafkas (Qars), Çukurova və digər universitetləri ilə əlaqələr qurmuşuq. Həmin universitetlərlə imzalanan "Akademik Əməkdaşlıq Protokolu" çərçivəsində professor-müəllim heyəti tədrisə cəlb edilir.

*- Magistratura səviyyəsi üzrə 30-a yaxın ixtisasa qəbul aparılır. Burada vəziyyət necədir? Qəbul planı dolurmu?*

- 2023/2024-cü tədris ilində magistratura səviyyəsi üzrə də qəbul planı təsdiq edilib və plana görə 29 ixtisas və 33 ixtisaslaşma üzrə 303 qəbul yeri nəzərdə tutulur. Eyni zamanda MBA proqramı çərçivəsində magistr hazırlığı həyata keçirilir. Həm MBA (Biznesin təşkili və idarə olunması (sosial xidmət sahələri üzrə)), həm də digər ixtisaslarda bir sıra yeni ixtisaslaşmalar üzrə (Fizika fənninin tədrisi metodikası və metodologiyası, Kompüter sistemləri və şəbəkələri, Bitki anatomiyası və morfologiyası, Mamalıq, ginekologiya və süni mayalanma, Sosial-mədəni sahələrdə xidmətlərin təşkili, Otelçilik) kadr hazırlığı həyata keçiriləcək. Hər il qəbul planının 80-85 faizdən çoxu dolur. Qeyd edim ki, magistratura səviyyəsi üzrə kadr hazırlığı aparılarkən əsas diqqət universitetdə kadr potensialının gücləndirilməsinə yönəldilir. Təhsilini müvəffəqiyyətlə başa vuran magistrantların bir çoxu universitetdə müəllim, tyutor və s. kimi vəzifələrdə çalışır.

### Burada imtahanların vaxtına tələbə qərar verir

*- LDU-nun adı tələbələrə yönəlik addımlarla daha çox hallanır. Xüsusən, bakalavr və magistrlərin təhsil şəraitini rahatlaşdıran addımlarınız barədə mətbuatdan oxuduq.*

- Elədir. Tələbələrimiz üçün bir çox addımlar atmışıq. Məsələn, ölkədə ali təhsil müəssisələri arasında ilk dəfə bizdə imtahanların vaxtının təyin olunmasında tələbələrə seçim hüququ verildi. Yaz imtahan sessiyasının təşkilində tələbələrin arzu və istəkləri nəzərə alındı. Bütün fakültələr üzrə imtahanlar iki növbədə təşkil olundu və verilən seçim imkanından istifadə edərək imtahana düşən fənlərin gününü və saatını onlayn qaydada tələbələr özləri müəyyənləşdirdilər. Bu yenilik tələbələrə imtahan biletlərini kompüter vasitəsilə birbaşa elektron bazadan götürmək, eləcə də imtahanları operativ verib sessiyanı daha tez yekunlaşdırmaq şansı verdi. Eyni zamanda, imtahan nəticələri operativ olaraq universitetin elektron bazasında da yerləşdirildi. Tələbələrimiz üçün addımlarımız davam edəcək. Sırada oğlan tələbələrimiz üçün 250 nəfərlik mehmanxana tipli yataqxana var.

### Doktorantları LDU-nun ixtisaslı kadr potensialını gücləndirir

*- Doktorantura səviyyəsi üzrə təhsilin təşkili vəziyyəti necədir? Doktorantura səviyyəsində dövlətin həyata keçirdiyi proqram da var. LDU-da bu təhsil səviyyəsi üzrə kadr hazırlığı ilə bağlı yeni və ya uğurlu saydıqlarınızı bilmək maraqlı olardı.*

- Universitetimizdə elmi mühitin inkişafında doktorant hazırlığının xüsusi yeri var. Son illərdə fəlsəfə doktoru proqramı üzrə qəbul plan yerlərinin sayı bir neçə dəfə artırılıb, elmlər doktoru proqramı üzrə isə universitet əməkdaşları ölkəmizdəki nüfuzlu ali təhsil müəssisələri və elmi təşkilatlara təhkim ediliblər. Hazırda 10-a yaxın doktorant dövlət hesabına təhsil alır. Eyni zamanda "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində xaricdə doktoranturada təhsil üçün müraciət edənlərə imkanlar yaradılır. Respublika və ölkə xaricində elmi müəssisələrlə elmi-tədqiqat əlaqələri qurulduğundan, doktoranlarımız özlərinə həmin təşkilatlardan həm elmi rəhbər seçir, həm də elmi-tətqiqat işləri aparırlar. LDU doktorantlarına dünyanın elmmetrik bazalarına çıxış imkanı yaradır, onlara yüksək indeksli impakt faktorlu elmi jurnallarda məqalə çapı və beynəlxalq konfranslarda iştirak üçün dəstək veririk.

Müxtəlif sahələri əhatə edən və Azərbaycan, türk, ingilis və rus dillərində məqalə dərc edən 3 elmi jurnalımız fəaliyyətdədir. Hər üçü Prezident yanında Ali Attestasiya Komissiyasının məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısına və eyni zamanda beynəlxalq elmi indeks bazalarına (İNDEKS COPERNİCUS, E-Library (RİNÜ)) daxildir. Universitetin növbəti hədəfi jurnalları Scopus və Web of Science bazalarına daxil etməkdir. Məhz buna görədir ki, doktorantlarımızın böyük əksəriyyəti öz dissertasiya işlərini vaxtında uğurla müdafiə edib müvafiq diplomları alaraq həm universitetin elmi-tədris bazasının inkişafına, həm də ixtisaslı kadr potensialının formalaşmasına yardımçı olurlar.

### Əcnəbi tələbələrin hazırlıq kursu açılır

*- Əcnəbi tələbə və professor sayı ilə bağlı məlumat verə bilərsinizmi? Tədris prosesinə xaricdən müəllim-professorlar cəlb edirsizinizmi?*



- LDU-da son illərdə istər bakalavriat, istərsə də magistraturada təhsil alan tələbələrin müasir biliklərə yiyələnmək və dünyaya inteqrasiya olunmasında başlıca istiqamətlərdən biri də onların əcnəbi müəllimlərlə təmasıdır. Bu fərqlilik mübadilə proqramlarında daha çoxdur. Bununla yanaşı,Türkiyədə çalışan yüksək reytinqli professorlar universitetə dəvət edilir. Xüsusən, baytarlıq ixtisası üzrə 3 professor-müəllim tədris ili boyu tələbələrimizə mühazirələr oxuyub, birgə təcrübələr aparıb, müvafiq kafedralarda seminarlar verib. Eyni zamanda doktorantlarımıza xaricdə çalışan nüfuzlu alimlər koordinasiyalı şəkildə elmi rəhbərlik edir.

Əcnəbi tələbələrin qəbulu onlayn platforma üzərindən aparılır, hazırda Türkiyə, Rusiya və Gürcüstandan olan tələbələrimiz universitetdə təhsil alır. Bu ildən LDU-da əcnəbi tələbələrin hazırlıq kursunun açılmasına da razılıq verilib. Hesab edirəm ki, bundan sonra xarici tələbə sayı daha da artacaq.

### Gənclərin əmək bazarı öyrənilir, işəgötürənlərin tələbləri müəyyənləşdirilir

*- Kadr hazırlığından danışarkən qısamüddətli təhsili unutmaq olmaz. Müasir universitetlər, sadəcə verdiyi müxtəlif səviyyələr üzrə təhsil yox, həm də qısamüddətli təhsillə - kursların təşkili ilə nəinki qazanır, həm də tanınır. Bazarın tələbi də daha çox qısamüddətli təhsilə - ixtisasartırma və ixtisasdəyişmə kurslarınadır, elə deyilmi?*

- Çox aktual bir problemə toxunursunuz. Müasir dövrdə hər bir dövlətin iqtisadi və sosial siyasətinin aktual məsələlərindən biri tam məşğulluğun təmin olunmasıdır. Çünki insan resurslarından səmərəli istifadə ölkənin iqtisadi inkişafında başlıca rol oynayır. Bu problemlərin həlli üçün gənclərin əmək bazarının mütəmadi olaraq öyrənilməsi və işəgötürənlərin tələblərinin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Məhz bu məqsədlə universitetimiz İqtisadiyyat Nazirliyinin Lənkəran Regional idarəsi ilə birgə regionda daha çox kadr tələbatı olan peşələri müəyyənləşdirib. Bura baytar köməkçiləri (texnikləri), kompüter operatorları, texnikləri və proqramçıları, gül, tərəvəz və meyvə ustaları, aşpaz, barmen, otel işçisi, sığorta mütəxəssisi, bağbanlar, calaqçılar, bitkiçilikdə zərər və ziyanvericilərlə mübarizə ustası, arı ustası, fermerlər, dayələr, satıcılar, məişət texnikası cilingəri və təmiri ustası və digər peşə sahibləri aiddir. Həmin peşələr üzrə qısa (3-9 ay) və ortamüddətli (12-18 ay) kursların proqramları hazırlanaraq İqtisadiyyat Nazirliyinin Lənkəran Regional idarəsi ilə razılaşdırılıb.Bununla yanaşı, qəbul planında, əsasən qeyri-neft sektorunun, xüsusilə aqrar və iqtisadiyyat sahələrində gələcəkdə tələbata ehtiyacı olan zəruri ixtisaslar üzrə mütəxəssis hazırlığına üstünlük verilir. Aparılan işlərdən biri də yaxın gələcəkdə regionun işsiz kadrlarının, o cümlədən gənclərin və qadınların həmin proqramlar üzrə təlimlərə cəlb olunmasına hesablanıb.Bu məqsədlə universitetin əməkdaşları layihələr hazırlayaraq Avropa İttifaqına təqdim ediblər. Layihələrdə Avropa İttifaqı universitetlərinin qabaqcıl texnologiya və təcrübəsi, həmçinin Aİnın maliyyə dəstəyindən istifadə etməklə müasir tipli aqrar təsərrüfatı, emal və satış müəssisəsinin yaradılması, gənclərin peşə hazırlığına və əmək bazarına cəlb edilməsi, region universitetlərinin elmi və tədris potensialının gücləndirilməsi, Aİ dəyərlərinin təşviqi, Aİ universitetləri ilə inteqrasiyanın genişləndirilməsi nəzərdə tutulub.

*- Tyutor hazırlığı kurslarına da başlanılıb. Xatırlayırıq ki, "Azərbaycan müəllimi" qəzetinə verdiyiniz müsahibələrdən birində təcrübəsiz gəncləri işə alır, onları işdə yaxşı tyutorlar kimi yetişdirir, amma sonradan onların başqa, hətta Bakıda fəaliyyət göstərən universitetlərə getdiyindən narahatlığınızı ifadə edirdiniz. Bu, hələ tyutorların universitetlərimizdə yeni ştat olduğu vaxtlar idi. Artıq üzərindən illər keçib və LDU bu sahə üçün kadrlar hazırlamağa başlayıb...*

- Universitetimizdə tədrisin keyfiyyətini yüksəltmək və tədrisi kredit sisteminin tələblərinə uyğun təşkil etmək məqsədi ilə hər il tyutor hazırlığı kursları təşkil edilir. Bunun sayəsində tələbələrə özünün təhsil trayektoriyalarını müəyyən etmək imkanı yaradılır. Bu il də iyulun 12-dən hazırlıq kursuna başlanıb. Kursu müvəffəqiyyətlə başa vuraraq yüksək nəticələr əldə edən namizədlər universitetdə işlə təmin olunurlar. Tyutorların vaxtilə Bakıda fəaliyyət göstərən universitetlərə getdiyi faktı da danılmazdır. Amma bu, artıq keçmişdə qalıb. Universitetimizdə iş şəraiti yaxşılaşdırılıb, əmək haqları artırılıb və nəticədə tyutorların da sayı artıb.

### LDU güləşçilərinin səsi beynəlxalq yarışlardan gəlir

*- Mətbuatdan izləyirik ki, idman nailiyyətləri var tələbələrinizin. Adətən, idman karyerasını universitetlərdə də davam etdirən gənclər azdır. Çoxu X-XI siniflərə qədər məşğul olur, qəbul imtahanı ərəfəsində də məşqlərini dayandırır. LDU-da bunun baş verməməsi, tələbələrinizin idmanda və başqa sahələrdə məşğuliyyətlərini davam etdirmələri üçün xüsusi iş aparılırmı?*

- LDU-da müxtəlif idman klubları fəaliyyət göstərir. Tələbəlrin arzu və istəklərini, həmçinin bacarıqları nəzərə alınaraq MMA (döyüş), "Grappling" (güləş), cüdo, boks, voleybol, futbol, qol güləşi, stolüstü tennis, şahmat, trenajor, kikboksink idman növləri üzrə bölmələri yaradılıb. Bir müddət əvvəl isə oğlanlardan ibarət basketbol komandası qurulub vəqızlardan ibarət komanda da formalaşdırılır. Tələbələrimizin komanda şəklində rayon səviyyəsində keçirilən idman yarışlarında, fərdi idman növlərində isə beynəlxalq və respublika səviyyəli yarışlarda kifayət qədər uğurları var. Məsələn, Kəmaləddin Şükürov beynəlxalq turnirdə "Grappling" (güləş) idman növündə 75 kiloqram çəki dərəcəsində 1-ci yer, dünya kubokunda 80 kq dərəcəsində 2-ci yer tutub. "Grappling" idman növündə daha bir - Arif Ağayev adlı tələbəmiz dünya kubokunda 2-ci yeri qazanıb. Dünya kubokunda bu idman növü üzrə uğur qazananlarımız çoxdur. Emin Mustafazadə 60 kq. çəki dərəcəsində, Zülfüqar Əhədli 70 kq.-da, İdris Mirzəzadə isə 65 kq. çəki dərəcəsində I olub.

### Əməkdaşlıqda fərq qoymurlar

*- Bölgə universitetləri ilə əməkdaşlığa başlamısınız. Belə əməkdaşlıqlardan gözləntilər nədir? Hansı formada əməkdaşlıq nəzərdə tutulur?*

- Əməkdaşlıqda paytaxt və bölgə universitetlərinə fərq qoymuruq. Bölgə universitetləri ilə qarşılıqlı konfrans, simpoziumlar təşkil edir, tədris-elmi əlaqələrimizi möhkəmləndiririk. Məsələn, Mingəçevir Dövlət Universiteti ilə 2021-ci ildən başlamışıq. Vaxtaşırı birgə konfrans və tədbirlər keçirir, hər iki universitetdə mövcud laboratoriyalardan birgə istifadə edir, fənn proqramlarını təkmilləşdirir, tələbə və müəllim mübadiləsi aparır, qarşılıqlı kreditləri tanıyır,birgə tədqiqat işləri aparırıq.

Azərbaycan Texnologiya Universiteti və Mingəçevir Dövlət Universiteti ilə aramızda 3 tərəfli memorandum imzalamışıq. Memorandumda üç ali təhsil müəssisəsinin elm, təhsil, innovasiya fəaliyyəti və beynəlxalq əlaqələrə dair ümumi maraqlara əsaslanan qarşılıqlı əməkdaşlığı nəzərdə tutulur.

Yaxın müddətdə Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutu ilə də ikitərəfli əməkdaşlığa başlayacağıq.Bununla yanaşı, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Peqaqoji Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı Mühəndislik Universiteti, Bakı Avrasiya Universiteti, Azərbaycan İlahiyyat İnstitutu, Sumqayıt Dövlət Universiteti və AMEA-nın müvafiq elmi tədqiqat institutları ilə əməkdaşlıq edilir, qarşıda daha yeni istiqamətlər üzrə əlaqələrin planları müəyyənləşdirilir.

*- Beynəlxalq əməkdaşlıq planlarınız nədir? Məsələn, ikili diplom proqramları, ikitərəfli əməkdaşlıqlar sahəsində nə kimi yeniliklər gözlənilir? Bu günlərdə LDU-da "Avropa şəhərciyi" layihəsi də sıx-sıx müzakirə olunanlar siyahısındadır. "Erasmus", "Yaşıl enerji" kimi layihələrdə LDU iştirak edib. Əməkdaşlığın genişləndirilməsi planı da var yəqin?*

- LDU-nun strateji inkişaf planında beynəlxalq əməkdaşlıq sahəsində məqsəd, vəzifə və hədəflər müəyyənləşdirilib. 2022-2030-cu illər üçün beynəlxalq təhsil xidmətləri bazarında aktiv iştirak, əcnəbi tələbələrin və müvafiq ixtisaslar üzrə xaricdən kadr cəlbi, beynəlxalq layihələrin təqdim edilməsi, ikili diplom layihələrinin genişləndirilməsi kimi məqsədlərimiz var. Universitetimiz dünyanın nüfuzlu ali məktəb reytinqləri siyahısına - "QS World University Rankings" və "Webometrics"-ə qoşulub, sıralamaya düşmək və hətta irəliləməyi hədəfləyirik.

LDU ilə İspaniya, Türkiyə, Polşa ali təhsil müəssisələri arasında Erasmus+KA1 proqramı çərçivəsində əməkdaşlıq müqavilələri imzalanıb və həmin müqavilə əsasında akademik heyətin qarşılıqlı mübadiləsi həyata keçirilir. 2022/2023-cü tədris ilində uğurlarımızdan biri də Avropa İttifaqının Erasmus+ KA2 proqramı üzrə iki layihədə təmsil olunmağımızdır. "Azərbaycan universitetlərində yaşıl və davamlı qlobal iqtisadi təkmilləşdirmə: bərpa olunan enerji və iqlim dəyişikliyinin azaldılması (REFRESH)", "Azərbaycanda İnstitusional Repozitorlar Şəbəkəsi vasitəsilə Tədqiqat Bacarıqlarının İnkişaf etdirilməsi (DIRNA)" üzrə olan layihələr 3 il müddətində həyata keçiriləcək.2023-cü ildə koordinatorluğumuzla 2 layihə (Erasmus+ KA2) Avropa İttifaqına təqdim edilib. Birincisi, "Kənd təsərrüfatı sahibkarlığının inkişafında regional universitetlərin rolu (RUDA)" layihəsidir və əsas hədəf aqrar sahibkarlığın inkişafında regional universitetlərin rolunu artırmaqdır. İkincisi, "Əldə edilmiş təcrübənin təsdiqi ilə ali təhsil diplomuna çıxışın təmin edilməsi (EHEDA)"layihəsidir - 35 yaşdan yuxarı bu və ya digər səbəbdən ali təhsil diplomu ala bilməyən və ən azı 5 il iş təcrübəsi olan insanlara imkan yaratmaq məqsədi daşıyır.Təhsilimizdə məzmun və keyfiyyət göstəricisini təkmilləşdirmək üçün ikili diplom layihələrinə diqqət yetiririk. Belə ki, 2019-cu ildə UNEC və LDU arasında İkili Diplom Proqramı haqqında müqavilə imzalanıb. Proqramda tərəfdaş universitetlərin "İqtisadiyyat", "Biznesin idarə edilməsi", "Mühasibat uçotu və audit" və "Maliyyə" ixtisasları üzrə əyani təhsil formasında təhsil alan tələbələr iştirak edəcək.

İkili diplom layihələrinin təsis edilməsi istiqamətində xarici universitetlərlə danışıqlar aparılır, müvafiq razılıqlara gəlinib. Belə ki, Macarıstanın Kapoşfar və Türkiyənin Kafkas (Kars) Universitetləri ilə ikili diplomların təsis edilməsi istiqamətində müqavilələr imzalanıb.

LDU-nun xarici əlaqələrində Avropa İttifaqı və ittifaqa daxil olan ölkələrin universitetləri ilə əməkdaşlıq mühüm yerlərdən birini tutur. Beynəlxalq əlaqələrimizin inkişafı Avropa İttifaqının nümayəndə heyətinin, Avropa ölkələrinin səfirlərinin diqqətini cəlb edir. Elə ötən ay - iyunun 9-10-da Avropa İttifaqının (Aİ) Azərbaycandakı Nümayəndəliyinin İttifaqa üzv olan ölkələrin səfirləri ilə birlikdə növbəti "Avropa şəhərciyi" tədbiri ilə əlaqədar LDU-da təmsil olunması bu diqqətin göstəricisidir.

### Məzunlarının 73 faizdən çoxu iş tapır

*- Universitetlər üçün vacib məsələlərdən biri də məzunlarının iş tapmasıdır. Məzunlarla əlaqələriniz necədir, onlardan geri dönüş alırsınız?*

- Məzunların gələcək karyeralarının təşkili və idarəetmə strukturunda operativliyi təmin etmək məqsədilə universitetdə hər il məzun yarmarkası keçirilir. Bu istiqamətdə Dövlət Məşğulluq Agentliyi ilə əməkdaşlıq edirik. Agentlikdən verilən məlumatlara əsasən məzunlarımızın 73.37 faizi işlə təmin olunub. Bundan əlavə, LDU-nun Təcrübə, potensial inkişaf və karyera bölməsi məzunlarımızla mütəmadi əlaqə saxlayır və onların iş fəaliyyəti ilə bağlı yeni məlumatlar müvafiq olaraq bazaya daxil edilir.

*- MİQ müsabiqəsinin nəticələri təhlil edilirmi? Məzunlarınızın qəbul faizi və imtahanlarda göstərdikləri keyfiyyət göstəriciləri barədə yəqin məlumatlısınız. Sizdə də belə təhlilər aparılırmı?*

- LDU-da Elm və Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin təşkilatçılığı ilə müəllimlərin işə qəbulu müsabiqəsində iştirak edən namizədlərin son 5 ildəki nəticələrinin təhlili ilə bağlı tədbir keçirilib. Tədbirdə son 5 ilin nəticələri, ali təhsil müəssisələrinin bu istiqamətdəki statistik göstəriciləri slaydlar və diaqramlar əsasında geniş şəkildə şərh edilib, müvafiq müzakirələr aparılıb. Tədris prosesində qarşıya çıxan çatışmazlıqların aradan qaldırılması istiqamətində təkliflər və tapşırıqlar verilib. Universitetdə də Keyfiyyət təminatı şöbəsi fəaliyyət göstərir. Bu şöbənin fəaliyyəti nəticəsində təkcə MİQ imtahanının nəticələrinin monitorinqi yox, bütün ixtisaslar üzrə monitorinqlər aparılır. Mövcud çatışmazlıqların aradan qaldırılması üçün tədrisin təşkili prosesində operativ işlər görülür. Artıq növbəti 5 ildəki hesabatların təhlili nəticəsində yüksək nəticələrin əldə olunduğunun şahidi olacağıq.

### LDU-nun Baytarlıq klinikası heyvandarlıqla məşğul olanlara xidmət edəcək

*- Bəs, növbəti tədris ili üçün hədəfdə nə var?*

- Universitetin maddi-texniki bazasının gücləndirilməsi məqsədi ilə növbəti tədris ilində yeni infrastrukturun yaradılması - oğlan tələbələri üçün müasir tələblərə cavab verən yeni yataqxana binasının istifadəyə verilməsi nəzərdə tutulur. 250 tələbə üçün nəzərdə tutulmuş yataqxana binası 5 mərtəbə, 100 otaqdan ibarət olacaq. Universitetin 1 saylı tədris binasında Türkiyənin Kafqas (Qars) universiteti ilə imzalanmış "Akademik Əməkdaşlıq Protokolu" çərçivəsində həmin universitetin professor-müəllim heyətinin və əməkdaşlarının dəstəyi ilə Baytarlıq Klinikası yaradacağıq. Klinikada, sadəcə baytarlıq ixtisasının tələbələri təcrübə keçməyəcək, həm də regionda heyvandarlıqla məşğul olan fermerlərə, ev heyvandarlığı təsərrüfatı ilə məşğul olanlara xidmət göstərəcəyik. LDU-da kadr hazırlığının keyfiyyətini yüksəltmək, müəllim hazırlığının səviyyəsini artırmaq məqsədilə müasir tələblərə cavab verən yeni laboratoriyaların alınması da əsas hədəflərdən biridir.

**Ruhiyyə DAŞSALAHLI**

# MDU yeni dövrün universitetinə çevrilmək yolunda

## 2022/2023-cü tədris ilinin yekunları: idarəetmədə və ali təhsil mühitində yeniliklər



**Şahin BAYRAMOV,**
*Mingəçevir Dövlət Universitetinin rektoru*

### İdarəetmədə prioritetlər və əsas nəticələr

Təhsil, tədqiqat və innovasiya sahəsində qabaqcıl mövqeyi ilə fərqlənən, yeni dövrün universitetinə çevrilməyi strateji hədəf olaraq müəyyən edən Mingəçevir Dövlət Universitetində (MDU) idarəetmənin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması prosesi 2022/2023-cü tədris ilində də davam etdirilmişdir. Tədris, elm və innovasiya fəaliyyətinin keyfiyyətinin davamlı sürətdə yüksəldilməsi, yeni ixtisasların yaradılması, tərəfdaş yerli və xarici universitetlərlə əməkdaşlığın inkişafı, müvafiq dövlət qurumları və sənaye ilə işbirliyinin gücləndirilməsi, tələbələr və məzunlarla işin təkmilləşdirilməsi, təhsilalanların, akademik və inzibati heyət üzvlərinin bilik və bacarıqlarının artırılması, təşkilati strukturun optimallaşdırılması, rəqəmsallaşma, infrastrukturun yenilənməsi, sosial fəaliyyətlərin genişləndirilməsi və cəmiyyətə fəal inteqrasiya məsələləri idarəetmədə prioritetliyini qoruyub saxlamışdır. Universitetin missiyasını daha effektiv şəkildə həyata keçirmək, sürətli modernləşməsini təmin etmək və milli ali təhsil məkanında mövqeyini gücləndirmək məqsədlərinə xidmət edən bu prioritet fəaliyyətlərin reallaşdırılması istiqamətində əldə olunan nəticələr hərtərəfli inkişaf baxımından ali təhsil mühitinin imkanlarının və cəlbediciliyinin artmasında mühüm rol oynamışdır.

Sözügedən məsələlər MDU-nun kollegial idarəetmə orqanı olan Elmi Şurasının hesabat dövründə keçirilmiş 10 iclasının gündəliklərində də öz əksini tapmışdır. Elmi Şura iclaslarında təhsil, elm, sosial, maliyyə, əməkdaşlıq və digər sahələrdə universitet idarəçiliyinin cari vəziyyəti və problemləri müzakirə olunmuş, onun müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi istiqamətində müvafiq qərarlar qəbul edilmişdir. Universitetdə mövcud struktur bölmələr arasında koordinasiyanın gücləndirilməsi və onların fəaliyyətinin səmərəliliyinin artırılması, yeni struktur bölmələrin yaradılması, əməkdaşlar üçün stimullaşdırıcı və motivasiyaedici mexanizmlərin tətbiqi və sağlam rəqabət mühitinin formalaşdırılması istiqamətində müvafiq addımlar atılmışdır.

İdarəetmədə çevik, şəffaf və rəqəmsal mexanizmlərin geniş tətbiqinə xüsusi diqqət göstərilmişdir. Dünya və milli ali təhsil məkanında baş verən dəyişikliklər, universitetin strateji hədəfləri, qabaqcıl yerli və beynəlxalq təcrübə, müasir və daha səmərəli idarəetmənin təmin edilməsi zəruriliyi nəzərə alınaraq, universitetin strukturunun təkmilləşdirilməsi məqsədilə 2022/2023-cü tədris ilində MDU-da Rəqəmsal inkişaf və layihələrin idarəedilməsi şöbəsi yaradılmışdır. Bununla yanaşı, universitetdə Keyfiyyət Təminatı üzrə Komissiya fəaliyyətə başlamış və onun Əsasnaməsi təsdiq edilmişdir. Eləcə də, vahid elektron idarəetmə platforması olan "Elektron Universitet" modelinin MDU-da tətbiq edilməsi məqsədilə hazırlıq işlərinə başlanılmışdır.

Kadr potensialının, tədris-metodiki və infrastruktur təminatın məqsədyönlü və kompleks şəkildə gücləndirilməsi istiqamətində görülən işlər universitetdə əmək bazarının mövcud tələblərinə uyğun yeni ixtisasların açılmasına imkan yaratmışdır. Belə ki, 2022/2023-cü tədris ilindən etibarən MDU-da bakalavriat səviyyəsində 6 yeni ixtisas - "Kompüter mühəndisliyi", "İnformasiya təhlükəsizliyi", "Elektrik və elektronika mühəndisliyi", "Fizika müəllimliyi", "Kimya müəllimliyi" və "Turizm bələdçiliyi", magistratura səviyyəsində isə 1 yeni ixtisaslaşma - "Tarix fənninin tədrisi metodikası və metodologiyası" üzrə tələbə qəbulu həyata keçiril-

(Əvvəli qəzetin 14 iyul tarixli sayında)

miş və kadr hazırlığına başlanılmışdır.Bundan əlavə, növbəti 2023/2024-cü tədris ili üçün bakalavriat səviyyəsində 4 yeni ixtisas - "Kompüter elmləri", "Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi", "Dil və ədəbiyyat müəllimliyi (ingilis dili üzrə)" və "Sosial iş", magistratura səviyyəsində isə 1 yeni ixtisaslaşma - "Ətraf mühitin mühafizə metodları və bərpası" və 2 MBA proqramı - "Biznesin təşkili və idarə edilməsi (maliyyə üzrə)" və "Biznesin təşkili və idarə edilməsi (ümumi təyinatlı)" üzrə tədrisin həyata keçirilməsi planlaşdırılmışdır. Beləliklə, universitetdə kadr hazırlığı həyata keçirilən proqramların sayı bakalavriat səviyyəsində 31-ə, magistratura səviyyəsində isə 19-a yüksəldilmişdir. Eləcə də, yeni ixtisasların yaradılması MDU-da tələbə-müəllim kontingentinin genişlənməsinə də müsbət təsirini göstərmişdir. Son 5 tədris ili ərzində tələbələrin sayı 76 faizdən çox, magistrantların sayı 72 faizdən çox, akademik heyət üzvlərinin sayı isə 21 faizə yaxın artmışdır *(şəkil 1)*.







Şəkil 1

Hesabat dövründə MDU əməkdaşlarının sosial vəziyyətinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılmışdır.Təhsil işçilərinə dövlət tərəfindən göstərilən yüksək diqqət və qayğının prioritetliyi, universitetin mövcud maliyyə imkanları nəzərə alınmaqla Elmi Şuranın müvafiq qərarına əsasən 2023-cü ilin yanvarın 1-dən etibarən MDU əməkdaşlarının əməkhaqları orta hesabla 12 faiz artırılmışdır. Eyni zamanda, universitetin akademik heyət üzvlərinin elmi nəşrlərdə dərc edilən əsərlərə görə müvafiq qaydada mükafatlandırılması onların elmi fəaliyyətlərinin nəticəyönümlüyünün və gəlirlərinin artırılması baxımından xüsusi önəm kəsb etmişdir. Bununla yanaşı, seçkili vəzifələrin tutulmasında şəffaflığın və ədalətli rəqabətin təmin edilməsi prinsiplərinə əsaslanaraq, 2022/2023-cü tədris ilində "Mingəçevir Dövlət Universitetində professor-müəllim vəzifələrinin seçki yolu ilə tutulması meyarları" təsdiq edilmişdir. Hesabat dövründə işə qəbul müsabiqələrinin yeni meyarlar əsasında həyata keçirilməsi universitetdə kadr potensialının gücləndirilməsinə, tədrisin keyfiyyətinin yüksəldilməsinə və elmi fəaliyyətin səmərəliliyinin artırılmasına hədəflənmişdir.

Bundan əlavə, hesabat dövründə tələbələrin universitet idarəçiliyində fəal iştirakı təmin edilmişdir. MDU-nun Elmi Şurası və fakültə elmi şuralarında, eləcə də imtahan sessiyasının obyektiv, şəffaf, ədalətli və mütəşəkkil keçirilməsi məqsədilə yaradılmış İmtahan Qərargahı və Apellyasiya komissiyalarının tərkibində tələbələr fəal təmsil olunmuşlar. Tələbə və valideynlərin istəklərini dinləmək, onları maraqlandıran sualları operativ cavablandırmaq məqsədilə payız və yaz semestrlərinin imtahan sessiyaları ərzində universitet rektorunun iştirakı ilə "Açıq qapı" günləri keçirilmişdir. MDU-da "İmtahanlara dəstək qrupu" və "Qaynar xətt"in fəaliyyəti imtahan sessiyasında operativliyin təmin edilməsinə və yarana biləcək neqativ halların dərhal aradan qaldırılmasına xidmət etmişdir.

Eləcə də, ali təhsil müəssisələrinə qəbul zamanı ixtisas seçimində abituriyentlərə könüllü əsaslarla məlumatlandırıcı və məsləhət xidmətləri göstərmək məqsədilə MDU-da "Abituriyentlərə dəstək qrupu" yaradılmış, yeni qəbul olmuş tələbə və magistrantların universitetlə tanışlıq prosesinə dəstək məqsədilə "Oriyentasiya Günü" keçirilmiş və onların universitet həyatına daha motivasiyalı inteqrasiyası üçün rektorla görüşləri təşkil edilmişdir. Həmçinin, MDU-da məzun günlərinin xüsusi təntənə ilə qeyd olunması, cari tədris ilindən etibarən məzunlarla görüşlərə start verilməsi, onların müxtəlif tədbirlərə dəvət edilməsi, ehtiyaclarının öyrənilməsi və karyera inkişafının dəstəklənməsi qarşılıqlı faydalı universitet-məzun münasibətlərinin qurulmasına əsaslanmışdır. Artıq ikinci ildir ki, MDU-da tədris ilinin sonunda təşkil olunan "Poster sessiya"ları magistrant məzunların tədqiqat nəticələrinin daha geniş ictimaiyyətə çatdırılması və elmi karyeralarının inkişafı baxımından əlverişli platformaya çevrilmişdir.

Bunlarla yanaşı, Mingəçevir şəhərinin tanınmış və nüfuzlu ziyalılarının təmsil olunduğu MDU-nun İctimai Nəzarət Şurasının üzvləri müvafiq fəaliyyətlərə qoşulmaqla universitetin idarəçiliyinə aktiv cəlb olunmuşlar.

### Təhsil alanların və təhsil verənlərin potensialının inkişafı

2022/2023-cü tədris ilində MDU-nun Karyera və İnkişaf Mərkəzinin (KİM) təşkilatçılığı ilə təlim və seminarlar, karyera məsləhəti və təcrübə proqramları fəaliyyət komponentləri üzrə bütövlükdə 157 sayda tədbir həyata keçirilməklə 3163 nəfərə karyera xidməti göstərilmişdir. Bununla yanaşı, əməkdaşların, tələbə və magistrantların bilik və bacarıqlarının artırılması məqsədilə onların universitet və respublikadaxili eləcə də beynəlxalq səviyyədə həyata keçirilən müvafiq layihələrdə, maarifləndirici tədbirlərdə, təlim və təcrübə proqramlarında iştirakı üçün lazımi şərait yaradılmışdır.

Hesabat dövründə İqtisadiyyat, Elm və Təhsil nazirliklərinin dəstəyi ilə Alqoritmika Beynəlxalq Proqramlaşdırma Məktəbi tərəfindən təşkil edilən 5 aylıq IT kursunda MDU əməkdaşının iştirakı dəstəklənmişdir.

MDU-nun 10 əməkdaşı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İnnovasiyalar Mərkəzi tərəfindən "Gələcək üçün bacarıqlar" layihəsi çərçivəsində keçirilən təlimlərdə iştirak etmişdir. Eləcə də MDU əməkdaşları 2-ci "Tusi (2C)" inkubasiya proqramı çərçivəsində təlimçi və mentor qismində fəaliyyət göstərmişlər.

Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) və "StrategEast" müəssisəsinin birgə əməkdaşlığı ilə "IT Hub Azerbaijan" layihəsinə MDU-nun gənc əməkdaşları, tələbə və magistrantları cəlb edilmişdir.

Dövlət Məşğulluq Agentliyinin (DMA) Mərkəzi Karyera filialı tərəfindən MDU-da gənclərin karyera və şəxsi inkişaf məsələləri ilə bağlı görüş keçirilmişdir. Həmçinin, sözügedən tərəfdaş qurum tərəfindən universitetdə karyera inkişafının müxtəlif aktual mövzularına həsr olunan "TİPx: Mingəçevir" konfransı təşkil edilmişdir.

Dövlət Vergi Xidmətinin (DVX) gənclərin vergi sahəsində bilik və bacarıqlarının artırılmasına və fərdi inkişafına dəstək məqsədilə təşkil etdiyi "Yay Təcrübə Proqramı"nda MDU tələbələri də uğurla təmsil olunurlar.

Qazi Universitetinin 2022/2023-cü tədris ilində MDU-da fəaliyyət göstərmiş qonaq aliminin təqdimatında universitetin akademik heyəti üzvləri, tələbə və magistrantlar üçün "Süni intellekt" mövzusunda keçirilən seminar bu sahədə maarifləndirmənin artırılması məqsədi daşımışdır.

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin tərəfdaşlığı ilə MDU və "HTech Invest" MMC-nin nəzdindəki "SİMBİOZ" İnkubasiya Mərkəzinin birgə layihəsi olan "Startap, Layihə, Hakaton" günləri keçirilmişdir. Layihə regionda startap ekosisteminin inkişafına dəstək, yüksək intellektli və kreativ düşüncəli tələbə gənclərin startap qurmaq bacarıqlarının artırılmasına töhfə məqsədi daşımışdır. Bundan əlavə, Agentliyin dəstəyi ilə keçirilən regionlarda startap ekosistemi üzrə "INNOSTART" maarifləndirmə proqramı çərçivəsində MDU-da görüşlər və təqdimatlar təşkil olunmuşdur.

"Hirş indeksi və onun tətbiqi", "Elmi məqalələrə qoyulan tələblər", "Elmi məqaləni necə yazmalı?", "Plagiatçılıq və onunla mübarizə" və "Elmi məqalənin yazılması: Türkiyə universitetlərinin təcrübəsi" mövzusundaMDU-da keçirilmiş silsiləvi seminarlar akademik heyət üzvlərinin tədqiqat bacarıqlarının artırılmasına xidmət etmişdir.

Eləcə də, 2022/2023-cü tədris ilinin əvvəlində MDU-da iki fərqli birhəftəlik "Tyutor xidməti" təlimlərinin təşkili təhsil prosesinə cəlb olunan tyutorların bilik, bacarıq və səriştələrinin artırılmasına hədəflənmişdir.

MDU-da keçirilən karyera planlaması, xarici dil, rəqəmsal, sahibkarlıq və "yumşaq" bacarıqlarla bağlı təlimlər, xaricdə təhsil, könüllülük və startap fəaliyyətləri ilə bağlı infosessiyalar tələbələrin əmək bazarında və sözügedən istiqamətlərdə hazırlıq səviyyəsinin yüksəldilməsinə hədəflənmişdir.

### "Heydər Əliyev xatirələrdə" layihəsi

2023-cü ilin mayında MDU-nun "Heydər Əliyev İli" çərçivəsində reallaşdırdığı "Heydər Əliyev xatirələrdə" adlı layihənin açılışı olmuşdur. Ümummilli Lider Heydər Əliyevin zəngin irsinin təbliği istiqamətində görülən işlərə töhfə məqsədi daşıyan layihədə Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə çalışmış ziyalılar və ictimai-siyasi xadimlərlə görüşlərin təşkili nəzərdə tutulmuşdur. Hesabat dövründə layihə çərçivəsində iki görüş keçirilmişdir. Elm və təhsil nazirinin müavini Firudin Qurbanov və Əməkdar elm xadimi, "Şöhrət" ordenli Şahlar Əsgərovun iştirakı ilə keçirilən hər iki görüş maraqla qarşılanmışdır.

### Sosialyönümlü fəaliyyətlərin genişləndirilməsi

Cəmiyyətə faydalı sosial xidmətlər göstərmək MDU-nun əsas missiyalarından hesab olunur. Bununla əlaqədar olaraq, MDU-da sosialyönümlü fəaliyyətlər davamlı surətdə genişləndirilir.

Sosialyönümlü tədbirlərin əsas istiqamətlərindən biri olaraq məzunların işə düzəlməsinə müvafiq dəstəyin göstərilməsinə MDU-da xüsusi önəm verilir. Hesabat dövründə universitetin birbaşa dəstəyi ilə 40-dan artıq məzun işə qəbul edilmişdir.

Bununla yanaşı, MDU regionda həyata keçirilən müxtəlif sosialyönümlü layihələrdə və könüllülük fəaliyyətlərində aktiv təmsil olunmuşdur.

Hesabat dövründə MDU və "Birgə və Sağlam" İctimai Birliyi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır. MDU rektorunun Bakıda Autizm Mərkəzinə ziyarəti zamanı imzalanan sözügedən Memorandum müvafiq sahədə çoxşaxəli birgə fəaliyyətləri ehtiva etmişdir. Əməkdaşlıq çərçivəsində hesabat dövründə MDU-da professor-müəllim heyəti, tələbə və magistrantların, eləcə də bölgədə yaşayan autizmli uşaqlar və onların valideynlərinin iştirakı ilə maarifləndirici tədbir keçirilmişdir.

Bundan əlavə, universitetin "Məktəbəqədər təhsil" ixtisası üzrə təhsil alan tələbələri Mingəçevirdə Uşaq və Ailələrə Dəstək Mərkəzini ziyarət etmişlər. Xüsusi qayğıya ehtiyacı olan uşaqlara münasibətdə tətbiq edilən fərdi davranış qaydaları ilə praktiki surətdə tanış olan tələbələr onlarla birlikdə əyləncəli formatda müvafiq tədris tapşırıqlarını yerinə yetirməklə öz dəstəklərini ifadə etmişlər.

Həmçinin, MDU kollektivi qan xəstəliklərindən əziyyət çəkən insanlara kömək məqsədilə keçirilən qanvermə aksiyalarında fəal iştirak etmişdir. Eyni zamanda, MDU əməkdaşları qardaş Türkiyədə baş vermiş faciəvi zəlzələ ilə əlaqədar olaraq respublikamızda həyata keçirilmiş dəstək tədbirlərinə fəal qoşulmuşdur.

Habelə, sosialyönümlü fəaliyyətlər çərçivəsində aktual sosial mövzularda maarifləndirici tədbirlərin təşkili mühüm əhəmiyyət kəsb etmişdir. Hesabat dövründə iqlim dəyişiklikləri, dayanıqlı inkişaf, biomüxtəlifliyin qorunması, gender problemləri, yanğın təhlükəsizliyi, su və ərzaq təhlükəsizliyi, sağlam həyat tərzi, narkomaniya ilə mübarizə, məişət zorakılığı, icbari tibbi sığorta, təhsil tələbə krediti, məşğulluq, mediasiya, insan hüquqları, urbanizasiya, yol hərəkəti qaydaları və digər məsələlərlə bağlı keçirilmiş maarifləndirici seminarlar və görüşlər gənclərin sözügedən mövzularda məlumatlılıq səviyyəsinin və dünyagörüşlərinin artırılmasına xidmət etmişdir.

### Vətənpərvərlik məzmununun prioritetliyi

Gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsini təmin edən ali təhsil mühitinin inkişafına MDU-da prioritet əhəmiyyət verilir. Hesabat dövründə universitetdə ali təhsil mühitinin vətənpərvərlik məzmununun daha da gücləndirilməsi istiqamətində müvafiq addımlar atılmışdır. Bu istiqamətdə fəaliyyətlərin icrası və koordinasiyasında MDU-nun Tələbə Vətənpərvərlik İnkişafı Mərkəzi əhəmiyyətli rol oynamışdır. MDU-da Anım Gününə, Qarabağ Zəfərinə və qəhrəmanlara həsr edilən, tariximizin faciəvi və şanlı səhifələrinin, milli-mənəvi dəyərlərin və adət-ənənələrin öyrənilməsinə və təbliğ edilməsinə hədəflənən çoxsaylı tədbirlər, o cümlədən konfranslar, seminarlar, "dəyirmi masa"lar, mühazirələr və film təqdimatları keçirilmişdir. Universitetin şəhid məzunlarının ailələri mütəmadi ziyarət edilmiş, Şəhidlər xiyabanında onların əziz xatirələri yad edilmiş, qazi məzunlarla, Vətən müharibəsi iştirakçısı olan tələbə və əməkdaşlarla görüşlər təşkil olunmuşdur. Qeyd edək ki, 44 günlük Vətən müharibəsində MDU-nun 5 əməkdaşı, 120-dən çox tələbə və məzunu iştirak etmiş, 5 məzunu şəhidlik zirvəsinə ucalmışdır. MDU-nun 1 məzunu isə 2022-ci ilin sentyabrın 12-də Ermənistan silahlı qüvvələri tərəfindən sərhəddə törədilən genişmiqyaslı təxribatın qarşısının alınması zamanı şəhid olmuşdur.

### Tələbə həyatının çoxşaxəliliyi və nailiyyətlər

MDU-da çoxşaxəli və rəngarəng tələbə həyatını özündə ehtiva edən tələbəyönümlü ali təhsil mühiti təhsil alanların hərtərəfli inkişafı və liderlik keyfiyyətlərinin artırılmasına hədəflənmişdir.Tələbə təşkilatları və klublarının işində, universitet idarəçiliyi, startap və könüllülük fəaliyyətlərində, elmi konfranslarda, vətənpərvərlik məzmunlu tədbirlərdə, müvafiq təbliğat və maarifləndirmə işlərində, iməciliklərdə, müxtəlif bilik, yaradıcılıq, idman müsabiqələri və yarışlarında fəal təmsil olunan MDU tələbələri hesabat dövründə də bir çox nailiyyətlərə imza atmaqla universiteti layiqincə təmsil etmişlər.

MDU tələbəsi Bəxtiyar Mehdiyev 2022-ci ilin dekabrında Türkiyənin Bursa şəhərində keçirilmiş Alpaqut üzrə Dünya Çempionatında birincilik əldə edərək dünya çempionu adını qazanmışdır. Həmçinin, 2023-cü ildə o, Alpaqut Turan döyüş sənəti üzrə 1-ci dan qara kəmərə layiq görülmüşdür.

2022-ci ilin noyabrın 12-də Heydər Əliyev Mərkəzinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin dəstəyi ilə ölkənin 49 ali təhsil müəssisəsi arasında keçirilən "Heydər Əliyev və Azərbaycan tarixi" VIII ümumrespublika bilik yarışında MDU-nun tələbələrdən ibarət komandası 13-cü yerdə qərarlaşmışdır.Eləcə də, Elm və Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə qərarı ilə ali təhsil müəssisələrinin tələbələri arasında keçirilmiş Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunan bədii yaradıcılıq müsabiqə-festivalında MDU tələbəsi Türkan Qaffarova 2-ci yerə layiq görülmüşdür.

Gənclər və İdman Nazirliyi və Gənclər Fondunun dəstəyi, Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı ilə keçirilən "Azərbaycan Könüllülərinin V Həmrəylik Forumu"nda MDU tələbəsi Hikmət Qaffarov "Dövlət qurumlarında Könüllülük" nominasiyası üzrə "İlin könüllüsü" mükafatı ilə təltif edilmişdir.

Gənclər Fondunun "İdeyanı Reallaşdır 2022" Gənclərin Fərdi Layihələri üzrə Qrant Müsabiqəsi çərçivəsində MDU-nun 3 tələbəsi və 1 magistrantı tərəfindən təqdim edilən 4 layihə qalib olmuşdur. Eləcə də, Gənclər Fondu tərəfindən sosial baxımdan həssas ailələrdən olan istedadlı gənclər üçün elan edilən müsabiqənin nəticələrinə əsasən 2021/2022-ci və 2022/2023-cü tədris illəri üzrə təhsil xərci qarşılanan 431 nəfər arasında MDU-nun 23 tələbəsi yer almışdır.

İnnovasiyalar Mərkəzi tərəfindən reallaşdırılan "Gələcək üçün bacarıqlar" layihəsində iştirak edən MDU tələbələrinin iki startap layihəsi finala yüksəlmişdir.

Ukrayna Elm və Təhsil Nazirliyinin təşkilatçılığı və UNESCO üzrə Ukrayna Milli Komissiyasının himayəsi ilə keçirilən "Sahibkarlıq, ticarət və birja fəaliyyəti" ixtisası üzrə Beynəlxalq Tələbə Elmi İşi Müsabiqəsində MDU uğurla təmsil olunmuşdur. MDU-nun magistrantı Turan Eyvazlının həmmüəlliflik etdiyi "Kənd təsərrüfatı müəssisələrində innovasiyalar" adlı elmi iş beynəlxalq müsabiqədə üçüncü yerə layiq görülmüşdür.

Tələbə Basketbol Liqasının 2022/2023-cü il üzrə seçmə mərhələsində MDU-nun tələbə oğlanlardan ibarət basketbol komandası fəal təmsil olunmuş və qrup yarışlarında uğurlu nəticə göstərməklə play-off mərhələsinə yüksələ bilmişdir.

Təhsildə və ictimai işlərdə əldə etdiyi uğurlara görə MDU tələbəsi Fatma Mirzəzadə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin adlı təqaüdünə və fəxri fərmanına layiq görülmüşdür.

### Mingəçevirin "Gənclər paytaxtı" seçilməsi

2023-cü il üçün Mingəçevir şəhərinin "Gənclər paytaxtı" seçilməsi mingəçevirli gənclər, o cümlədən onların fəal hissəsinin təmsilçilərindən olan MDU-nun gənc əməkdaşları, tələbə və magistrantlarının inkişafı və potensiallarının reallaşdırılması üçün geniş imkanlar yaradır. Universitetin tələbə və müəllim kollektivi üzvləri şəhər tədbirlərində fəal iştirak etməklə bu imkanlardan maksimum faydalanmağa çalışırlar.

Hesabat dövründə gənclər və idman naziri Fərid Qayıbov MDU-nu iki dəfə ziyarət etmişdir. 2022-ci ilin noyabrın 23-də nazir "Gənclərlə dialoq platforması" çərçivəsində MDU-da görüş keçirərək regionun tələbə gənclərinə dəstəyini ifadə etmişdir. Bundan əlavə, 2023-cü ilin iyunun 9-da MDU-da "Məzun Günü - 2023" tədbirinə qatılan F.Qayıbov gənc məzunları təbrik edərək onlara tövsiyələrini vermişdir.

(ardı var)

# BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ

## 2023/2024-CÜ TƏDRİS İLİ ÜÇÜN BAKALAVRİAT SƏVİYYƏSİ ÜZRƏ QƏBUL APARILACAQ İXTİSASLAR

| | AZ | EN |
|---|---|---|
| **I QRUP** | | |
| Kompüter elmləri | • | • |
| Ekologiya mühəndisliyi | • | • |
| Elektrik və elektronika mühəndisliyi | • | • |
| Elektrik və elektronika mühəndisliyi* | | • |
| Energetika mühəndisliyi | • | |
| İnformasiya təhlükəsizliyi | • | |
| İnformasiya texnologiyaları | • | • |
| İnformasiya texnologiyaları* | | • |
| İnşaat mühəndisliyi | • | • |
| İnşaat mühəndisliyi* | | • |
| Kimya mühəndisliyi | • | • |
| Kommunikasiya sistemləri mühəndisliyi | • | |
| Kompüter mühəndisliyi | • | • |
| Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi | • | • |
| Maşın mühəndisliyi | • | |
| Materiallar mühəndisliyi | • | |
| Memarlıq** | • | • |
| Mexanika mühəndisliyi | • | • |
| Mexatronika və robototexnika mühəndisliyi | • | |
| Nəqliyyat tikintisi mühəndisliyi | • | |
| Proseslərin avtomatlaşdırılması mühəndisliyi | • | • |
| Radiotexnika və telekommunikasiya mühəndisliyi | • | |
| Şəhərsalma | • | |
| Sənaye mühəndisliyi | • | • |
| **II QRUP** | | |
| Beynəlxalq ticarət və logistika | • | |
| Biznesin idarə edilməsi | • | • |
| Dövlət və bələdiyyə idarəetməsi | • | • |
| İqtisadiyyat | • | • |
| Maliyyə | • | • |
| Marketinq | • | |
| Mühasibat | • | • |
| Nəqliyyatda servis (Avtomobil nəqliyyatı üzrə) | • | |
| **V QRUP** | | |
| Dizayn** | • | • |

AZ Tədris Azərbaycan dilindədir EN Tədris ingilis dilindədir

*İngilis dilli ixtisaslarda müsabiqə Azərbaycan və rus bölmələri üzrə birgə aparılır.*

** Bu ixtisaslarda bakalavr hazırlığı Koreya Respublikasının İNHA Universiteti ilə birgə ikili diplom proqramları üzrə dövlət sifarişi əsasında aparılacaqdır. Müsabiqədə 400 və daha çox bal toplayan abituriyentlər iştirak edə bilərlər. İmtahan 2 mərhələdə aparılır. 2-ci mərhələnin imtahanı (müsahibə) İNHA Universiteti tərəfindən aparılır.*

*** Bu ixtisaslar üzrə qabiliyyət imtahanı nəzərdə tutulmayıb.*



NÜMUNƏVİ TƏDRİS
MÜASİR TEXNOLOGİYA

“2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində Bakı Mühəndislik Universiteti (BMU) ilə Koreya Respublikasının İNHA Universiteti arasında ali təhsilin bakalavriat səviyyəsində tam dövlət təqaüdlü beynəlxalq ikili diplom proqramı (http://ddp.beu.edu.az)



**BMU-İNHA ikili diplom proqramına əsasən tədris 4 ixtisas üzrə aparılır:**

İNFORMASİYA TEXNOLOGİYALARI
ELEKTRONİKA MÜHƏNDİSLİYİ
İNŞAAT MÜHƏNDİSLİYİ
ELEKTRİK MÜHƏNDİSLİYİ

4 il 2 ölkə 2 diplom


Clarivate Analytics

# Elm və təhsilin inkişafı naminə

## Alimlərimiz üçün yeni imkan və perspektivlər açılır

Elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli qeyd edib ki, mərasim ölkəmizin yenidən beynəlxalq elmmetrik bazalara çıxışının təmin edilməsi ilə bağlı yeni bir layihənin imzalanmasına həsr olunub. O, diqqətə çatdırıb ki, bir müddət əvvəl Elm və Təhsil Nazirliyi ilə başqa bir elmmetrik şirkət (Elsevıer) arasında böyük bir sənəd imzalanmışdır. Bu gün isə artıq dünyanın ən böyük elmmetrik şirkətlərindən biri olan “Clarivate Analytics” elmi bazasına, “Web of Science”-ə çıxışla bağlı Elm və Təhsil Nazirliyi tərəfindən yeni müqavilə imzalanır. Nazir müşaviri əlavə edib ki, bu müqavilə nəticəsində ölkəmizdəki özəl və ya dövlət qurumları olmalarından asılı olmayaraq bütün ali təhsil müəssisələri, Elm və Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, eləcə də müxtəlif nazirliklərin nəzdində olan elmi tədqiqat institutlarımızın hamısı “Web of Science”-a və “Clarivate Analytics” elmi bazasına və şirkətin təklif etdiyi digər alətlərə çıxış əldə etmiş olacaqlar.

⇦ Əvvəli səh.1

### Çox gözəl platforma, yeni imkanlar

Nicat Məmmədli əlavə edib ki, bu müqavilə təhsil və elm müəssisələrimiz, alimlərimiz üçün çox gözəl platformadır və yeni imkanlar yaradır: “ Dünyada indiyə qədər mövcud olan və hazırda nəşr edilən elmi araşdırmalara çıxış əldə olunur, bu, həm də Elm və Təhsil Nazirliyinin təşəbbüsü olaraq həyata keçirilir və bizim ali təhsil, elm müəssisələrimiz heç bir ödəniş etmədən öz əməkdaşlarına adıçəkilən bazaya çıxışı çox rahat şəkildə təmin edə biləcəklər. Nəzərə almaq lazımdır ki, bu paltformalarda iştirak, bu müqavilə bizə həm də o imkanı verəcək ki, bizim alimlərimiz “Clarivate Anallytics” şirkətinin həyata keçirdiyi çoxsaylı seminarlada iştirak edə biləcəklər. Bu seminarlar da alimlərimizə çox yaxşı imkanlar yarada bilər ki, onlar bu platformalardan rahat istifadə edə bilsinlər”.

N.Məmmədli qeyd edib ki, bizim əvvəlki müqavilədə adları olmayan yeni tədqiqat müəssisələrimiz var ki, onlar əvvəllər bu bazadan istifadə etməyiblər. Onların profilləri belə bu bazalarda mövcud deyil. Bundan sonra isə Azərbaycanda fəaliyyət göstərən bütün tədqiqat institutlarının, eyni zamanda ali təhsil müəssisələrimizin, həmçinin bu qurumların alimlərinin də ayrı-ayrı profilləri olacaq. Onlar artıq özlərinə aid olan bütün məqalələri, nəşrləri və s. çox rahat şəkildə indeksləşdirə biləcəklər.

N.Məmmədli əlavə edib ki, bu, bir daha Azərbaycanın həm nəşr aktivliyinin, həm də görünənliyinin artmasına xidmət edəcək: “Nəzərə almaq lazımdır ki, görünənliyin artması bizə həm də beynəlxalq sahədə əməkdaşlığımızı genişləndirməyə, alimlərimizin bir-birlərini daha yaxşı görə bilmələrinə imkan yaradacaq. Məsələn, dünyada hansısa bir sahədə məqalə yazan, tədqiqat aparan, hansısa layihədə iştirak edən alimlər varsa, onlar həmçinin azərbaycanlı tərəfdaşlarını və əksinə, tapa bilərlər”.

Beynəlxalq əməkdaşlıq çərçivəsində aparılan tədqiqatların, yazılan nəşrlərin daha çox istinad sayı aldığını bildirən N.Məmmədli əlavə edib ki, “bu, həm də getdikcə elmi məqalələrin keyfiyyətinin, istinadların sayının artmasına, nəticədə ölkəmizin, alimlərimizin Hirş indeksinin yüksəlməsinə və s. digər çox yaxşı nəticələrin əldə olunmasına səbəb olur. Buna görə də biz əminik ki, bu müqavilənin bizim üçün böyük əhəmiyyəti olacaq”.

### Azərbaycan məqalə sayına görə liderliyini qoruyub saxlayır

“Clarivate Analytics” şirkətinin vitse-prezidenti Stephen Hawthorne təmsil etdiyi qurumla Azərbaycan arasında ilk müqavilənin 2015-ci ildə imzalandığını diqqətə çatdırıb və qeyd edib ki, o dövrdə Azərbaycan Cənubi Qafqaz regionunda məqalə sayına görə geridə qalmışdı. Lakin “Clarivate Analytics” şirkəti ilə müvafiq müqavilənin imzalanmasından 2-3 il sonra Azərbaycan məqalə sayına görə bütün Cənubi Qafqaz ölkələrini üstələyib. Məqalələrin keyfiyyətinə də maraq artmağa başlayıb. Nəzərə almaq lazımdır ki, bu günə kimi Azərbaycan “Web of Science” bazasında məqalə sayına görə liderliyini qoruyub saxlayır.

### Elmimiz və təhsilimiz yeni bir pilləyə qalxacaq

Təhsildə Keyfiyyət Təminatı Agentliyinin sədri Ülkər Səttarova müqavilənin əhəmiyyəti və ölkəmizə, elm və təhsil müəssisələrimizə, alimlərimizə verəcəyi üstünlüklər barədə məlumat verib. Ü. Səttarova “Clarivate Analytics” şirkəti ilə əməkdaşlığın elm və təhsilə verəcəyi töhfəni xüsusi vurğulayaraq ölkəmizə aid elmi nəticələrin kəmiyyət və keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasına təkan verəcəyini qeyd edib: “Bu gün imzaladığımız müqavilə həqiqətən də həm Azərbaycanın ali təhsil, həm də elmi- tədqiqat müəssisələrinin inkişafı və orada çalışan alimlərin öz məqalələrini, öz işlərini daha nüfuzlu, impakt faktoru yüksək olan jurnallarda çap etdirmək üçün çox önəmli və vacib sənəddir”.

Ü.Səttarova əlavə edib ki, burada iki istiqamət var. “İstiqamətlərdən biri odur ki, alimlərimizin öz sahələrinə aid olan aktual elmi məqalələrlə tanış olmalarına, eləcə də həmin elmi işlərə istinad vermək imkanı yaradılır. Qeyd etmək lazımdır ki, elmin bir çox sahələri kifayət qədər dar sahələrdir və bu cür elmi metrik bazalara çıxış məhdud olduğu halda yeni məqalələrlə tanış olmaq çox çətindir. Bu da həqiqətən də öz mənfi təsirini göstərir. Bu, məqalələrin sayı, keyfiyyəti və onlara olan istinadla bağlıdır. Çünki bizim alimlər bu məqalələrlə yaxından tanış olmalıdırlar, onlara istinad verməlidirlər. Yeni müqavilə istinad mədəniyyətini bir az başqa səviyyəyə qaldırmağa imkan və fürsət yaradacaq. Eyni zamanda da başqa ölkələrdən olan alimlərə şərait yaradacaq ki, onlar da bizim alimlərimizin elmi işləri ilə yaxından tanış olsun. Bu imkan yalnız Elm və Təhsil Nazirliyinin tabeçiliyində fəaliyyət göstərən qurumlara yox, bütün qurumlara yaradılır. Bu da o deməkdir ki, bizim elmi cəmiyyətimiz üçün bir çox məsələlər və keyfiyyətli nəşrlərə əlçatanlıq artır. Düşünürəm ki, bu, həqiqətən də bizə çox lazımdır”.

Ü.Səttarova qeyd edib ki, bu müqavilə yalnız elmimizə yox, ümumiyyətlə, ali təhsilimizə və təhsil sisteminə, şübhəsiz ki, böyük töhfə verəcəkdir: “Çünki əgər biz ali təhsil müəssisəsindən danışırıqsa, orada elmin səviyyəsi o ali məktəbin səviyyəsi deməkdir. Yəni orada elmi səviyyə aşağıdırsa, orada çalışan əməkdaşlar yaxşı jurnallarda məqalələr çap etdirə bilmirlərsə, bu, çox acınacaqlı bir vəziyyətdir. Ona görə bu, çox önəmli bir məsələdir”.

Beynəlxalq şirkətlə əməkdaşlığın və imzalanmış müqavilənin universitetlərimizin qlobal reytinqlərdəki mövqeyinə də yaxşı təsir göstərəcəyinə əminliyini ifadə edən TKTA sədri əlavə edib ki, burada bizim yeni analitik imkanlarımız yaranır. “Həm Elm və Təhsil Nazirliyinin, həm də TKTA-nın əməkdaşlarına yeni imkanlar yaradılır ki, onlar belə elmi aktivliyi ölçülə bilən meyarlar əsasında müşahidə etsinlər. Ümumiyyətlə, elmi aktivlik nə qədərdir, nə səviyyədə elmi işlər dərc olunur, alimlər nə səviyyədə araşdırma ilə məşğul olur - bunları analiz etməyə imkan yaradılıb və bu təhlillər nəticəsində müəyyən ehtiyac duyulan qərarların qəbulu üçün əslində yaxşı bir platformadır. Müqavilə bizə elmi tədqiqat institutlarında və ali təhsil müəssisələrində olan elmi aktivliyi müşahidə və analiz etməyə imkan verir”.

Ü.Səttarova bildirib ki, biz bu imkandan yararlanacaq, verilənlərin adekvat təhlili və onların əsasında müəyyən təkliflərin verilməsi və müəyyən qərarların qəbul olunmasına çalışacaqlar. Dünyanın nüfuzlu şirkəti ilə çox mühüm sənədin imzalanmasında Elm və Təhsil Nazirliyinin, şəxsən nazir Emin Əmrullayevin rolunu yüksək qiymətləndirən Ü.Səttarova artıq alimlərimizin elmi bazalara çıxışının təmin olunması üzrə ikinci müqavilənin imzalandığını bildirib: “Hər iki şirkət dünyada çox tanınmış, nüfuzlu elmmetrik bazalardır və bizim alimlərimizin çıxış imkanlarının artırılması üçündür. Onu da qeyd etmək istəyirəm ki, bu vaxta qədər məhdudiyyətlər elmi bazalara çıxışın ödənişli olması ilə əlaqədar idi. Ona görə bir daha bütün həmkarlara təşəkkürümü bildirmək istəyirəm ki, uzun müzakirələrdən və proseslərdən sonra nəhayət ki, biz bunu imzalayırıq və bizim alimlərimiz ödənişsiz əsaslarda bu platformalardan istifadə edərək bəhrələnə biləcəklər. Əminəm ki, hər iki müqavilənin imzalanması nəticəsində elmimiz və təhsilimiz yeni bir pilləyə qalxacaq”.

**Oruc MUSTAFAYEV**

# Təhsil sistemində uşaq müdafiəsi və təhlükəsizliyi

Uşaqlara qarşı zorakılıq onların rifahına mənfi təsir edən ən böyük amillərdən biridir. Uşaqların erkən yaşlarda bu və ya digər şəkildə zorakılığa məruz qalması onların fiziki, psixoloji və psixi sağlamlığına, həmçinin rifahına mənfi təsir göstərir (ÜST,2022). BMT-nin Uşaq Fondunun (UNICEF) statistikasına (2020) əsasən, dünya üzərində 13-15 yaşlı hər 3 şagirddən 1-i zorakılıqla üzləşir. Eyni zamanda, baş verən zorakılıq hallarının iqtisadiyyata vurduğu zərər hər il təxminən 7 milyarda bərabər olur. Zorakılıq hallarının çoxluğu və uşaqlara vurduğu zərəri nəzərə alsaq, uşaqların müdafiəsi və təhlükəsizliyini sağlam cəmiyyətin yaradılmasının, uşaqların rifahının və inkişafının təmin edilməsinin əsas aspektlərindən biri hesab etmək olar. Bu məqalədə ilk öncə uşaq müdafiəsi və təhlükəsizliyi konsepti və onun beynəlxalq təcrübədə tənzimlənmə mexanizmi araşdırılıb. Məqalənin sonrakı hissəsində bu sahədə, xüsusilə, Azərbaycanda təhsil sistemində görülən işlər, onların məqsədi və mahiyyəti barədə məlumatlar təqdim edilib.

### Uşaq müdafiəsi və təhlükəsizliyi konsepti və onun beynəlxalq təcrübədə tənzimlənmə mexanizmi

Uşaq müdafiəsi və təhlükəsizliyi dedikdə, uşaqlara qarşı hər cür laqeyd davranış, istismar və zorakılıq hallarından yarana biləcək zərərin önlənməsi və qabaqcıl tədbirlərin görülməsi nəzərdə tutulur (UNICEF, 2021). Beləliklə, anlayış uşaqlara dəymiş zərərə müvafiq cavab tədbirlərinin görülməsini də özündə ehtiva edərək, həmçinin proaktiv yanaşmanı dəstəkləyir. Çoxsaylı araşdırmalar göstərir ki, uşaqların sağlam mühitdə böyüməsi və təhlükəsiz mühitdə tam potensialına çatması onların fərd olaraq inkişafı ilə yanaşı, sağlam cəmiyyətin formalaşmasının da əsaslarından birini təşkil edir. Buna görə də, müxtəlif hökumətlər, qeyri-hökumət təşkilatları (QHT) və beynəlxalq təşkilatlar uşaqlara qarşı zorakılıq hallarının azaldılmasının vacibliyini anlamış və bu fəaliyyətin fərd və cəmiyyətlərin kollektiv məsuliyyəti olaraq dərk edilməsini dəstəkləmişdir. Nəticədə, uşaq müdafiəsi və təhlükəsizliyini həyata keçirmək üçün beynəlxalq təcrübədə müxtəlif mexanizmlər sınaqdan keçirilmişdir.

Hər bir mexanizmin fəaliyyət istiqamətinin tənzimlənməsi üçün ilk olaraq, müvafiq qanunvericilik bazasının yaradılması vacibdir. Məsələn, Uşaq Hüquqları Konvensiyasında uşaqların harada yaşamasından və hansı şərtlər altında olmasına baxmayaraq onların müdafiə olunmaq, lazımi qaydada qidalanmaq və hər cür zorakılıq, sui-istifadə, laqeydlik, pis rəftar və istismardan azad olmaq hüququnun olduğu vurğulanır. Bu kimi beynəlxalq sənədlərə əsaslanaraq, bir çox ölkədə uşaqların hüquqlarını və onlara qarşı baş verən zorakılıq halları zamanı atılacaq addımları özündə ehtiva edən sənədlər mövcuddur. 1989-cu ildə İngiltərədə qəbul olunan və daha sonra əlavələr edilən Uşaqlar haqqında akt da bənzər siyasətin nümunəsidir. İngiltərədə, həmçinin təhsil sistemində Təhsil Şöbəsi (Department of Education, 2022) uşaqların zorakılıqdan azad mühitdə təhsil alması üçün məktəbləri və kollecləri zorakılıq halları zamanı dərhal hərəkətə keçməsini və müvafiq orqanlara hesabat verməsini tələb edən xüsusi sənədlə təmin edir. Belə mexanizmə bir başqa nümunə - 1974-cü ildə Amerika Birləşmiş Ştatlarında (ABŞ) qəbul edilmiş Uşaq istismarının qarşısının alınması (CAPTA) aktı ola bilər. Akta əsasən təhsil sistemində müəllimlər də daxil olmaqla, uşaqlarla işləyən mütəxəssislər baş verən zorakılıq hallarını xəbər verməli və erkən müdaxiləni təmin etməli idilər.

Beynəlxalq təcrübəyə nəzər salsaq, görərik ki, qurumlararası əməkdaşlığın təşviqi ölkələrdə uşaq müdafiəsi və təhlükəsizliyi sahəsində yayılmış başqa bir təcrübədir. Avstraliya Uşaqlarının Müdafiəsi üzrə Milli Strategiya (2021) sənədi təhsil işçiləri, hökumət orqanları, sosial xidmətlər və səhiyyə arasında milli əməkdaşlığın, məlumat mübadiləsinin, həyata keçiriləcək tədbirlərin koordinasiyasının və ölkə üzrə vahid yanaşmanın önəmini vurğulayır. Eynilə, İngiltərədə də oxşar siyasət Uşaqlar haqqında akt sənədi ilə tənzimlənir (Foster, 2020). Beləliklə, müxtəlif təşkilatlar risk qiymətləndirmələri aparmaq, müdaxilə planları hazırlamaq və həssas uşaqlara və ailələrə dəstək vermək üçün birlikdə işləyir və müxtəlif layihələr həyata keçirirlər.

Qloballaşan dünyada ölkələr yalnız öz daxili səyləri ilə yox, həmçinin bir-birləri ilə əlaqədə uşaq müdafiəsi və təhlükəsizliyi sahəsində işlər görür. Məsələn, uşaqlara qarşı zorakılıq halları zamanı köməklik və məlumat məqsədilə yaradılan məxfi uşaq qaynar xətləri də uşaqların təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Təcrübəli mütəxəssislərin fəaliyyət göstərdiyi bu çağrı mərkəzləri uşaqları təhlükədə olan zaman məsləhət və dəstəklə təmin edir. Hazırda 135-dən çox ölkəni əhatə edən Beynəlxalq Uşaq Yardım Xətti şəbəkəsi bu kimi mexanizmə ən yaxşı nümunədir.

### Azərbaycanda uşaq müdafiəsi və təhlükəsizliyi sahəsində təhsil sistemində görülən işlər

Uşaq müdafiəsi və təhlükəsizliyi mövzusunda dünya ölkələri ilə bərabər Azərbaycanda da bir sıra tədbirlər həyata keçirilir. Qeyd etmək lazımdır ki, daha öncə vurğulanan İngiltərə və ABŞ nümunəsində olduğu kimi ölkəmizdə də uşaqların rifahının yaxşılaşdırılması qanunla tənzimlənir. Məsələn, Azərbaycan Respublikası "Təhsil haqqında" Qanununun 32-ci maddəsi və Azərbaycan Respublikası "Ümumi təhsil haqqında" Qanununun 22-ci maddəsi, xüsusilə, təhsil sistemində uşaqların qorxmadan və zərər görmədən əylənmə, sosiallaşma və inkişaf etməsində təhsil işçiləri və könüllülərin rolunu vurğulayır. Əlavə olaraq, "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı əsasında tədbirlər planının 5.3.9-cu bəndində uşaqlara qarşı hər cür zorakılığın mənfi nəticələri haqqında maarifləndirmə tədbirlərinin genişləndirilməsi istiqamətində tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Uşaq hüquqlarının qorunması və rifahının daha səmərəli müdafiəsinə nail olmaq məqsədilə 2022-ci ildən etibarən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə UNICEF-in birgə fəaliyyət planına əsasən Azərbaycan Respublikasının Təhsil İnstitutu "Təhsil sistemində uşaq müdafiəsi və təhlükəsizliyi" adlı pilot layihə həyata keçirir. İki ildir davam edən layihə çərçivəsində Bakı və Lənkəran şəhərləri, eləcə də, Ağcabədi və Zəngilan rayonlarında, ümumilikdə, 51 məktəbdə Uşaq müdafiəsi və təhlükəsizliyi (UMT) mexanizmi tətbiq olunur.

İlk öncə, pilot məktəblərdə direktor, direktor müavini, psixoloq, valideyn və müəllimdən ibarət olan UMT komandaları seçilmiş mütəxəssislər tərəfindən təlimləndirilib. Həmin təlimlər zamanı iştirakçılar uşaq müdafiəsi və təhlükəsizliyi anlayışı haqqında məlumatlandırılıb, eyni zamanda, uşaq müdafiəsi və təhlükəsizliyi mexanizminə daxil olan siyasətlərdən istifadə edərək uşaqların necə səlahiyyətləndirildiyini, onların səslərini eşitdirməsi üçün imkanların necə təmin edilə biləcəyini öyrəniblər. Təlimin effektivliyini ölçmək, həmçinin təlim iştirakçılarının ümumi bilik səviyyəsini qiymətləndirmək üçün müdavimlər arasında pre və post-testlər keçirilib. UMT komandalarının test nəticələrinə əsaslanaraq qeyd etmək mümkündür ki, müdavimlər uşaq müdafiəsi və təhlükəsizliyi konsepti haqqında müəyyən biliklərə sahib olsa da, təlimdən sonra bu bilik və bacarıqlarını artıraraq daha yüksək nəticə göstəriblər *(şəkil 1)*.




Müdavimlər arasında keçirilən təlimin qiymətləndirilməsi sorğusu da testlərin nəticələri ilə uzlaşıb. Belə ki, respondentlərin böyük əksəriyyəti təlimin faydalı olduğunu və yeni bilik və bacarıqlara yiyələndiklərini bildiriblər. Bununla yanaşı, sorğu iştirakçılarının 40%-dən çoxu valideynlərlə iş, şagird psixologiyası, digər qurumlarla işin effektiv təşkili kimi yeni mövzuların da təlim proqramına əlavə olunmasını təklif edib.

Müəllim, şagird və valideynlərin effektiv məktəb dizaynının "üçbucağı"nın əsas tərəfləri olduğunu (Bloomstran, 2002) nəzərə alaraq, mexanizmin mənimsənilməsi üçün üç hədəf qrupu maarifləndirici görüşlərə cəlb edilib. Belə ki, 2022-ci ildə layihənin birinci fazasında Bakı şəhəri üzrə 25 pilot məktəbdə 974 sinif rəhbəri, 4572 valideyn və 27584 şagird, 2023-cü ili əhatə edən ikinci fazasında isə layihəyə yeni cəlb olunmuş 26 məktəbdə 813 sinif rəhbəri, 2596 valideyn və 25218 şagird uşaq müdafiəsi və təhlükəsizliyi konsepti barədə məlumatlandırılıb. Bu maarifləndirici görüşlər mexanizmin daha yaxşı mənimsənilməsinə, eləcə də uşaq müdafiəsi və təhlükəsizliyi konsepti barədə fikrin formalaşdırılmasına töhfə verir.

Ümumilikdə, aparılan müşahidələr göstərib ki, layihəyə cəlb olunan məktəblərdə mexanizm uşaq müdafiəsi və təhlükəsizliyi sahəsində baş verən keyslərin daha sistemli həllinə imkan yaradır. Mexanizmin tətbiqi ilə bağlı bir sıra məktəblərdə müşahidə olunan boşluqların aradan qaldırılması istiqamətində isə həmin məktəblərə mütəxəssislər tərəfindən mütəmadi superviziya dəstəyi verilir.

**Nəticə**

Beləliklə, uşaq müdafiəsi və təhlükəsizliyi həm dünyada, həm də ölkəmizdə aktual mövzulardan biridir. Qəbul edilən hüquqi sənədlər, müxtəlif qurumlar arasında tərəfdaşlıqlar, həmçinin uşaqlar üçün mövcud olan qaynar xətt xidmətləri uşaqların müdafiəsi üçün dünyada yayılmış təcrübələr sırasındadır. Ölkəmizin təhsil sistemində uşaqların rifahı və hüquqlarının qorunması da hüquqi sənədlərə əsaslanır. Həyata keçirilən "Təhsil sistemində uşaq müdafiəsi və təhlükəsizliyi" layihəsi də ümumtəhsil müəssisələrində uşaqların müdafiəsi və təhlükəsizliyi sisteminin yaradılmasını təşviq edir.Layihə uşaqların məktəbdaxili və məktəbdənkənar rifahının təmin olunması üçün inzibati və pedaqoji heyətin gördüyü tədbirlərə əsaslanır. Atılan addımlar həm uşaqlara qarşı zorakılıq hallarının qarşısının alınmasına, həm də valideynlər, şagirdlər və müəllimlərin maarifləndirilməsinə dəstəkdir. Yuxarıda sadalanan bütün fəaliyyətlərin icrasında keçirilən təlimlər və görüşlər vacib rol oynayır. Beləliklə, gələcəkdə uşaq müdafiəsi təlimlərinin metodik xidmətin bir hissəsinə çevrilməsi uşaq müdafiəsi konseptinin müəllimlərə daha dərindən mənimsədilməsinə kömək edə bilər.

**Zeynəb ƏMİRASLANOVA,**
*ARTİ-nin Layihələrin idarə olunması şöbəsinin aparıcı mütəxəssisi*

# Biz öz tarixi yurdlarımıza mütləq qayıdacağıq!

## İsmayıllı və Şamaxı məktəblərində görüşlər keçirilib

İsmayıllı rayon Ruşan kənd tam orta məktəbində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin əməkdaşları Rövşən Ağayev, Aydın Rəhimov və Dağlıq Şirvan Regional Təhsil İdarəsinin müdiri vəzifəsini müvəqqəti icra edən Rövşən Əliyevin iştirakı ilə tədbir keçirilib. Görüşdə 16 müəllim, 32 kənd sakini, o cümlədən 28 nəfər 1988-ci ildə Ermənistandan deportasiya edilmiş azərbaycanlılar və 13 valideyn iştirak edib.

Tədbirdə vətənimizin bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dıqiqəlik sükutla yad edilib.

Dağlıq Şirvan Regional Təhsil İdarəsinin müdiri vəzifəsini müvəqqəti icra edən R.Əliyev tədbiri giriş sözü ilə açaraq İsmayıllı təhsilinin uğurları barədə ətraflı məlumat verib. Ötən tədris ilində də rayonun ümumtəhsil məktəbləri beynəlxalq, respublika və zona yarışlarında çoxsaylı uğurlara imza atmış, diplom, medal və sertifikatlara layiq görülmüşlər. Fənn olimpiadalarının 8 fənn üzrə respublika yarımfinal mərhələsinə rayon üzrə 175 nəfər vəsiqə, onlardan 28 nəfəri yarımfinalda 7 fənn üzrə ən yüksək nəticə göstərərək final mərhələsində iştirak etmək hüququ qazanmışdır. Final mərhələsində iştirak edən şagirdlərin 13 nəfəri qalib adını qazanaraq medallara layiq görülmüşlər.

Təhsilverənlərin sertifikatlaşması prosesinin test imtahanında Azərbaycan dili və ədəbiyyat müəllimlərinin 50 baldan yüksək nəticə əldə etdiklərinə görə respublika üzrə rayon birinci yerdə olmuşdur.



Məktəbin direktoru Rəna Məmmədova orta məktəbdə təlim-tərbiyə prosesinə rəhbərlik, nəzarətin təşkili, şagirdlərin dərsə davamiyyəti və digər məsələlər barədə hesabat verərək, təlim nəticələrinin güclü və zəif tərəflərini təhlil edib.

Hesabatla əlaqədar ETN-nin əməkdaşları R.Ağayev və A.Rəhimov çıxış edərək valideynlərin məktəbə dəstək olmalarını, müəllimlərlə daha sıx əlaqə yaratmalarını, öz övladlarının təhsilində maraqlı olmalarını tövsiyə ediblər. Natiqlər həmçinin şagirdlərin şəxsiyyət kimi formalaşdırılması, onların biliyinin qiymətləndirilməsi, davamiyyət, təlim-tərbiyə prosesinin keyfiyyəti, təhsildə dəyərlər amili, məktəbəhazırlıq qruplarının təşkilinin əhəmiyyəti barədə danışaraq, təhsil müəssisəsinin idarə edilməsi işinin təkmilləşdirilməsi, məktəblərin ictimai nüfuzunun artırılması və digər müvafiq məsələlərə də toxunublar.

Regional Təhsil İdarəsinin müdiri vəzifəsini müvəqqəti icra edən R.Əliyev öz çıxışında növbəti tədris ilində Ruşan məktəbində sentyabr ayının 15-nə qədər həm təmir işlərinin başa çatdırılacağını, həm də məktəbin maddi-texniki bazasının kompüter avadanlıqları ilə təmin ediləcəyini bildirib.

Görüşdə Azərbaycan Respublikasının elm və təhsil nazirinin "Təhsil müəssisələrinin müəllim-şagird (tələbə) heyətinin partlayış təhlükəsinə qarşı maarifləndirilməsi barədə metodiki tövsiyələr"in təsdiq edilməsi barədə" əmrin icrası müzakirə edilərək, məktəbdə mina təhlükəsinə qarşı maarifləndirmə işlərinin aparılmasının aktuallığı, təhsilalanların və təhsilverənlərin, həmçinin valideynlərin bu istiqamətdə məlumatlı olmasının əhəmiyyəti və təhlükə vəziyyətində atılmalı olan addımlar barədə məlumat verilib. Sonra mina təhlükəsizliyi ilə bağlı videoçarxlar nümayiş olunub, məktəbə plakatlar və digər maarifləndirici vəsaitlər təqdim edilib.

Tədbirin gedişində həmçinin təhsil müəssisələrində Xəzər dənizi və su hövzələrində baş verən boğulma hallarının təhlükəsinə qarşı müəllim-şagird heyətinin maarifləndirilməsinin zəruriliyindən söz açılıb, məsələ ilə bağlı bəzi statistik məlumatlar və tövsiyələr verilib.



Görüşdə yuxarıda qeyd edildiyi kimi, Qərbi Azərbaycanın bölgələrindən, o cümlədən Dərələyəz, Karvansara, Vedibasar mahallarından deportasiya edilmiş kənd sakinləri də iştirak edirdi. Dərələyəz mahalından qaçqın düşən Məhəbbət Vəliyev və təhsil veteranı İnqilab Məmmədov çıxış edərək, Azərbaycan Prezidenti İlham Əliyevin müdrik və uzaqgörən siyasəti sayəsində öz dədə-baba yurdlarına qayıdacaqlarına əmin olduqlarını bildiriblər.

Elm və Təhsil Nazirliyinin əməkdaşı Rövşən Ağayev çıxış edərək bildirib ki, müxtəlif vaxtlarda etnik mənsubiyyətinə görə Ermənistan ərazisindən kütləvi şəkildə deportasiya olunmuş azərbaycanlıların və onların varislərinin ictimai-mədəni birliyinə nail olmaqla onların hüquqlarının beynəlxalq müstəvidə bərpası, Ermənistan ərazisində Azərbaycan xalqının yaratdığı zəngin tarixi-mədəni irsin öyrənilməsi, təbliğ olunması və tam məhv olunmasının qarşısının alınması cəmiyyətin bütün təbəqələrinin diqqət mərkəzində olmalıdır. Deportasiya olunmuş azərbaycanlıların öz ata-baba yurdlarına qayıtmaq hüququnun təmin edilməsinin və birgəyaşayışa nail olunmasının vacibliyini vurğulayaraq R.Ağayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı və dövlətin dəstəyi ilə hazırlanmış Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının xalqımızda bu əminliyi, inamı artırmasını qeyd edib və məsələ ilə bağlı sualları cavablandırıb, fikir mübadiləsi aparıb.

Tədbir zamanı Qərbi Azərbaycan xronikası: "Ermənistanı və erməniləri həqiqətə boyun əydirəcək plan" adlı videoçarx təqdim edilib.

***

Şamaxı rayon Günəşli kənd tam orta məktəbində valideynlərlə - 1988-ci ildə Ermənistandan qaçqın düşmüş və hazırda bu kənddə məskunlaşmış azərbaycanlılarla görüş təşkil olunub. Tədbirdə Qarabağ qaziləri və məktəbin müəllimləri, həmçinin Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin əməkdaşı Rövşən Ağayev və Dağlıq Şirvan Regional Təhsil İdarəsinin müdiri vəzifəsini müvəqqəti icra edən Rövşən Əliyev iştirak ediblər.

Məktəbin direktoru Qalib Əliyev bildirib ki, 1988-ci ilin dekabr ayından məlum səbəbdən məktəbə Qərbi Azərbaycandan gəlmiş 15-ə qədər müəllim və 120 nəfər şagird heyəti dərsə başlamışdır. Lakin sonradan məktəb istifadəyə yararsız olduğu üçün Heydər Əliyev Fondu tərəfindən 160 nəfərlik şagird üçün yeni məktəb binası tikilib istifadəyə verilmiş və açılışında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva iştirak etmişdir. Son üç tədris ilində məktəbdə təlim-tərbiyə prosesinin dövlət təhsil standartlarına uyğun hazırlanması, pedaqoji prosesin "müəllim-şagird" əməkdaşlığı üzərində qurulması, şagirdlərdə keyfiyyətli təhsil alma, biliklərə marağı artırmaq, özünə inam hisslərini gücləndirilməsi ilə bağlı görülən işlər, mövcud olan nöqsanlar, həll edilməmiş məsələlər barədə hesabat verilib.

Regional Təhsil İdarəsinin müdiri vəzifəsini müvəqqəti icra edən R.Əliyev hesabatı təhlil edərək, bir sıra tapşırıq verib və tövsiyələr irəli sürüb. Məktəbdə müstəqil Azərbaycan dövlətinin qurucusu, qüdrətli dövlət xadimi və dahi siyasətçi Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Ulu Öndərin zəngin siyası irsinin, şərəfli həyat və fəaliyyətinin gənc nəsil tərəfindən öyrənilməsi ilə əlaqədar məktəbin pedaqoji kollektivinin fəaliyyəti nəzərdən keçirilib, bu sahədə işlərin sistemli şəkildə daha da gücləndirilməsi vurğulanıb.

Müzakirələr çərçivəsində dənizdə, su hövzələrində yeniyetmələrin, gənclərin batması hallarının qarşısını almaq, eyni zamanda mina təhlükəsi və partlamamış hərbi sursatlarla davranış qaydaları haqqında, məktəbin şagirdləri və valideynləri arasında maarifləndirici xarakterli təbliğat işlərinin davamlı keçirilməsi ilə bağlı məsələlər diqqət mərkəzində olub. Bu barədə məktəbin dərs hissə müdiri Ceyhun Sadıqov, İkinci Qarabağ müharibəsi qazisi Vaqif Mustafayev və məktəbin hərbi rəhbəri, əslən Qərbi Azərbaycandan olan Ağa İsayev tədbir iştirakçılarına ətraflı məlumatlar çatdırıblar.

Görüşdə iştirak edən valideyn, Ermənistandan deportasiya edilmiş Xudayar Əskərov məktəbdə müəllim əməyinin dəyərləndirilməsini xüsusi qeyd edərək, Qərbi Azərbaycandan gələn müəllimlərdən son dövrə qədər işləyən Müsəllim İbrahimov, İmdat İbrahimov, Şəmistan Şamilov və Vəlyəddin Aslanov barədə danışıb, digər qaçqın düşənlər və hazırda Günəşlidə yaşayanlar barədə, həmçinin Ermənistandan gətirdiyi sənədlər haqqında məlumat verib.

Görüşdə Ermənistandan qaçqın düşmüş və hazırda bu kənddə məskunlaşmış azərbaycanlılar yekdilliklə bildirmişlər ki, yaxın gələcəkdə onlar, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Bununla belə, qaçqın düşmüş şəxslər Qərbi Azərbaycan İcması tərəfindən müəyyən edilmiş tədbirlərdə nəzərdə tutulan işlərin gedişi barədə lazımi məlumatların alınması üçün müvafiq qəzetin, yaxud xüsusi bülletenin buraxılması, Qərbi Azərbaycandan gələnlərin kompakt yerləşdiyi ərazilərdə həmin şəxslərlə ölkənin tanınmış alimləri, ziyalıları, ictimai xadimləri ilə yerlərdə görüş və müvafiq maarifləndiriçi tədbirlərin keçirilməsi barədə təkliflər veriblər.

Tədbirdə Elm və Təhsil Nazirliyinin əməkdaşı R.Ağayev qeyd edib ki, bu görüş təhsil müəssisəsində görülmüş işlərin vəziyyəti ilə tanışlıq, qarşıda duran vəzifələr barədə valideynlərə, kənd sakinlərinə məlumat təqdim edilməsi məqsədi ilə keçirilib. Natiq Ermənistandan deportasiya edilmiş kənd sakinləri ilə çox əhəmiyyətli söhbət olduğunu qeyd edərək vurğulayıb ki, bu torpaqların da əsl sahibinin azərbaycanlılar olduğunu sübut etməyə ehtiyac yoxdur, yəni Qərbi Azərbaycanlıların qayıdışı elə tarixi ədalətin bərpasıdır. Ona görə də qayıdış ideyası gündəmdə saxlanmalıdır.

Tədbirin sonunda müzakirə edilən məsələlərlə bağlı videoçarx nümayiş, həmçinin məktəbə plakatlar, maarifləndirici prospektlər təqdim edilib.

# Elmi, bədii və mənəvi dünyasının işığında

Aylar keçdi, illər dolandı, nəhayət, gəlib ömrünün altmışıncı baharına çatdın, əziz dostum! Ürəyinin təmizliyindəndir, xoşniyyətli olmağındandır ki, dostun, yoldaşın, yaxınların, uzaqların, ətrafındakılar sevincinə qatılır. Üzün həmişə gülür, dodaqlarından təbəssüm əskik olmur, özündən böyüklər də, kiçiklər də səninlə rastlaşanda, səninlə danışanda xoş ovqatda olur, təəssüratı yaxşılaşır, əhvalı yüksəlir.



**Tanrım, qaytar məni uşaqlığıma**

Eşidəndə ki, sənin altmış yaşın olacaq, uşaqlıq və gənclik illərindən oxuduğum, artıq müəllifini unutduğum şeirdən bir beyt yadıma düşdü:

*İllərə nə var ki, illər tələsmir,*
*İllər nə bilir ki, ürək nə çəkir?!*

Bəli, o dövrlərdə, valideynlərimizin himayəsində, qayğısı altında olduğumuz, dünyanı yalnız al-əlvan boyalarla gördüyümüz, işimizin-gücümüzün az olduğu günlərdə bizə elə gəlirdi ki, illər, aylar, günlər çox ləng gedir. Tez böyümək, yekə kişi olmaq, ali təhsili başa vurmaq, işləmək, bir vəzifə və ailə sahibi olmaq istəyirdik. İllər isə sanki yerində sayırdı.

Həmin hisslərlə sən də yaşamısan, əziz dost! 1963-cü il iyul ayının 22-də Yardımlı rayonunun Vəlixanlı kəndində dünyaya göz açmısan.

Sən Həmzağa kişinin sevimli övladısan. Boya-başa çatdığın bu kəndə, kəndin adamlarına son dərəcə bağlı olduğundan kəndin adını (Vəlixanlı) özünə təxəllüs götürmüsən.

Günləri, həftələri, ayları yola saldıqca uşaqlıq təəssüratları ilə görmüsən ki, illər nə isə ləng keçir. Onlar ötdükcə sənin dünyan da genişlənib, dünyagörüşün də artıb. Arzuların çox olub, həmin arzuların qanadlarında şirinli-şəkərli uşaqlıq illərinə əlvida demisən!

Sevimli kənd müəllimlərini, indi dünyasını dəyişmiş Əhmədağa müəllimi, Mirzə müəllimi həmişə hörmət və məhəbbətlə yada salırsan. İlk müəllimin Şamil Məmmədova baş çəkməyi özünə borc bilirsən. Bizə qələm tutmağı, oxuyub-yazmağı, sinifdə, məktəbdə, ictimai yerlərdə davranmağı öyrədən ilk müəllimlərimiz unudulmazdırlar. Mənim də ilk müəllimim, Əməkdar müəllim Nəsibə Qurbanovaya böyük məhəbbətim, hörmətim olub və olacaq da. Yaxınlarda "Azərbaycan müəllimi" qəzetində onun xatirəsinə həsr etdiyim "Mənim ilk müəllimim" adlı yazını çap etdirmişəm...

**"Düşdük yolların ağına,**
**Baxtımızın sorağına"**
*(Ramiz Rövşən)*

Kənd məktəbini bitirib, Bakıya ali təhsil almağa gələndə arzuların aşıb-daşırdı. Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutuna (hazırda Bakı Slavyan Universiteti) qəbul olundun.

Kənd məktəbinin məzunu ola-ola sən "Rus ədəbiyyatı" və "Tarix" fənləri üzrə şifahi imtahanlardan "əla" qiymətlər aldın, instituta qəbul edildin. Rus dilini mükəmməl öyrənmək, dil-danışıq mühitindən bəhrələnmək üçün tələbə mübadiləsi xətti ilə 1983-1984-cü tədris ilində Həştərxan Pedaqoji İnstitutunun (indiki Həştərxan Dövlət Universiteti) filologiya fakültəsində də təhsil aldın, institutu fərqlənmə diplomu ilə bitirdin. 29 il sonra hazırkı Həştərxan Dövlət Universiteti sənin "Drevnyaya Rus i tyurki: v literaturnıx pamyatnikax XII-XVII vv." monoqrafiyanı çap etdi.

Ali təhsil illərində akademik Teymur Bünyadovdan, professorlar Məmməd Qocayev, Yusif Rüstəmov və Bela Musayevadan, dosentlər Zemfira Mehdizadədən, Sevil Məmmədovadan, Validə Əliyevadan və başqalarından dərs aldın. Onları da həmişə minnətdarlıqla xatırlayırsan.

**"Müəllimlik - qaranlıqları aydınlığa çıxaranların peşəsi"**

Ən böyük arzularından biri təhsil aldığın Vəlixanlı kənd məktəbində müəllim işləmək idi. Bu arzuna qovuşdun. Üç il burada rus dilini və ədəbiyyatını tədris etdin.

Rayonda işləyərkən (1985-1988) sənə məktəb direktoru, rayon komsomol komitəsinin birinci katibi və s. vəzifələr təklif olundu. Sənsə M.F.Axundov adına APRDƏİ-nin əyani aspiranturasını seçdin. Orduda xidmət etməli oldun.

O vaxtlar Qarabağ hadisələri başlamışdı. Hərbi xidmətdə olduğun Pskov və Minskdəki hərbi hissələrdə Qarabağ tarixi, Ermənistan-Azərbaycan qarşıdurması barədə mühazirələr oxumağa və azərbaycanlılardan ibarət musiqi qrupunun çıxışlarına nail oldun. Elmi rəhbərin, Əməkdar elm xadimi, professor Murtuz Sadıxlının dəyərli tövsiyələri hesabına artıq hərbi xidmət dövründə namizədlik işi üzrə materiallar toplayıb sistemləşdirməyə və ordudan geri dönən kimi işi müzakirəyə təqdim etməyə nail oldun. Vaxtından əvvəl işi ("M.Y. Lermontovun nəsr əsərləri Azərbaycan ədəbiyyatşünaslığı və tərcümələrində") yekunlaşdırdığına və müdafiəyə təqdim etdiyinə görə Təhsil Nazirliyinin pul mükafatını aldın.

**"Elmin fəziləti ibadətin fəzilətindən əfzəldir" (Həzrəti Məhəmməd peyğəmbər demişkən)**

Telman müəllim, sən həmişə irəliyə baxmısan. Elmin enişli, yoxuşlu yolları səni özünə elə bağlamışdı ki, araşdırmalarını davam etdirməyə başladın. Özünü yaxşı müəllim kimi tanıtdın. Müstəsna hal kimi institutun rektoru, mərhum professor Firudin Hüseynov kafedra müdirinə səni müəllimlikdən birbaşa dosent vəzifəsinə keçirməyi təklif etdi. Doktorluq dissertasiyası mövzun təsdiq olundu.

Səni maraqlandıran qədim rus ədəbiyyatı abidələrində slavyan-türk əlaqələri mövzusu idi. Mövzun səni Moskva, Sankt-Peterburq kitabxanalarına üz tutmağa, slavyan ölkələrində kitab və məqalələr çap etdirməyə istiqamətləndirdi. Bakıda monoqrafiyaların nəşr olundu. Nəhayət, 2004-cü ildə "Qədim rus ədəbiyyatında slavyan-türk əlaqələri" adlı doktorluq dissertasiyasını müdafiə edərək, filologiya elmləri doktoru elmi dərəcəsi, bir müddət sonra professor elmi adı aldın.

Dissertasiyanın müdafiəsi ilə bağlı aparıcı təşkilat Rusiya Elmlər Akademiyasının M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutu (Qədim slavyan ədəbiyyatları şöbəsi, şöbə müdiri A.S.Dyomin); rəsmi opponentlər A.-Puşkin adına Rus Dili İnstitutunun dünya ədəbiyyatı kafedrasının müdiri professor S.N.Travnikov və professor M.Q.Qocayev olmuşdur.

Doktorluq dissertasiyasının müdafiəsi yüksək səviyyədə keçmiş, istər aparıcı təşkilat, istər rəsmi opponentlər, istərsə də çıxış edən dissertasiya şurası üzvləri əsərin elmi dəyəri, aktuallığı, alınan nəticələrin etibarlılığı və mötəbərliyi haqqında müsbət fikirlər səsləndirmişlər. Təbii ki, mövzunun xarakteri nüfuzlu rus alimlərinin opponentliyinə qarşı ciddi elmi səviyyə və hazırlıq tələb edirdi.

Dissertasiyada X-XVII əsrlərə aid rus ədəbi abidələrində türk və slavyan xalqlarının əlaqələri, onların hərbi-siyasi, mədəni, iqtisadi, dini-etik və sadəcə insani münasibətləri geniş şəkildə araşdırılmış, eyni tarixi-mədəni areala məxsus bu etnos və xalqların ortaq tarixinin və birgəyaşayışının məhsulu olan müştərək maddi və mənəvi dəyərlərə münasibət bildirilmişdi. Burada "Ötən illərin hekayəti", "İqor polku haqqında söyləmə", "Məhmətsultan hekayəti", "Topal Teymur haqqında povest", "Kazan tarixi" və sair əsərlərdə türk motivləri və mövzuları geniş və dərin şəkildə təhlil edilir. Sonradan bu ədəbi abidələrin tərəfinizdən dilimizə tərcüməsi həm də "Qədim rus ədəbiyyatı", "Rus ədəbiyyatı tarixi" dərsliklərinin yazılmasına imkan verdi.

Geniş elmi maraq dairən, elmi-pedaqoji fəaliyyətin, şəxsi təşəbbüsünlə təşkil olunan yaradıcı təşkilat və mətbuat orqanlarında işin, layihələrin sənə müxtəlif illərdə Türkiyə, Macarıstan, Rusiya, İngiltərə, Almaniya, Serbiya, Gürcüstan, Moldova, Qazaxıstan və başqa ölkələrdə bir çox treninq və təlimlərdə, konfrans və simpoziumlarda iştirak və çıxış etmək fürsəti yaratdı.

**Təhsildə innovativ fəaliyyət, təsisçilik, təhsil təşkilatçısı**

*"Ağıl-kamal verdi sənə yaradan,*
*Çalışıb hər sirri öyrən hər zaman"*
*(Əvhədi Marağayi)*

Telman müəllim, sən işgüzar və innovativ fəaliyyəti ilə seçilən təhsil təşkilatçısısan. Hələ 1993-cü ildə ölkədə ilk özəl Tərcümə və Tədris mərkəzlərindən birini təsis etdin, sonra isə 1994-cu ildə ilk özəl - "Mütərcim" nəşriyyatını yaratdın. Məktəb sevgisi səni ölkədə ilk yeni tipli orta təhsil müəssisələrindən biri - "Turan" liseyini təsis etməyə gətirib çıxardı.

Ölkə Prezidentinin istedadlı və qabiliyyətli şagirdlərə qayğının artırılması ilə bağlı sərəncamına uyğun olaraq, bu liseyin və Bakı şəhəri 15 nömrəli məktəbin bazasında, Bakı Slavyan Universiteti nəzdində Məktəb-Lisey Kompleksinin təşkilinə nail oldun...

1991-ci ildən bu günədək rus ədəbiyyatının tarixi kafedrasında laborant, baş laborant, müəllim və dosent vəzifələrində çalışmısan. 2014-2022-ci illərdə universitetin tədris işləri üzrə prorektoru olmusan. Hazırda rus ədəbiyyatı tarixi kafedrasının professorusan. Uzunmüddətli səmərəli fəaliyyətinə görə "Əməkdar müəllim" Fəxri adına layiq görülmüsən.

2017-ci ildə təşəbbüsünlə Tədris və İnnovasiya Mərkəzi yaradılmışdır. Bu gün həmin mərkəz bütün təhsil pillələri və səviyyələrində təhsilalanlar üçün müxtəlif təhsil xidmətləri həyata keçirir. Ölkəmizdə bütün təhsil pillə və səviyyələrində, xüsusilə təlim qeyri-dövlət dillərində aparılan məktəb və siniflərdə bilinqval və polilinqval təlim modelinin geniş tətbiqi ideyasının tərəfdarı kimi zəruri təhsil proqramları (standartları) və planları işləyib müvafiq icra orqanına təqdim etmisən. Xaricdə və respublikada keçirilən konfranslarda bu mövzuda çıxış edirsən. Rusiyada yaşayan türkdilli uşaqlar üçün rus dili üzrə tədris vəsaitiniz (I-IV siniflər, həmmüəllif dosent Mədinə Qiyasbəyli) Moskvada nəşr olunub.

Layihə rəhbərliyin və həmmüəllifliyinlə hazırlanan "Rus dili xarici dil kimi" dərslik vəsaitindən Bakı Slavyan Universitetində ixtisas üzrə əsas tədris vəsaiti kimi istifadə olunur. Üçcildlik tədris vəsaiti kimi nəzərdə tutulmuş "Rus ədəbiyyatı tarixi"nin birinci cildi də ikidilli tədris vəsaiti kimi faydalıdır.

**Naşir, tərcüməçi, jurnalist fəaliyyəti**

*"İnsan qılıncının kəskinliyi ilə qəhrəman ola bilməz, ağlın kəskin olması lazımdır"*
*(Məmməd Səid Ordubadi)*

1996-cı ildə "Mütərcim" ədəbi-bədii və tərcümə jurnalını, 1997-ci ildə "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" məcmuəsini təsis etməklə ədəbiyyatımıza, dilçilik, ədəbiyyatşünaslıq, pedaqoji və psixoloji elmi istiqamətlərimizə öz töhfəni verirsən. "Mütərcim" jurnalı uzun müddət Azərbaycan Yazıçılar Birliyi və Bakı Slavyan Universitetinin həmtəsisçiliyi ilə nəşr olunub. "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" ali məktəblərarası elmi məcmuəsi isə buraxılmağa başladığı zamandan Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının müəyyənləşdirdiyi nəşrlərin siyahısındadır.

2009-2013-cü illərdə Moskvada nəşr olunan "Literaturnaya qazeta"da və onun "Yevraziyskaya muza" əlavəsində Azərbaycanın təmsilçisi kimi ədəbiyyatımızla bağlı materiallarla mütəmadi olaraq çıxış etmisən. Müəllifi olduğun "Ən yeni Azərbaycan ədəbiyyatı" fəsli Almatıda rus dilində çap olunmuş "Ən yeni xarici ədəbiyyat" məcmuəsinə (2011) daxil edilmişdir. MAPRYALın Azərbaycan üzrə koordinatoru (2006-cı ildən), respublikamızda və xaricdə nəşr edilən bir sıra elmi və elmi-metodik nəşrlərin redaksiya heyətinin üzvüsən.

**Tərcüməçilik fəaliyyəti**

*"Ehtiyac əməyi, əmək biliyi doğurmuşdur"*
*(Onore de Balzak )*

Tərcüməçilik Azərbaycan Yazıçılar Birliyinin üzvü kimi fəaliyyətinin əsas istiqamətlərindəndir.

Sən müxtəlif illərdə Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə latın qrafikası ilə buraxılmış 10-dan çox kitabın, o cümlədən antologiyaların tərtibçisi və ön sözün müəllifisən. Sənin təşəbbüsün və ön sözünlə 2014-cü ildə ikicildlik "Ən yeni rus ədəbiyyatı" antologiyası Azərbaycan, ikicildlik "Noveyşaya azerbaydjanskaya literatura" antologiyası isə rus dilində nəşr olunmuşdur. M.Y.Lermontov və A.S.Puşkinin (2 cilddə) "Seçilmiş əsərləri"ni tərtib etmiş, M.A.Şoloxovun "Sakit Don" romanını nəşrə hazırlamısan.

Qədim və XVIII əsr rus ədəbiyyatı nümunələrini, L.N.Tolstoyun, F.M.Dostoyevskinin, V.Voynoviçin, B.Yevseyevin, V.Kupryanovun, A.Jiqulinin ayrı-ayrı əsərlərini dilimizə çevirmisən. F.M.Dostoyevskinin "Karamazov qardaşları" romanını tərcümə etmiş (2010), iki cilddə nəşrinə nail olmusan. Həmin uğurlu tərcüməyə görə Beynəlxalq Tərcümə Assosiasiyası və Rusiya Elmlər Akademiyasının Puşkin İnstitutunun Beynəlxalq Tərcümə mükafatına, Azərbaycan Yazıçılar Birliyinin Tofiq Bayram adına, Azərbaycan Mədəniyyət Nazirliyinin "Qızıl kəlmə" ədəbi mükafatlarına və s. layiq görülmüsən.

**"Biliyin ağası olmaq üçün zəhmətin köləsi olmaq lazımdır"**
*(Onore de Balzak)*

Telman müəllim, sən 30-dan çox kitabın (dərslik, monoqrafiya, lüğət, tədris proqramları və s.), 300-dək məqalənin müəllifisən. Bu sırada məktəb dərsliklərinin hazırlanmasına xüsusi əhəmiyyət verirsən.

Təlim rus dilində aparılan məktəblərin VII, VIII, XI sinifləri üçün "Literatura" dərsliklərinin (2006-2017-ci illərdə) həmmüəllifi, 2016-cı ildə Təhsil Nazirliyinin təşəbbüsü ilə sifariş edilmiş və icrası davam edən yeni məzmun və tərtibatda "Literatura" dərslik komplekslərі seriyasının (V, VI, VII, VIII siniflər) layihə rəhbəri və həmmüəllifisən.

Telman müəllim, sən Azərbaycanda rus ədəbiyyatının yeni resepsiyası və uzun dövr milli ədəbiyyatımızla sıx yaradıcılıq əlaqəsi olmuş həmin ədəbiyyatla bağlı təsəvvürlərin transformasiyası, bu baxışların ümumtəhsil və ali təhsil müəssisələri üçün dərsliklərə gətirilməsi məsələləri ilə məşğulsan.

Davam edən "Literatura" dərslik kompleksləri seriyasında milli ədəbiyyatımızın dominantlığı təmin olunmaqla bərabər, tarixi-xronoloji prinsip əsasında həm də şagirdlərdə rus və dünya ədəbiyyatı barədə dolğun və sistemli təsəvvürün yaradılmasına nail olmusan.

**Avrasiyaçı-alim**

Sən həm də avrasiyaçı alim kimi slavyan-türk xalqlarının müştərək tarixi dəyərləri, eyni tarixi-mədəni arealı bölüşdürmə faktlarından bəhs edən bir sıra avrasiyaçılıq tədqiqatlarını Azərbaycan oxucusuna təqdim edirsən. Bu mövzu ilə bağlı Straxov, Danilevski, Trubeskoy, Savitski, L.Qumilyov, Pletnyova, Erencan Xara-Davan, Nosovski və Fomenko, eləcə də bir sıra Türkiyə və Avropa tədqiqatçılarının əsərlərini tərcümə və təhlil edərək, "Avrasiyaçılıq ideyalarına Azərbaycandan baxış" adı altında nəşr etdirib (2010, 2018) Türk Dövlətləri Birliyi ideyasına, tarixi-mədəni tip kimi türklərin dünya sivilizasiyana verdiyi töhfələri və bu sahədə perspektiv tədqiqatları gündəmə gətirirsən.

XV-XVII əsrlər rus ədəbiyyatında türklər" kitabın 2002-ci ildə Moskvada, sonralar isə Ankarada işıq üzü görmüşdür. Həmin əsər Türkiyə türkcəsində Beynəlxalq Türksoy mükafatına təqdim olunmuşdur (2010).

**Təltiflərin**

Telman müəllim, sən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə səmərəli fəaliyyətinə görə "Əməkdar müəllim" Fəxri adına layiq görülmüsən (2016).

**Son söz**

Əziz Telman Həmzağa oğlu Vəlixanlı (Cəfərov)! Ədəbiyyatşünas və avrasiyaçı-alim, naşir, tərcüməçi, təhsil təşkilatçısı kimi bütün fəaliyyətlərinin fövqündə duran sənin müəllimlik peşəsinə vurğunluğun və tutduğun vəzifələrdən asılı olmayaraq, təhsilimizin təəssübkeşliyi missiyandır. Aparılan islahatlara, yeni məzmunlu təhsil proqramlarının və tədris resurslarının yaradılmasına verdiyin töhfədir. Sən dönüb yaşadığın illərə baxanda sevinə, öyünə bilərsən. Çox böyük işlər görmüsən. Sən kamil şəxsiyyətə xas ola biləcək bütün müsbət keyfiyyətlərə yiyələnə bilmisən. Səni gözəl bir insan, yaradıcı şəxs kimi çox sevirik. Sənin hələ vur-tut 60 yaşın var. Hələ qabaqda görüləsi nə qədər işlərin var. Sənə bundan sonra daha 60 il ömür arzulayıram. Amma sağlam, gümrah, nikbin bir həyat yaşayasan!!! Var ol!!!

**Akif ABBASOV,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun elmi katibi, pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim*



**Aysel Əhədova: "...Əgər siz uşaqları ruhlandıra bilsəniz, gələcək üçün bir neçə alimi qazana bilərsiniz"**

# "Xəyallarınızın arxasınca getməyə cəsarət etmək vacibdir"

⇦ Əvvəli səh.1

*- Siz mayın 25-də Bielefelddə keçirilən FameLab Finalında "DNT təmiri — kiçik səhvlər və böyük nəticələr" adlı çıxışınızla həm münsiflər heyəti, həm də tamaşaçı mükafatı qazandınız. Bu, sizdə necə hiss yaradır?*

- Demək olar ki, hər zaman bu barədə düşünürəm. Bu, sadəcə olaraq unudulmaz bir an deyil, unudulmaz bir təcrübə idi: əvvəlcə Karlsruedə regional qərar, sonra Bielefelddə qalib gəlmək. Hərdən gecənin bir yarısı oyanıram və deyirəm: "Aman Allah, mən FameLab qazandım!". Bundan sonra yuxuya getməkdə çətinlik çəkirəm.

*- Sizi müsabiqənin finalında iştirak etməyə nə vadar etdi?*

- Çağırış məni əvvəllər heç etmədiyim bir şeyi sınamağa çox həvəsləndirdi. Elmi əyləncəli şəkildə çatdırmaq mənə çox xoşdur. Bir neçə "Science Slam"da (elmi kommunikasiya) iştirak etmişəm. Ancaq FameLab fərqli bir çağırışdır: üç dəqiqə ərzində PowerPoint olmadan, sadəcə səhnəyə çıxardığınız əşyalarla təqdimat. Elanı görəndə çox çətin olacağını düşündüm, qeydiyyatdan keçdim *(gülür)*. Elə həmin həftə sonu çıxışım artıq bitmişdi. Bundan sonra fikri daha da "həzm" etdim və nəyi təkmilləşdirə biləcəyimi düşündüm.

*- Deyirsiniz ki, üç dəqiqə çox az vaxtdır. Hər bir söz yerində olmalıdır. Buna necə hazırlaşdınız?*

- Mənim üçün ən çətini qısa müddətdə hər kəsin anlaya biləcəyi bir hekayə seçmək idi. Elm mürəkkəbdir. İnsanlar tez-tez düşünürlər ki, elm adamları bunu məqsədyönlü şəkildə mürəkkəbləşdirir və ya texniki terminlərdən istifadə edir ki, heç kim nəyisə başa düşməsin. Amma bu, o qədər də asan deyil. Tez-tez düşünürəm: "Əgər mən bir mövzunu izah etmək istəsəm, əvvəl üç başqa mövzunu izah etməliyəm və bunu əvvəlcədən izah etmək üçün daha on mövzunu izah etməliyəm". Ən böyük problem, necə başlamaq lazım olduğunu bilməkdir. Üç dəqiqə ilə bir çox məlumatı izah etməyə vaxtınız yoxdur, siz birbaşa mətləbə keçməlisiniz.

*- Mövzunuza, nəhayət qərar vermək üçün hansı meyarlardan istifadə etdiniz?*

- Mən öz sahəmdəki ən vacib mövzu haqqında düşündüm və ağlıma üzərində işlədiyimiz xərçəng peyvəndi gəldi. DNT təmiri ilə başlamaq mənə məntiqli gəldi. Mən bu barədə artıq elmi konfransda danışmışdım, lakin tamamilə fərqli bir konsepsiya ilə. Hüceyrədə baş verən DNT bərpasını avtomobil təmiri ilə müqayisə etmək fikri ağlıma gəldi. Bu, klişedir, lakin Almaniyada hər kəs avtomobillərlə əlaqəli ola və onunla eyniləşə bilər. Beləliklə, DNT təmirini enzimlərlə təmir mexanizmini izah etmək əvəzinə, avtomobillərin texniki baxışı ilə müqaisə etmək istədim. Beləliklə, hekayə öz-özünə yarandı və bənzətmələr alındı. Heç nəyi çətinliklə hekayəyə sığışdırmaq lazım deyildi.

*- Müsabiqədən başlıca mesajınız nədir?*

- Hər şeydən əvvəl, çağırışın "buna dəyər" olduğunu düşünürəm. Özünüzə meydan oxumaq və yeni şeylər sınamaq yaxşıdır. Elm ünsiyyəti ilə nəyəsə nail olmaq son vaxtlar mənim üçün məqsədə çevrilib. Xəyallarınızın arxasınca getməyə cəsarət etmək vacibdir.

*- Sizcə, son illər elm kommunikasiyasının dinamikası və aktuallığı nə dərəcədə dəyişib?*

- Elmlərini geniş ictimaiyyət üçün başa düşülən etməyə çalışan alimlər çoxdan var. Amma mən heç vaxt 900 nəfərin Bielefelddə FameLab finalı üçün görüşdüyünü görməmişəm. Ola bilsin ki, biz hazırda elmi ünsiyyətdə dönüş nöqtəsini yaşayırıq: insanlar mübadilənin nə qədər vacib olduğunu dərk edirlər. Pandemiya, əlbəttə ki, bunda böyük rol oynadı. Düşünürəm ki, bu, alimlərin laboratoriyadan çıxmaq və "Mən insanlara öz tədqiqatlarım haqqında danışmalıyam!" deməli olduğu bir motivasiya idi.

*- Şəxsən siz nə üçün elmi ünsiyyətin vacib olduğunu düşünürsünüz?*

- Elmin mürəkkəb olması onu çatdırmamaq üçün səbəb olmamalıdır. İnsanlar üçün araşdırma aparırıq. Buna görə də onların tədqiqat haqqında öyrənmələri zəruridir. Beləliklə, bizim işimiz elmi hər kəs üçün maraqlı edəcək şəkildə izah etməkdir. Elmdə, o cümlədən bir alim kimi araşdırmaq və öyrənmək üçün sonsuz çox şey var.

*- Tədqiqat gündəliyinizdə xərçəng xəstələri üçün müalicə strategiyaları, həyat keyfiyyətinin yaxşılaşdırılması və ölümün azaldılması kimi əsas məqsədlər var. Elmi ünsiyyət üçün necə vaxt tapırsınız?*

- Mən bu barədə tez-tez düşünürəm. Mənim nöqteyi-nəzərimə görə, onu devizə görə bölmək olmaz: "İndi mən elmlə məşğul olacağam, sonra isə elmi ünsiyyətlə məşğul olacağam". Ən azından mənim üçün bu, belə deyil. Elmi layihəm haqqında düşünən kimi, məsələn, ailəmə və ya dostlarıma bunu necə izah edə biləcəyimi düşünürəm. Bundan bir neçə fikir əldə etdim. Amma tamaşaya hazırlaşanda təbii ki, boş vaxtımı sərf etməliyəm. Bu, mənim üçün əyləncəlidir. Sonra bazar günü bağda oturub təqdimatımı hazırlayıb ağaclara, çiçəklərə təqdim edirəm. Sonra tamaşaya üç-dörd gün qalmış həyəcandan və intizardan həzz alıram.

*- Siz həm də elm adamısınız. Sınamaq istədiyiniz başqa elmi ünsiyyət formatları varmı?*

- Mən səhnə ilə əlaqəsi olan bütün formatlara açığım. YouTube və ya TikTok kimi onlayn formatlar əladır, amma bunlar mənim üçün deyil. Səhnədə özümü ən rahat hiss edirəm, çünki tamaşaçılarla əlaqə saxlayıram və birbaşa rəy alıram. Deyilənlər yaxşı gedirmi? Mövzunu yaxşı izah edə bilərəmmi? Bir şeyin yaxşı işləmədiyi anlar varmı? Özümü inkişaf etdirmək üçün bu reaksiyalar vacibdir. Podkastlar da əla formatdır. Bəlkə bunu yeni bir çağırış kimi sınamalıyam.

*- Elmi ünsiyyətlə başlamaq istəyən insanlara nə demək istərdiniz?*

- Karlsruedə və həmçinin Bielefelddə (Almaniya şəhərləri) uşaqlar tamaşadan sonra yanıma gəldilər və təqdimatımdan zövq aldıqlarını söylədilər. Buna sevindim, çünki maraqlarını itirmədən uşaqları əyləndirmək asan deyil. Düşünürəm ki, həmişə yadda saxlamalısınız ki, əgər siz uşaqları ruhlandıra bilsəniz, gələcək üçün bir neçə alimi qazana bilərsiniz. Həm də əyləncə faktorunu gözdən qaçırmayın. Elmi çatdıra biləcəyiniz bir çox format var, amma məncə buna nail olmağın ən yaxşı yolu insanları güldürməkdir.

Müsahibə ilə daha ətraflı *https://www.wissenschaftskommunikation.de/am-meisten-hat-mich-die-challenge-motiviert-68039/* səhifəsindən tanış olmaq olar.

Qeyd edək ki, Aysel Əhədova 1988-ci ildə Bakı şəhərində anadan olub. 1994-2005—ci illərdə Bakı Avropa Liseyində təhsil alıb. 2005-ci ildə Azərbaycan Dövlət Tibb Universitetinin tibbi-biologiya fakültəsinə daxil olub, təhsilini 2011-ci ildə müvəffəqiyyətlə bitirib. Tələbəlik vaxtı elmi tədqiqatlarla məşğul olub və müxtəlif tələbə təşkilatlarının konfranslarında iştirak edib. İFMSA (International Federation of Medical Students Associations)-nın Azərbaycandakı təmsilçiliyi-AzerMDS ilə tanış olub. 2011-ci ildə İFMSA (International Federation of Medical Students Associations) təşkilatının Research Exchange Mübadilə Programında iştirak edib və Avstriyanın paytaxtı Vyanada yerləşən Mərkəzi Hospitalda bir aylıq tədqiqat təcrübəsi əldə edib. Daha sonra Almaniyanın Mannheim Universitet Klinikasında tibbi təcrübə şansı qazanıb. 2012-ci ildə DAAD-ın 3 illik təqaüdünü qazanaraq xərçəng tədqiqatı sahəsində işləmək arzusunu həyata keçirmək üçün Almaniyaya yollanıb. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 2012-2015-ci illərdə Heydelberq Universitetinin tibb fakültəsində doktorantura (PhD) təhsili alıb, professor Knebel Deberitsin rəhbərliyi ilə doktorluq dissertasiyası üzərində işləyib. 2015-ci ildə doktorantura imtahanını müvəffəqiyyətlə verib və həmin institutda elmi işçi vəzifəsində çalışmağa başlayıb. 2020-ci ildə Heydelberq Universitetinin fəxri senatoru, professor Fridrix Roytner və onun həyat yoldaşı Anita Roytner tərəfindən təsis olunan "Anita və Fridrix Roytner mükafatı"na layiq görülüb. Bu mükafat Heydelberq Universitetinin gənc alimlərinə xüsusilə klinik cəhətdən əhəmiyyətli tədqiqat layihələrinə görə təqdim olunur. O, fəlsəfə doktoru kimi mikrosputnik qeyri-sabit xərçəngin öyrənilməsi üzrə bir neçə layihədə iştirak edib və xərçəng hüceyrələrində qlükoza metabolizminə yönəlmiş yeni dərmanların, dərman kombinasiyalarının identifikasiyası üzrə tədqiqatlar aparıb. Qeyd edək ki, Böyük Britaniyanın Çeltenham Elm Festivalı tərəfindən yaradılan yarışmanın məqsədi gənclərdə elmə olan marağı artırmaq, gənc alimlərə dəstək verməkdir. 2007-2021-ci illər arasında British Council dünyanın 30-dan çox ölkəsində "FameLab International"-a dəstək verməklə, layihənin qloballaşmasına kömək edib.

Gənc tədqiqatçıya elmi araşdırmalarında bol uğurlar arzulayırıq!

**Oruc MUSTAFAYEV**





# Valideynlər "Yay məktəbi"ndə

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) təşəbbüsü ilə paytaxtdakı ümumi təhsil məktəblərində valideynlər üçün keçirilən "Yay məktəbi" davam edir.

Paytaxtdakı 193 nömrəli tam orta məktəbin təşkil etdiyi "Yay məktəbi"nin ikinci günü "Dədə Qorqud" parkında açıq havada baş tutub.

"Yay məktəbi"nin növbəti günü də maraqlı mövzular və əyləncəli proqramlarla yaddaqalan olub. Budəfəki təlim və müzakirələrə valideynləri ilə birgə sagirdlər də qatılıb. "Valideyn-övlad münasibətlərinə dair psixoloji-interaktiv iş", "Şagirdlərdə mütaliə vərdişlərinin aşılanması" mövzularında keçirilən təlimlərdə interaktiv müzakirələr aparılıb, valideynlərin sualları cavablandırılıb. Təşkil olunan intellektual- əyləncəli oyunlar da valideynlər və şagirdlər tərəfindən maraqla qarşılanıb.

"Yay məktəbi"nin proqramına uyğun olaraq valideynlərin robototexnika sahəsində ixtisaslaşmış müəssisələrə ekskursiyaları da nəzərdə tutulub. Sonda iştirakçılara sertifikatlar təqdim olunacaq.

Qeyd edək ki, "Yay məktəbi"nin keçirilməsində əsas məqsəd uşaqlarla yaş dövrünə uyğun davranışla bağlı valideynləri maarifləndirmək, şagirdlərin təhsil nailiyyətlərinin artırılması baxımından məktəb-valideyn əməkdaşlığını müzakirə etmək, yeni tədris ilində qarşıya qoyulan hədəflərlə bağlı valideynləri məlumatlandırmaq, həmçinin məktəb-valideyn münasibətlərini təkmilləşdirmək, məktəbdaxili proseslərə valideynlərin cəlb olunmasına dair fikir mübadiləsi aparmaq, effektiv məktəb mühitini formalaşdırmaq və məktəbin nüfuzunun artırılmasına nail olmaqdan ibarətdir.

"AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti 23 L, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 5564 **Sifariş** 1838

**Məsul növbətçi:** Ş.Cəfərov

# Etibarsız sayılır

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2005-ci ildə Abbasov Araz Zahir oğluna verilmiş B-033515 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu** (Azərbaycan Dövlət İqtisad Universiteti) tərəfindən 1984-cü ildə Rzayeva (Aslanlı) Gülnarə Nadir qızına verilmiş Г-I-011696 nömrəli fərqlənmə diplom itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 16 nömrəli tam orta məktəbin IX sinfini 1988-ci ildə bitirmiş Xasiyev Akif Asif oğluna verilmiş A-487927 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Qaradağlı kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Quliyeva (İsayeva) Nigar Səftər qızına verilmiş A-729538 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 9 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Gəncmalıyeva (Əliyeva) Könül Nurməhəmməd qızına verilmiş tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2020-ci ildə İsmayılova Səriyyə Şahin qızına verilmiş C-061891 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Sosial İqtisadi Kollec** tərəfindən 2015-ci ildə İsmayılova Səriyyə Şahin qızına verilmiş AA-058027 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 183 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Rufullayeva Aysel Rəşid qızına verilmiş E-458572 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 117 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Həmidov Sakin Əliəkbər oğluna verilmiş A-392532 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 136 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Həmidov Sakin Əliəkbər oğluna verilmiş A-298048 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə İqtisad Kolleci** tərəfindən 2022-ci ildə Pirməmmədova Sədicə Məmmədəli qızına verilmiş tələbə bileti (Smart kart) itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 26 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Hüseynli Tehran Fürdovsi oğluna verilmiş E-502012 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2006-cı ildə Teyyubova Sona Nəriman qızına verilmiş YB-005901 nömrəli Yenidənhazırlanma diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 7 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Məmmədov Cəmil Ramin oğluna verilmiş E-469716 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 13 nömrəli tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Mustafayev Seyfəddin Xanlar oğluna verilmiş A-122616 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə və 2013-cü ildə verilmiş A-186658 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Ali Hərbi Dənizçilik Məktəbi** tərəfindən 2001-ci ildə Bağırov Sergey Aleksandroviçə verilmiş MN-0003085 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Kərimbəyli kənd tam orta məktəbi 2004-cü ildə Əzizova Aygün Rafiq qızına verilmiş 748608 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Alışar kənd tam orta məktəbi 1999-cu ildə bitirmiş Qulusoy Eldar Qulu oğluna verilmiş A-296066 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 117 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Xurşudova Həliməxatun Vaqif qızına verilmiş 0083 nömrəli ümumi orta təhsil haqqında arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 155 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Ağalarov Elvin İsmayıl oğluna verilmiş A-978818 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə və 2012-ci ildə verilmiş A-098597 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir Turizm Kolleci** tərəfindən 2019-cu ildə Əliyev Məhəmməd Cavanşir oğluna verilmiş AA-125638 nömrəli diploma əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kollecinin** (indiki ADPU-nin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollec) tərəfindən 2012-ci ildə Rizvanova Səbinə Amil qızına verilmiş AA-011830 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2007-ci ildə Kərimov Cəsarət Sakit oğluna verilmiş B-072472 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2016-cı ildə Məmmədov Xəyyam Yaşar oğluna verilmiş A-094150 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 246 nömrəli məktəb-liseyin IX sinfini 2011-ci ildə bitirmiş Həsənova Mələkxanım Zaur qızına verilmiş A-046475 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**8 nömrəli Bakı Peşə Məktəbi** tərəfindən 2002-ci ildə Əliyev Mehrəli Faiq oğluna verilmiş AB-064175 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Təhsil Nazirliyi** tərəfindən 2011-ci ildə Bayramov Allahyar Xudayar oğluna verilmiş 003095 nömrəli Əmək veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 9 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Rəsulova (Məhərrəmova) İlhamə Mustafa qızına verilmiş 195728 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Həsənabad qəsəbə tam orta məktəbi 2003-cü ildə bitirmiş Səfərova Gülay Əliş qızına verilmiş A-740982 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara şəhər** 1 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Mahmudzadə (Məmmədzadə) Şərqiyyə Afət qızına verilmiş A-159603 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Kakalos kənd tam orta məktəbin IX sinfini 2013-cü ildə bitirmiş İbadova (İskəndərova) Gülpərə Əli qızına verilmiş A-372821 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** rayon Aydınqışlaq kənd tam orta məktəbini 2016-cı ildə bitirmiş Göyüşov İlkin Azər oğluna verilmiş A-560548 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncənət Universiteti** tərəfindən 2013-cü ildə Türkoğlu Aysu Niyazi qızına verilmiş B-261947 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 247 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Muradlı Murad Ramis oğluna verilmiş A-012733 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2019-cu ildə Kazımova Nərminə Telman qızına verilmiş C-043811 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 3 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Sadıqov Fərid İmran oğluna verilmiş B-622723 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 272 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Məmmədli Aysun Elxan qızına verilmiş E-357351 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2017-ci ildə Pənahlı Orxan Nemət oğluna verilmiş A-118090 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

## ELAN

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 noyabr 2018-ci il tarixli 507 №-li Qərarına əsasən 1 nömrəli Şəki Peşə Məktəbi və 2 nömrəli Şəki Peşə Məktəbi birləşdirilərək onların bazasında "Şəki Dövlət Peşə Təhsili Mərkəzi" publik hüquqi şəxs yaradılmışdır.

**DİREKTORLUQ**

**Tərtər rayon** Azadqaraqoyunlu kənd tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Həsənova Biriliyant Sahib qızına verilmiş 449505 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu** tərəfindən 1984-cü ildə Mahmudzadə Gülnara Fərhad qızına verilmiş ЛВ-011186 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2020-ci ildə Hadiyev Ruhəddin Şakir oğluna verilmiş C-065682 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Liman şəhər 1 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Rəhimova Ülkər Hamil qızına verilmiş A-153663 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 136 nömrəli tam orta məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Allahverdiyeva Aynurə Telman qızına verilmiş B-119643 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 38 nömrəli tam orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Əbiyev Asim Sabir oğluna verilmiş A-526985 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Əliabad qəsəbə 1 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş İbrahimov Murad İbrahim oğluna verilmiş B-327307 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 1 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Ünqan Mustafaziya Kadir oğluna verilmiş E-225725 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Zümürxan kənd tam orta məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Əsədova Gülşən Əvəz qızına verilmiş 035979 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti** tərəfindən 1992-ci ildə Lətifov Surxan İbrahimxəlil oğluna verilmiş ЦВ-833016 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ordubad rayon** Düylün kənd tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Eyvazov Dəyanət Şahin oğluna verilmiş A-788758 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

# SERTİFİKASİYAMI, Pedaqoji Kadrların Performans DƏYƏRLƏNDİRİLMƏSİMİ?




**Şəmil SADIQOV,**
**filologiya üzrə fəlsəfə doktoru**

Hər bir müəssisə və ya təşkilat işçilərin peşəkarlıq səviyyəsinin müasir dövrün tələbləri ilə uyğunlaşmasını təmin etmək üçün müxtəlif təlim-treninqlər, görüşlər, konfranslar, peşə turları həyata keçirir. Görülən tədbirlərin effektivliyini yoxlamaq üçün kadrların bilik və bacarıqlarının ölçülməsi məqsədilə imtahanlar təşkil edir. Texnologiyalar əsrində hər bir qurum mütəxəssislərinin peşəkarlıq səviyyəsinin müasir tələblərə cavab verməsini təmin etmək üçün bu prosesin təşkilinə səy göstərir.

Cəmiyyətin aparıcı sahəsi olan təhsil sistemi və onun kadrları inkişafın barometri sayıla bilər. Təhsil sistemindəkilərin peşəkarlıq səviyyəsi digər sahə mütəxəssislərinin də analoji səviyyəsinin təminatçısıdır. Bu baxımdan, onların peşəkarlıq səviyyəsi daim nəzarətdə saxlanılmalı, elmi-metodiki bacarıqlarının zamanla uyğunlaşdırılması təmin edilməli və bu bacarıqlar müntəzəm ölçülməlidir. Pedaqoji prosesə "çörək ağacı" kimi baxmaq kimi yanlış yanaşmadan uzaqlaşmaq təkcə müasir dövrün deyil, bütün tarixin tələbidir. İşin ciddiyyətini əsaslandırmaq üçün xeyli arqument gətirməyə ehtiyac yoxdur. Ömürboyu təhsil pedaqoji kadrların hər gün baş verən yeniliklərlə tanış olmağını təmin edir, bu təminatın səviyyəsi isə müxtəlif üsullarla ölçülə bilər. Bu barədə bir az sonra qeydlərimiz olacaq, indi isə təhsilimizin bu günü və ora gəldiyimiz yol barədə söz açaq.

Azərbaycan dövlət müstəqilliyi əldə etdiyi ilk dövrlərdə təhsil sistemimizdə əsaslı dəyişiklik etmək üçün onun əsasını təşkil edən yeni Təhsil Qanunu qəbul edildi, ali məktəblərə qəbul sistemində inqilabi dəyişiklik edildi. Sonrakı dövrlərdə də müəyyən islahatlar aparıldı, lakin bu islahatlarda bir sistemsizlik özünü göstərirdi. Təhsilin müxtəlif səviyyələri: orta təhsillə ali təhsil arasında eyni zamanda islahat aparılmaması bir çox hallarda uyğunsuzluq yaradırdı.

Son dövrlərdə baş verən islahatlar, bir çox hallarda tənqidlə qarşılansa da, prosesə ümidlə baxıram. Bu ümid prosesin davamlı və sistemli keçəcəyinə ümidlə şərtlənir. MİQ imtahanları, məktəb idarəetməsinin əsas simaları olan direktor və müavinlərinin müsabiqə yolu ilə təyin edilməsi, təhsilin müxtəlif sahələri üzrə təlim-treninqlərin təşkili, müxtəlif mövzularda aparılan müzakirələr, Elm və Təhsil Nazirliyi rəhbərliyinin cəmiyyətə açıq olması, təhsil idarələrinin struktur dəyişikliyi də bu ümidi artırır.

MİQ imtahanlarının keçirilməsi təhsilverənlərin keyfiyyətinin müəyyən edilməsinə xidmət edirdisə, sertifikasiya imtahanları - bu istiqamətdə artıq ilk addımlar atılır - təhsilverənlərin peşəkarlıq səviyyəsinin inkişaf dinamikasını izləməyə xidmət edəcək. İlkin məlumatlara görə, sertifikasiyanın test mərhələsində təhsilverənlərə təqdim edilən iki istiqamətdə suallar onların ixtisas bilikləri ilə yanaşı müasir təlim metodları və üsulları, fəal-interaktiv təlim texnologiyaları, interaktiv dərsin mərhələləri və ona verilən tələblər, kurikulumun mahiyyəti və məzmunu, innovativ pedaqoji fəaliyyətin xüsusiyyətləri mövzularını və s. əhatə edir.

İmtahanın ilkin mərhələsində aparılan müşahidələrdən çıxan nəticə belədir ki, imtahanqabağı aparılan qaralama kampaniyası iflasa məhkumdur. İmtahandan yüksək bal toplayanların özünəinamı, digərlərinin də hazırlaşma mərhələsində əldə etdikləri bilik və bacarıqlardan yaranan öyrənmə həvəsi əsassız giley-güzarı kölgədə qoyacaq. Digər tərəfdən öz bacarığına inanan müəllim daim öz üzərində işləməklə inkişafını, əməyinin daha yüksək əməkhaqqı ilə dəyərləndirilməsini təmin edəcək. Bu isə müəllimin əməyini stimullaşdırmaqla yanaşı digər təhsilverənlər üçün nümunə olmaqla təhsilin keyfiyyətinin yüksəlməsini təmin edəcək. Düşünürəm ki, imtahan nəticəsində yaranan müəllim özgüvəni gələcəyin azad və müstəqil müəllimini formalaşdırır. Azad düşüncəli müəllimin yetişdirdiyi vətəndaş da azad olacaq. Bu baxımdan sertifikasiya imtahanı haqqında qərar hədəfə köklənmiş, uzun proses tələb edən bir qərardır. Lakin fikirləşirəm ki, bu imtahan sadəcə biliyin ölçülməsi ilə kifayətlənməli deyil, daha genişmiqyaslı olmalıdır. Çünki bu günün müəllimi sadəcə biliklə sinifdə lider ola bilməz. Digər tərəfdən müəllimlik üçün bilikdən daha vacib dəyərlər var: nitq, ünsiyyət bacarığı, davranış, psixoloji durum, emosional zəka və s.

Bəzən faktoloji biliyi üst səviyyədə olmayan müəllimlər olur ki, o, həm sevilir, həm də ciddi hörmət sahibidir. Onun digər bacarıqları biliyinin tam olmamasını əvəzləyə bilir. Çünki orta məktəbin vəzifəsi təkcə universitetlərə tələbə yetişdirmək deyil. Bu, bütün təhsil sənədlərində ifadə edilir. Bu zaman müəllimin dəyərləndirilməsi də sadəcə elmi biliklərlə yox, digər sahələrlə də aparılmalıdır. Çünki bu gün cəmiyyətə bilikli, eyni zamanda vicdanlı, ədalətli, mərhəmətli, çevik zəkalı, tərbiyəli insanların yetişdirilməsi daha çox vacibdir. Buna görə də sertifikasiya imtahanlarının keçirilməsi üçün uzun müddətdir ki, üzərində işlədiyim və Hədəf Konseptinin tərkib hissəsi olduğu üçün artıq sınaqdan çıxardığımız bir sistemi təklif edirəm. Biz bu sistemin adını PKPD - Pedaqoji Kadrların Performans Dəyərləndirilməsi qoymuşuq.Bu sistem düzgün işlədilərsə, bir müəllimin bütün tərəflərini dəyərləndirmək və haqqı olanı vermək imkanına sahib olarıq.

## PKPD -Pedaqoji Kadrların Dəyərləndirilməsi MEYARLARI

Pedaqoji heyətin dəyərləndirilməsi aşağıdakı meyarlar üzrə ümumi 100 ballıq şkala ilə qiymətləndirilir. Bura aiddir:

Pedaqoji işçinin
- balabilgə dəyərləndirilməsi - 30 bal
- özünüqiymətləndirmə - 10 bal
- rəhbərlik qiymətləndirməsi - 10 bal
- müəllimin peşəkar inkişaf portfoliosu - 50 bal

**1. Şagird dəyərləndirilməsi – 30 bal**

*1.1. Şagirdin fənni mənimsəməsi - 15 bal*

İllik qiymətlərin ortalamasına əsasən şagirdlərin biliyinin mənimsəmə faizi əsas götürülür. Belə ki, bir müəllimin 2 sinfi və hərəsində 15 şagirdi varsa, sinfin fənn üzrə ortalama balı 15 bala nisbətdə müəyyənləşdirilir. Məsələn, sinfin ortalama mənimsəmə balı 100 üzərindən 50-dirsə, deməli, müəllimə bu parametr üzrə 7,5 bal yazılacaq.

Burada əldə etdiyimiz müəllimin öyrətmə bacarıqlarını, işinə olan məsuliyyətini dəyərləndirək.

| s/s | Ad, soyad, ata adı | BİQ ( İxtisas üzrə nəticə) |
|---|---|---|
| 1 | Məhərrəmli Zamin | 100 bal |
| 2 | Əsgərli Ayişə | 50 bal |
| 3 | Məmmədli Nuridə | 100 bal |
| 4 | Məmmədli Selcan | 50 bal |
| 5 | İsmayıllı Aybikə | 100 bal |
| | **Ortalama** | **80 bal** |

$$X=\frac{S1+S2+S3+S4+S5+S.............S(N)}{S(n)}\quad 15\text{---------}100$$

$$Y\text{----------}80$$

$$X=\frac{S1+S2+S3+S4+S5}{5}=\frac{100+50+100+50+100}{5}\ 80bal\quad Y=\frac{15x80}{100}=12\ bal$$

*1.2. Şagird sorğusuna əsasən - 15 bal*

Birinci yarım ilin sonunda şagirdlərlə onlayn anonim sorğu keçirilir, şagirdlər müəllimləri 100 ballıq şkala ilə qiymətləndirir, onun nəticəsindən çıxan ortalama nəticə 15 bala nisbətdə müəyyənləşir. Bu, bizə imkan verir ki, müəllimin şagirdlərə olan münasibətini, davranışını, sevgi ilə yanaşmasını ölçək.

| s/s | Meyarlar | 100 bal üzərindən |
|---|---|---|
| 1 | Savadlılığı | 10 bal |
| 2 | Yumor hissi | 40 bal |
| 3 | Sinfi idarəetməsi | 70 bal |
| 4 | İnkişafıma təsiri | 50 bal |
| | **Ortalama** | **28 bal** |

$$X=\frac{S1+S2+S3+S4}{4}=\frac{10+40+70+50}{4}=28\ bal$$

$$15\text{ --------------}100$$
$$Y\text{ -----------}28$$

$$Y=\frac{28x15}{100}=4,2bal$$

**2. İşçinin öz-özünü qiymətləndirmə bacarığı– 10 bal**

Hər bir təhsilverən özünü qiymətləndirməyi bacarmalı, özünə hesabat verməlidir. Özünü düzgün qiymətləndirməyi bacaranlar heç zaman ədalətsiz ola bilməz. Biz bu qiymətləndirmə ilə müəllimi özünü ölçməyə, özünə kənardan baxmağa sövq edirik. Bu zaman o öz problemlərini yaxşı bilib üzərində işləməyə məcbur olur. Özünüdərk təhsilin ana təməllərindən biridir.

*Meyarlar:*

2.1. Nizam-intizam qaydalarına riayətetmə bacarığı

2.2.Komandada iş bacarığı

2.3.Şagirdlə ünsiyyət bacarığı

2.4. Fərdi inkişaf bacarığı

**3. Rəhbərlik tərəfindən (Direktor, Tədris işləri üzrə direktor müavini, Tərbiyə işləri üzrə direktor müavini, Kafedra müdiri və s.) müəllimin qiymətləndirilməsi – 10 bal**

*Meyarlar:*

3.1.Nizam-intizam qaydalarına riayətetmə bacarığı

3.2. Komandada iş bacarığı

3.3.Şagirdlə ünsiyyət bacarığı

3.4. Fərdi inkişaf bacarığı

Bu qiymətləndirmə ilə biz müəllimin kollektivçilik, ünsiyyət, komanda bacarıqlarını ölçmüş oluruq. Məktəb bir cəmiyyətdir, müəllimin həmkarları ilə münasibətinin yaxşı olması, valideynlərlə ünsiyyət bacarığı, məktəbin ictimai həyatındakı aktivliyi onun əsas dəyərlərindəndir. Bir insan nə qədər yaxşı mütəxəssis olur-olsun, komandada işləmə bacarığı yoxdursa, deməli, görülən işin keyfiyyəti də yüksək ola bilməz.

**4. Akkreditasiya – 50 bal**

*4.1. Attestasiya imtahanı -30 bal*

Burada il sonunda müəllimin ixtisas biliyi ölçülür. Bu, bizə imkan verir ki, müəllim həmişə öz ixtisasını oxumaq və inkişaf etdirmək qabiliyyətinə malik olsun. Daimi təhsil, yeniliyə açıq, tələblərə cavab verən. Digər bir məsələ isə ixtisas biliyi ilə yanaşı öncədən müəyyən olunmuş pedaqoji vəsaitlər tövsiyə etməklə həmin vəsaitlərdən də suallar əlavə edirik. Beləcə, biz müəllimi özünüinkişafa sövq edir, onu təkmilləşdirirk.

*4.2. Portfolio – 20 bal*

4.2.1.Təhsil pilləsi üzrə qiymətləndirmə (max. 3 bal)

4.2.2. İşə davamiyyəti (HR) (max. 5 bal)

4.2.3. Beynəlxalq və ölkədaxili təlimlərdən sertifikatı; elmi-metodiki nəşrlərdə müəllifliyi; məqalə; təlimlərdə və konfranslarda çıxışı (max. 4 bal)

4.2.4.Olimpiada və digər fənn müsabiqələrində şagirdlərinin nəticəsi (max. 4 bal)

4.2.5.Məktəbdə təşkil etdiyi tədbir və həyata keçirdiyi layihələr, dövlət və digər təşkilatlarda həyata keçirdiyi və ya iştirak etdiyi qrant layihələr (max. 4 bal)

Portfolio məktəbin direktoru və kadrlar şöbəsi tərəfindən müəllimin illik fəaliyyəti əsasında aparılır. Bu zaman biz müəllimin nizam-intizamı, pedaqoji bacarıqları, elmi-metodiki fəaliyyəti, təşkilati işləri və s. ölçür, onu düzgün qiymətləndiririk.

**PKPD hesablanma nümunə cədvəli**

| Ad və soyad | Vəzifə | Balabilgə dəyərləndirilməsi | | Özünü dəyərləndirmə | Rəhbərliyin dəyərləndirilməsi | Akreditasiya | | Nəticə |
|---|---|---|---|---|---|---|---|---|
| | | BFM | BSN | | | İmtahan | Portfolio | |
| Ayxan Turan | Azərbaycan dili müəllimi | 10 | 11 | 7 | 6 | 25 | 8 | 67 |
| Elçin Həsənli | Biologiya müəllimi | 15 | 15 | 10 | 10 | 30 | 10 | 90 |

Attestasiya komissiyası pedaqoji işçinin attestasiyasının nəticəsi olaraq aşağıdakı qərarı verir:
- tutduğu vəzifəyə uyğundur: 30 - 100 bal;
- tutduğu vəzifəyə uyğun deyil: 0 - 29 bal.

Gördüyünüz kimi, 4 ana istiqamətdə aparılan dəyərləndirmə müəllimin təkcə il sonu yox, il ərzindəki fəaliyyətini əhatə etməklə yanaşı həm ixtisas biliyi, həm də müxtəlif fəaliyyəti dəyərləndirilir. Bu, bizə imkan verir ki, müəllim il boyu ayaqda olsun, bütün fəaliyyəti yüksək səviyyədə olsun. Təkcə bilik imtahanı onu göstərir ki, il sonu iki-üç aylıq hazırlıq və əzbərçiliklə üstə çıxmasın, bir müəllim olaraq kompleks müəllimlik bacarığı ilə fərqlənsin. Digər tərəfdən də obyektivlik təmin olunsun. Ona həm həmkarları, həm şagirdlər, həm də özü qiymət verir. Həmçinin ixtisas biliklərini müəyyənləşdirmiş olur.

**1.** Pedaqoji Kadrların Performans Dəyərləndirilməsinin nəticələri yekunlaşandan sonra müəllimlərin topladıqları bala görə yeni tədris ili üçün təhsilverənlərin stimullaşdırıcı prosesi başlayacaq ki, bu zaman ballara əsasən müəllimlər aşağıdakı standartlara görə bölgüləndirilir.

*1.1. Tələblərə tam cavab verən (90 – 100 bal)*

Bu vəzifə funksiyası müstəsna qaydada və səmərəli şəkildə icra edilir. Mütəmadi olaraq qarşıya qoyulan tələblər üstələnir. Göstərilən təşəbbüskarlıq işin keyfiyyətinin artırılmasına müsbət təsir göstərir. Bu vəzifə funksiyasının icra edilmə keyfiyyəti əldə edilə bilən ən yüksək səviyyədədir. Bu vəzifə funksiyasının icra edilməsi digər işçilər üçün nümunəvidir. Bu vəzifə funksiyası üzrə digər işçilərə inzibati, metodiki rəhbərlik edə bilər.

*1.2. Tələblərə cavab verən (80 – 89 bal)*

Bu vəzifə funksiyası yüksək keyfiyyətlə icra edilməsə də, tələblərə cavab verəndir. Bir çox hallarda işin icrasında gözləntilər üstələnərək müəyyən edilmiş tələblərə tam olaraq cavab verilir. Vəzifə funksiyalarını icra edərkən zəruri bilik və bacarıqlar nümayiş etdirilir.

*1.3. Tələblərə, əsasən, cavab verən (60 – 79)*

Bu vəzifə funksiyası tələb edilən səviyyədə icra edilir. İnkişaf etməsi vəzifə funksiyalarının icrasının səmərəliliyini daha da artıra bilər. Bilik və bacarıqları vəzifə funksiyalarının icrası üçün kifayətdir.

*1.4. İnkişaf etdirilməsi zəruri olan (50 – 59)*

Müəyyən hallarda bu vəzifə funksiyasının tələblərə uyğun şəkildə icra edilməsində çətinlik çəkilir.İşin tələblərə uyğun şəkildə icra edilməsi üçün inkişafa ehtiyac var. Bu vəzifə funksiyasının icra edilməsi üçün bilik və bacarıqları zəruri olan səviyyədən aşağıdır. Əhəmiyyətli dərəcədə inkişafa ehtiyac var, növbəti ildə fəaliyyət tam nəzarətə götürülərək şans verməк olar.

*1.5. İnkişafı aşağı olan (30 – 49)*

Bir çox hallarda bu vəzifə funksiyası icra edilə bilmir və ya bu vəzifə funksiyasının icrası gözlənilən tələblərdən çox aşağı keyfiyyətdədir. Bu vəzifə funksiyasının tələblərə uyğun şəkildə icra edilməsi üçün lazımi bilik və bacarıqları yoxdur. Əhəmiyyətli dərəcədə inkişafa ehtiyac var. Qarşıdakı ili sadəcə şərtli müqavilə ilə əməkdaşlıq etmək olar.

*1.6. İnkişafı çox aşağı olan (0 – 29)*

Tələbləri tamamilə ödəmir. Dəfələrlə yönləndirilsə də, nəticə çıxarmır. Bilik və bacarıqları bu funksiyanı icra etmək üçün həddindən artıq dərəcədə aşağıdır. Pedaqoji vəzifəyə yararlı deyil, yeni tədris ilindən anlaşma ləğv edilə və ya sadəcə təcrübəçi kimi fəaliyyətinə davam edə bilər.

Sözsüz ki, bu, layihənin ilkin və bir hissəsidir. Üzərində işləyərək müfəssəl varianta salmaq mümkündür. Xüsusi komissiya yaradaraq indidən bu prosesi başlatsaq, həyata keçməsi ən azı üç il çəkər. Onun üçün də gec qalmadan başlayıb təhsilimizin inkişafına dəstək göstərək. Bu mövzuda Elm və Təhsil Nazirliyi ilə əməkdaşlıq çərçivəsində bir təhsil mütəxəssisi olaraq bütün gücümü sərf etməyə hazıram.